www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 oktyabr 2015-ci il Bazar ertəsi № 225 (6253) Qiyməti 40 qəpik

**Xəbər**

## Qubada toydan qayıdan ailə şoka düşdü

yazısı səh.13-də

**Gündəm**

### Ankaradakı terrorda İŞİD “imza”sı - canlı bomba və 95 ölü...



Kürdlərin təşkil etdiyi mitinqdə terror törətməklə ölkədə qarışıqlıq yaratmaq istəyiblər; Türkiyəni Suriyaya çevirməyə çalışanların məqsədi nədir?

yazısı səh.9-da

### Cəbhədə növbəti döyüşlər; İrəvana gedən türk hərbçiləri Qarabağa girə bilərmi?

yazısı səh.11-də

### Ankaradakı terrora görə ölkəmizdə niyə matəm elan olunmadı? - rəylər

yazısı səh.5-də

### “AST Telman”ın “borc qalmaqalı” barədə açıqlama yayıldı

yazısı səh.4-də

### Məmmədovlar Nəqliyyat Nazirliyini necə ələ keçiriblər?

Nazirin nəqliyyat sistemindəki qohumları - adlar...

yazısı səh.10-da

### Hakimiyyətin özünə qarşı yaratdığı silah - əyalət maşınlarına paytaxt qadağası...

yazısı səh.13-də

### Xəzərdə üzən “adsız gəmi” müəmması davam edir

yazısı səh.14-də

### Kramerin rəsmi Bakıya xəbərdarlığını Ağ Evin sözü saymaq olarmı?

yazısı səh.3-də

### İŞİD-i niyə zəiflətmək olmur - 4 səbəb...

yazısı səh.9-da

### Sərnişini sürücüyə “çevirib” 8 il azadlıqdan məhrum etdilər

yazısı səh.10-da

### “əl-Qaida” Putini hədələdi: “Rusiyaya növbəti Əfqanıstanı yaşadacağıq...”

yazısı səh.3-də

### Özləri əkib, özləri çəkir - dünyada narkotik əldə etməyin ilginc yolları

yazısı səh.15-də

## Gürcüstandan Rusiyaya doğru qəfil “U” dönüşü

# TİFLİSDƏN BAKIYA HEYRƏTAMİZ QAZ ŞANTAJI - ŞOK GƏLİŞMƏ

NATO-ya can atan qonşumuzun Moskvaya qəfil üz çevirməsinin səbəbi; qonşu ölkənin Kremldən öz energetik asılılığını artırmaq istəyi hansı zərurətdən doğub? Qaribaşvilinin qəribə Azərbaycan səfərinin arxasındakı sirr pərdəsi və Tiflisdə “işğalçı qazı” əleyhinə aksiya...




yazısı səh.8-də

## “İki nəfər üçün vağzal” - Cavid Qurbanovla Ziya Məmmədov niyə düşmən oldu?

Nəqliyyat naziri “Azərbaycan Dəmir Yolları” rəhbərini “qara piar” aparmaqda ittiham etməklə əslində iqtidarı hədəf alır...

yazısı səh.5-də



### Eldar Sabiroğlunun ittihamlarına “Yeni Müsavat”dan cavab gəldi

yazısı səh.3-də



Yaqub Eyyubov

### Baş nazir müavininin Kremlə mədhiyyəsi etiraz doğurdu

yazısı səh.12-də



*Sülhəddin Əkbər:*

### “Azərbaycan yeganə müttəfiqi Türkiyəni də itirə bilər”

yazısı səh.7-də

**12 oktyabr 2015**

## İlham Əliyev Gürcüstana səfər edəcək



Azərbaycan prezidenti İlham Əliyev yaxın gələcəkdə Gürcüstana səfər edəcək. "Report" "Sputnik-Georgia"ya istinadən xəbər verir ki, bu barədə Bakıda Azərbaycan prezidenti İlham Əliyev ilə Gürcüstanın baş naziri İrakli Qaribaşvili arasında baş tutan görüşün yekunu üzrə Gürcüstan hökuməti aparatından məlumat verilib.

"İlham Əliyevin yaxın gələcəkdə Gürcüstana səfər edəcəyi qərara alınıb", - deyə məlumatda qeyd olunub.

## Elza Seyidcahan deputatlığa namizəd oldu



**Dünən Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında 54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən öz təşəbbüsü ilə namizədliyini irəli sürən əməkdar artist Elza Qasımovanın (Seyidcahan) namizədliyinin müvafiq dairə seçki komissiyası (DSK) tərəfindən qeydə alınmaması barədə şikayətinə baxılıb (APA).**

MSK üzvü Ramiz İbrahimov deyib ki, DSK qərarı 43 imzandan etibarsız sayılması, imza verən 180 seçicinin isə imzasının imtina etməsinə əsaslanıb. MSK İşçi Qrupunun apardığı araşdırma zamanı məlum olub ki, 78 nəfərin imzalarından imtina etməsi əsaslıdır, 102 nəfərin imzasından imtina ərizələri isə əsaslı deyil. MSK İşçi Qrupu hesab edir ki, etibarlı sayılan imzalar da E. Seyidcahanın namizəd kimi qeydə alınması üçün yetərlidir.

MSK E. Seyidcahanın namizədliyinin 54 saylı Şabran Siyəzən DSK tərəfindən qeydə alınmaması barədə şikayətini əsaslı sayıb, DSK-nın qərarını ləğv edib, E. Seyidcahanın namizədliyi qeydə alınıb. İclasda iştirak edən E. Seyidcahan namizədliyi qeydə alındığı üçün təşəkkür edib: "Əks halda saxtakarlıqda ittiham olunmağım məni çox narahat edirdi".

## Bu gün Azərbaycanda yağmursuz hava olacaq



**Bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, mülayim cənub küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 13-15°, gündüz 16-20° isti olacağı gözlənilir.

Azərbaycanın bölgələrində hava əsasən yağmursuz keçəcək, mülayim qərb küləyi əsəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Lakin axşam şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Partlayışda 11 CHP-linin öldüyü açıqlandı



**Ankaradakı mitinqdə meydana gələn bombalı hücumda həyatını itirənlərin şəxsiyyətləri müəyyən olunmağa başlayıb. "Qafqazinfo" xəbər verir ki, faciədə ölən şəxslər arasında 11 gənc Cümhuriyyət Xalq Partiyasının (CHP) üzvü var.**

Onlardan yalnız 8-nin şəxsiyyətini müəyyənləşdirmək mümkün olub (Gülbahar Aydeniz, Gözdə Aslan, Eren Akın, Mehmet Ali Kılıç, Umut Tan, Onur Tan, Noyabr Otur, Canberk Bakır).

Qeyd edək ki, ötən gün Ankarada partlayış zamanı 95 nəfər ölüb, 246 nəfər yaralanıb.



## Bakıda lombard qalmaqalı böyüyür

**Bayıl qəsəbəsi, Neftçi Qurban küçəsi 36 ünvanında yerləşən lombarda qızıl qoyan şəxslər əmanətlərini geri ala bilmir. Lent.az-ın məlumatına görə, bu günlərdə daha 4 nəfər bir müddət əvvəl bağlanan lombarda qoyduqları qızılı geri ala bilmədiklərini bildirib.**

Belə ki, 8-ci Polis Bölməsinə müraciət edən Ağayeva Narıngül Cənnət qızı 60 qram, Haşımova Gülxar Hüzür qızı 25 qram, Salahova Kəmalə Lələ qızı 8 qram, Məmmədova Rəhilə İslam qızı isə 40 qram qızılı Neftçi Qurban küçəsi 36 ünvanında yerləşən lombarddan geri ala bilmədiklərini qeyd ediblər.

Onlar şikayət ərizələrinfə qızılı lombardın sahibi, 1963-cü il təvəllüdlü Əllazi Tahirə Məmməd qızına verdiklərini qeyd ediblər.

Qeyd edək ki, həmin lombardla bağlı polisə daha əvvəl də çoxsaylı şikayətlər daxil olub. Araşdırmalar davam etdirilir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



## Obama sualtı qayığı suya buraxdı

**Amerikanın birinci xanımı Mişel Obama hərbi dəniz qüvvələrinin yeni sualtı qayığının suya buraxılması tədbirində iştirak edib. Musavat.com xəbər verir ki, bu barədə məlumat "Associated Press" agentliyində yer alıb.**

Şampan butulkasını gəminin göyərtisində sındırmaq M.Obamaya üçüncü cəhddə müyəssər olub. Sualtı qayığa "İllinoys" adı verilib.

M.Obama dənizçilərə və qayığı hazırlayanlara öz minnətdarlığını bildirib. Onun sözlərinə görə, sualtı qayıq texnikanın möcüzəsidir. 2,7 milyard dəyərində olan Virginiya tipli bu qayıq, say hesabına görə on üçüncüdür. Bu gəminin imkanları çox genişdir. Onu xüsusi təyinatlıların çatdırılmasında və kəşfiyyatda istifadə etmək olur.

Qayığın uzunluğu 115 metr, gəminin heyət üzvü isə 130 nəfərdir. Qayıq torpeda və qanadlı "Tomaqavk" raketləri ilə silahlanıb.

Sualtı qayığın inşasına 2011-ci ildə başlanıb. Qayığın 2016-cı ildə hərbi dəniz qüvvələri sıralarına qəbul edilməsi planlaşdırılır.

❑ Aygün SƏFƏRLİ

## Cəlilabadda İran vətəndaşının meyiti aşkarlanıb

**Cəlilabad-İran sərhədində meyit aşkarlanıb. İlkin tibbi müayinə zamanı meyitin bədəni üzərində xəsarət izləri müəyyən olunub. Mərhumun İran İslam Respublikasının vətəndaşı 25 yaşlı Məhəmməd adlı şəxs olduğu bildirilir.**

Onun üzərinə baxış keçirilərkən cibindən mağazalardan birindən etdiyi alış-veriş qaiməsi tapılıb. Həmin mağazaya baş çəkən əməliyyatçılar Məhəmmədin mağazaya kiminlə getdiyini aydınlaşdıra biliblər. Həmin mağazadan İran vətəndaşı ilə birgə gedən şəxs saxlanılıb. Keçmiş polis işçisi olan həmin şəxs Məhəmmədi tanımadığını söyləyib. Faktla bağlı araşdırmalar davam etdirilir.

❑ E.HÜSEYNOV

## Türkiyə ordusu Rusiya qırıcısını vurub?

**Rusiyaya aid "MİQ-29" döyüş təyyarəsinin Suriya-Türkiyə sərhədlərini pozandan sonra Türkiyə qırıcıları tərəfindən vurulmasına dair məlumat yayılıb. Britaniyanın "Express" saytı xəbər verir ki, bu barədə Suriyada çalışan bir neçə jurnalist sosial şəbəkələrdə yazıblar.**

Bildirilir ki, Huraytan bölgəsində hərbi-hava əməliyyatı həyata keçirən Rusiya təyyarəsi Türkiyə səmasına keçdikdən sonra vurulub. Şahidlər havada partlayış gördüklərini iddia edirlər. Rusiya və Türkiyə SQ-nə yönəldilən sorğu hələ cavablandırılmayıb.

Bəzi KİV-lər isə, vurulan "MİQ-29"-un Suriyaya məxsus ola biləcəyini istisna etmirlər: "Əlbəttə, əgər həqiqətən də vurulubsa".

## Ruslar Əsəd üçün könüllü döyüşçülər yığır - internetdə...

**Hazırda Ukraynanın şərqində sakitlikdir. Donbasda separatçıların tərəfində vuruşmaq üçün könüllülər yığan online qruplar, indi onları Moskvanın Suriyada açdığı cəbhəyə göndərə bilər. Hərçənd, Kreml Suriyada döyüşmək üçün könüllülərə çağırış etmədiyini deyir. Sorğular göstərir ki, rusların əksəriyyəti Suriyaya quru qoşunları göndərilməsinin əleyhinədir.**

Amma rusiyapərəst online qruplar hələ də "V Kontakte" sosial şəbəkəsində Suriyaya getmək üçün könüllülər axtarırlar. "Dobrovolec.org" qrupunda sentybardan Suriyaya döyüşə getmək üçün könüllülər yığılır.

2014-cü ildə yaradılan bu vebsaytın iddiasına görə, onlar ruslara və xarici vətəndaşlara, Donbas və Luqanskda döyüşə gedənlərə yardım edirlər. Sayt həmçinin, üzvlərini "Rusiyanın Suriyada hərbi və siyasi iştirakını təmin etmək və regionda vəziyyətin stabilləşməsinə kömək edə bilən mühüm obyektlərin qorunmasında iştiraka çağırır.

"Dobrovolec.org" tərəfindən yaradılan "VK qrup"un 18 üzvü var. Onlardan yalnız 4-ü könüllü olmaq və bu barədə əlavə məlumat almaq istədiyini yazıb. "Surqut" niki ilə yazan 32 yaşlı rusiyalı "Azadlıq" radiosuna bildirib ki, o, Suriyaya getmək üçün artıq qəbul olunub və lazımi sənədlər toplayır. O deyib ki, harda olacağını dəqiq bilmir. Surqutun sözlərinə görə, o, indiyədək artıq Donbasda rusiyapərəst qüvvələrin tərəfindən bir il döyüşüb və iki ay əvvəl qayıdıb.

Rus "patriotu" olan Surqut indi Suriyaya getmək istəyir: "Bu, geosiyasətdir. Əgər ölkəm müharibəyə girirsə, deməli, belə məsləhətdir. Biz yalnız ölkəmizin maraqlarını müdafiə edirik. Mən bunu bütün dünyada deməkdən qorxmuram,"-deyə o, məktubunda yazır.

Surgut daha sonra yazır ki, onun kimi Donbasda döyüşənlərin çoxu Suriyaya getmək istəyir: "Mənim kimi ailəsi-uşağı olmayanlar daha cəsarətlidirlər". Surqut deyir ki, onun Donbasdakı missiyası bitməyib və əgər hadisələr yenidən qızışsa, yəqin komandanlıq onu yenidən geri çağıracaq.

Amma qrupda qeydiyyatdan keçən 23 yaşlı birisi bildirib ki, onun yaşı çatmadığından "Dobrovolec.org" ona Suriya səfirliyinə getməyi, pasport almağı və Suriya ordusuna girməyi məsləhət görüb.

"Yandex"-in məlumatına görə, Suriyaya könüllü adı altında avqustda 200 axtarış verilibsə, sentyabrda bu rəqəm 2400-ü ötüb.

Ukraynanın şərqindəki separatçıların keçmiş komandiri İgor Girkinits Rusiyanın "Qovarit Moskva" radiosuna müsahibəsində deyib ki, ordakı Rusiya birləşməsi Suriyanın hökumət qüvvələrindən yaradılmalıdır: "Deyə bilmərəm onlar könüllüdürlər. Kobud desək, onlar tamahkardırlar", - deyə o, bildirib.

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

# Eldar Sabiroğlunun ittihamlarına "Yeni Müsavat"dan cavab gəldi

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəhbəri, ehtiyatda olan polkovnik Eldar Sabiroğlu ilə YAP-çı deputat Siyavuş Novruzov arasında başlayan qalmaqal pik həddə çatıb. E.Sabiroğlunun Prezident Administrasiyanın rəhbəri Ramiz Mehdiyevi tənqid etməsi ilə başlayan narazılıq deputat tərəfindən yarımçıq dayandırılıb.**

## Müdafiə Nazirliyinin mətbuat xidmətinin sabiq müdiri Ramiz Mehdiyevlə davasına qəzeti niyə qatır? AXCP-nin mətbuat orqanı ilə Səfər Əbiyevin gizli ittifaqında polkovnikin "ariyası"


Eldar Sabiroğlu


Azər Ayxan

Siyavuş Novruzov "Yeni Müsavat"a açıqlamasında bir daha MN-in mətbuat xidmətinin keçmiş rəhbərinə cavab verməyəcəyini bildirib. Bununla belə, o, E.Sabiroğlunun vəzifədə işlədiyi dövrdə düşmənə məlumat ötürdüyünü istisna etmədiyini də qeyd edib.

Bu ittihamlarla bağlı E.Sabiroğlu mətbuata verdiyi son açıqlamada "Yeni Müsavat"ı da hədəfə alıb. Hakimiyyətin yüksək dairələrində təmsil olunan şəxsləri tənqid etməklə, bir nəticə qazanmadığını görən sabiq polkovnik bir mətbuat orqanının ünvanına iftiralar yağdırmaqla gündəmə gəlmək yolunu seçib. Onun açıqlamalarını AXCP-nin mətbuat orqanı olan "Azadlıq" qəzeti də həvəslə tirajlayıb.

E.Sabiroğlunun "Yeni Müsavat" barədə səsləndirdiyi ittihamları olduğu kimi təqdim edirik: "Müsavat.com-un bugünkü sayında mənim 3 gün əvvəl verdiyim müsahibəni tirajlamışdılar. Ramiz Mehdiyevə aid olan hissəni yazıdan götürmüşdülər. Qalan fikirlərim hamısı yerində idi. Təsəvvür edirsinizmi, hardasa səhvə yol verib, hakimiyyətin zirvəsi barədə bir söz işlətsəydim və ya bu mövqeni başqa birisi ifadə etmiş olsaydı, nöqtəsinə-vergülünə qədər hamısını dərc edəcəkdilər. Mən qibtə edirəm "Yeni Müsavat"la Ramiz Mehdiyev ittifaqına...".

### Azər Ayxan: "Rahat ol və möhkəm dayan, igid polkovnik. Napoleon Bonapart köməyin olsun..."

E.Sabiroğlunun ittihamına "Yeni Müsavat"ın baş redaktorunun birinci müavini Azər Ayxandan münasibət öyrəndik: "Eldar Sabiroğlunun nəzərinə çatdırmaq istəyirəm ki, hansı yazını necə vermək həmin qəzetin, saytın işidir. Bunu KİV-dən birmənalı tələb etməyə nə hüquqi baza var, nə də digər öhdəliklər. Ramiz Mehdiyevi kimlərinsə tənqidindən qorumaq kimi öhdəliyimiz yoxdur. Əgər Eldar müəllim kimlərinsə qarşısında Administrasiya rəhbərini davamlı hədəfə almaq öhdəliyi götürübsə, hakimiyyətdaxili qrupların informasiya savaşında killer rolunu oynamaq vəzifəsini üstələnibsə, biz "Yeni Müsavat" olaraq belə çirkin oyunlarda yoxuq. Qoy getsin bu işdə özünə başqa müttəfiqlər tapsın".

A.Ayxan Eldar Sabiroğlunu 20 ilə yaxındır tanıdığını bildirdi: "Onunla 1996-97-ci illərdən tanışam. YAP hazırda "Səs" qəzetinin redaksiyasını qərargah kimi istifadə etdiyi zamanlarda ondan açıqlamalar almışam jurnalist olaraq. Hələ o vaxtlar bu adamda bir maniya müşahidə etmişəm. Həddən artıq özündən razılıq var cənab polkovnikdə. İndi daha da qabağa gedib. Baxıram, artıq özünü Napoleonla filan müqayisə edir. Etsin, öz işidir, amma belə getsə, hörmətli Eldar müəllimə yaxşı bir psixiatr lazım olacaq. Onun hazırkı ruh halı məni çox narahat edir... İndidən ona "Allah köməyin olsun" deyirəm.

A.Ayxan dedi ki, "Azadlıq" qəzetinin E.Sabiroğluna tribuna verməsi də maraqlı məsələdir: "Mən "Azadlıq"ı Səfər Əbiyevlə və iqtidardakı digər qrupla ittifaq qurması münasibətilə ürəkdən təbrik edirəm. Eldar Sabiroğlu da bu prosesdə sabiq müdafiə nazirinin, həmçinin hakimiyyətdaxili başqa bir qrupun əsas danışan dilidir. Danışsın. Susmasından danışması daha yaxşıdır. Ən azı arada biz qəzetçilərə mövzu verir bu açıqlamaları ilə. Amma hazırkı iqtidar o qədər də səbirli və demokratik deyil. Vaxtı ilə hakimiyyətdə vəzifə tutub sonra onu tənqid edənlərin aqibəti heç də yaxşı qurtarmır - ya türməyə düşürlər, ya mühacirətə yollanmağa məcbur olurlar. Biz hər iki halda Eldar müəllimə dəstək verməyə hazırıq - Allah qorusun, türməyə düşəcək olsa, məhkəməsindən geniş reportajlar dərc edəcəyimizə bəribaşdan söz verirəm. Mühacirətə üz tutsa, ordan yollayacağı məktubları böyük həvəslə çap edə bilərik. Hesab edirəm o, kifayət qədər məlumatlı adamdır. Rahat ol və möhkəm dayan, igid polkovnik... Napoleon Bonapart köməyin olsun".

❑ **Cavanşir ABBASLI**



# "əl-Qaida"dan Putinə hədə: "Rusiyaya növbəti Əfqanıstanı yaşadacağıq..."

**"Biz Rusiyaya növbəti Əfqanıstanı yaşadacağıq". Axar.az xəbər verir ki, bu videomüraciəti "əl-Qaida"nın Suriya qanadı hesab olunan Nüsrə terror təşkilatı yayıb.**

Təşkilatın komandirlərindən biri olan 24 yaşlı Əbu Ubeyda əl Madani rus dilində müraciət edərək, Rusiyaya qarşı savaşmağa hazır olduqlarını bildirib: "Biz mücahidlər öz həyatımızı hədəfimiz üçün verməyə hazırıq. Bəs rus əsgərləri Putinin eqoizminə görə ölməyə hazırdırlarmı? Biz onlara Əfqanıstanı xatırladacağıq. Onlar Əfqanıstanda necə biabır olaraq getdiklərini xatırlayacaqlar. Sizin oğullarınız, qohumlarınız öz evlərinə ölü kimi qayıdacaqlar. Ona görə ki, onlar bu torpaqlara işğalçı kimi gəliblər və buradan da işğalçı kimi gedəcəklər".

# Kramerin Bakıya xəbərdarlığını Ağ Evin sözü hesab etmək olarmı?

## Ekspert: "O, sadəcə, öz şəxsi istək və arzularını dilə gətirib..."

**Xəbər verildiyi kimi, ABŞ dövlət katibinin keçmiş köməkçisi, "Freedom House"un keçmiş rəhbəri, hazırda isə ABŞ Beynəlxalq Makkeyn İnstitutunun insan hüquqları və demokratiya üzrə direktoru Devid Kramer Azərbaycan hakimiyyətinə qarşı ABŞ-ın ciddi sanksiyalar tətbiq edəcəyini bəyan edib. Eyni zamanda, Vaşinqtonun sanksiyaları gecikdirməsini anlamadığını bildirib.**


Devid Kramer

"Turan" İnformasiya Agentliyinə müsahibəsində Kramer bildirib ki, 2010-cu ilin əvvəllərindən etibarən rəsmi Bakının əvvəllər özünə dost hesab etdiyi ölkələrə qarşı mövqeyi kəskin şəkildə dəyişib. Həmin andan etibarən rəsmi dövlət təbliğatı Qərbə qarşı mənfi və Rusiyaya qarşı müsbət münasibət formalaşdırmağa başlayıb. Onun fikrincə, Bakıda hökumət Ukraynadakı hadisələri görüb və qorxub. Buna görə öz ölkəsində bu ssenariyə yol verməmək üçün repressiyalar həyata keçirməyə hazırdır: "Görünür, hakimiyyət hesab edir ki, bu cür siyasət yolverilədir - vətəndaş cəmiyyətini dağıtmaq, jurnalistləri və fəalları həbs etmək olar və buna görə heç nə olmayacaq".

Kramer onu da deyib ki, Azərbaycanın hələ də ABŞ-a, Avropaya ehtiyacı var: "Əlbəttə, Bakı Moskva ilə münasibətlərini davam etdirir, amma Azərbaycanın daxilində vəziyyətin pisləşməsi davam edir və gec, ya tez Qərb cəzalandırmağa başlayacaq. Buna görə mən repressiyalara son qoyulması üçün məqsədyönlü sanksiyalar tətbiq edilməsinə üstünlük verirəm".

O, daha sonra Azərbaycanla Belarus arasında müqayisə də aparıb. Bildirib ki, Azərbaycanda vəziyyət siyasi məhbusların azad edildiyi Belarusdan daha pisdir: "Belə olan halda çox şey Qərbdən asılıdır. Qərb möhkəm mövqe tutarsa və "bəsdir" deyərsə, Azərbaycanda baş verənlərə qarşı mübarizə siyasəti işləyib hazırlamalıdır, amma hələlik mən bunu görmürəm".

Bununla yanaşı, Kramer qeyd edib ki, Konqresdə təndqidi əhval-ruhiyyədə və Azərbaycanda baş verənlərdən daha çox narahat olanların sayı getdikcə artır. "Son bir neçə ayda Konqresdən prezident Əliyevə, Obama administrasiyasına ciddi narahatlıq ifadə edən məktubların sayı bunun sübutudur. Bu, Rusiya üzrə "Maqnitski qanunu"nun qəbul edildiyi 2010-cu ili xatırladır. Məhz Belarusa qarşı sanksiyalar tətbiq edildikdən sonra siyasi məhbusların azad edilməsinə nail olmaq mümkün olub".

Rəsmi Bakının sanksiyalardan qorxmadığı və heç kimin hökumətə təzyiq göstərə bilməyəcəyi haqqında bəyanatlarını şərh edən Kramer ardınca deyib: "Mənim və başqalarının təklif etdiyi sanksiyalar məqsədyönlü və mərhələli olacaq və hakimlərə, prokurorlara, siyasi məhbusların təqibində iştirak edən digər şəxslərə qarşı yönələcək. Zərurət olarsa, sanksiyalar hökumətdə yüksək səviyyəyə də şamil ediləcək və gücləndiriləcək. Zənnimcə, Azərbaycanda kimlərsə narahat olacaq".

Qeyd edək ki, bir müddət əvvəl ABŞ-da Azərbaycan hökumətinə, onun ayrı-ayrı təmsilçilərinə qarşı sanksiyalar tətbiq olunması qaldırılmışdı.

Bəs, Kramerin dediklərini ABŞ-dan olan rəsmi mövqenin ifadəsi saymaq olarmı və sanksiyalar gözlənilərdimi?

Plitoloq Qabil Hüseynli bildirdi ki, Devid Kramer bu cür açıqlamalarla birinci dəfə deyil çıxış edir: "Lakin onun açıqlamalarının, təklif və tələblərinin yerini tutmadığı təcrübədən görünür".

Kramerin hakimiyyət rəsmisi olmadığını və Ağ Evin sözçüsü də olmadığını söyləyən Q.Hüseynli bildirdi ki, indiki vaxtda ABŞ-ın Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcəyi inandırıcı deyil. Çünki ABŞ regionda bu qədər gərginliyin, problemlərinin olduğu vaxtda yeni gərginlik ortaya çıxarmaz: "Ən azından bu saat ABŞ-ın başı Rusiya ilə bağlı, İŞİD-lə, Suriya ilə bağlı problemlərə qarışıb. Belə bir şəraitdə regionun mühüm dövlətlərindən olan Azərbaycanla münasibətləri kökündən korlayacaq addım atmaq, müxtəlif sanksiya qanunlarını Azərbaycan siyasi elitasına tətbiq yerinə düşməzdi. Heç bunun əsası da olmazdı".

Politoloqun fikrincə, Amerika Azərbaycanla münasibətləri düzəldəcək və bu münasibətlərin düzəlməsi üçün lazım olan nə varsa, hamısı ediləcək: "Çünki Azərbaycan-ABŞ münasibətlərinin o qədər də uzaq olmayan keçmişi yaxın dostluq və strateji əməkdaşlıq tellərinə əsaslanırdı. İndi münasibətlər bir qədər soyuyub və müəyyən qarşıdurma elementləri müşahidə olunur. Amma bəzən bu, mediada həddən artıq şişirdilmiş şəkildə təqdim olunur. Mən güman edirəm ki, hər halda Azərbaycan tərəfi də müəyyən kompromislər yolu seçməklə bu münasibətlərin normal məcraya yönəlməsinə çalışacaq. ABŞ tərəfi də, sözsüz ki, Azərbaycanla münasibətlərin sanksiyalar tətbiqi səviyyəsinə qədər pisləşməsini istəməz. Kramer, sadəcə, öz istək və arzularını dilə gətirib".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015



# “AST Telman”ın “borc qalmaqalı” barədə açıqlama yayıldı

## Azərbaycanlı milyarderin mətbuat xidməti vəziyyətə aydınlıq gətirib

**“Telman İsmayılov şəxsən ”Moskva Bankı"na kredit müddəti ərzində 70 milyon ABŞ dolları faiz ödəyib və götürdüyü kreditin 50 milyon dollarını qaytarıb". Bu barədə APA-ya iş adamı, AST qrupun prezidenti Telman İsmayılovun mətbuat xidmətindən məlumat verilib.**

Mətbuat xidmətindən bildirilib ki, “Moskva Bankı” ilə AST qrup arasında uzun müddət əməkdaşlıq münasibətləri olub: “İlk kredit müqaviləsi 2006-cı ildə imzalanıb. Əməkdaşlıq müddəti ərzində Telman İsmayılov şəxsən ”Moskva Bankı"na 70 milyon dollar kredit faizi ödəyib. Eləcə də götürdüyü kreditin 50 milyon dollara yaxın məbləğini qaytarıb. AST kompaniyası tərəfindən “Moskva Bankı”ndan götürülən bütün kreditlər “birinci klas” zaminlə təmin olunub. İndiyədək “Moskva Bankı”nda AST kompaniyasının üç böyük aktivi girovdadır. Bunlar “Köhnə Arbat” küçəsində “Praqa” restoranının yerləşdiyi ümumi sahəsi 10 min kvadratmetr olan tarixi bina, Krasnaya Presnya küçəsindəki ümumi sahəsi 16 min kvadratmetr olan ticarət-ofis mərkəzi və İzmaylovo rayonunda yerləşən ümumi sahəsi 21 min kvadratmetr olan ticarət mərkəzidir. Bütün bu obyektlər icarəyə verilib və stabil gəlir gətirirlər.

“Moskva Bankı”ndan borc alanların krediti qaytarmaqla bağlı problemi yarananda Telman İsmayılov və “Moskva Bankı” birlikdə qərara gəldilər ki, girov qoyduqları obyektlərin bir hissəsinin krediti banka qaytarılması məqsədilə satsınlar. Birgə səylərlə girov qoyulan üç obyektdən ikisinə 150 milyon dollar verən alıcı tapıldı. Bundan əlavə alıcı “Moskva Bankı”na 15 milyon dollar məbləğində girov da qoydu. Lakin məlum olmayan səbəblərdən “Moskva Bankı” alış-satış müqaviləsini imzalamadı.

Bir qədər sonra məlum oldu ki, AST şirkətinin krediti “VTB Bankı”nın borc xidmətinə verilib. AST-nin kredit borcuna görə də “VTB bank”ın bu xidmətində kurator Andrey Sergeyeviç Puçkovu təyin ediblər. Puçkovla əlaqə yaratmaq cəhdləri boşa çıxdı.

Telman İsmayılov və “AST holdinq” üçün Puçkovun girov qoyulan aktivləri 33 milyon dollara götürülməsi təklifi tamamilə gözlənilməz oldu - baxmayaraq ki, indiki vəziyyətdə ekspertlərə görə həmin aktivlərin ən aşağı dəyəri 250 milyon dollardan aşağı deyil. Bankın bundan sonrakı fəaliyyəti də tamamilə anlaşılmazlıq doğurur. “Birinci klas” aktivlərin Bankda girov olmasına və həmin aktivlərin götürülən kreditin borcunu tamamilə ödəməsinə baxmayaraq, bankın məhkəməyə müraciət edərək zamin duranların borcu qaytarması barədə iddia qaldırması qəribə görünür.

Hazırda “Moskva Bankı”nın təşəbbüsü ilə başlanan üç məhkəmə işinin hamısı zamin duranlara, girov sahiblərinə, Banka öz aktivlərini girov kimi təqdim edənlərə qarşı deyil, şəxsən Telman İsmayılova və “KBF AST” MMC-yə qarşı başlanılıb.

Sual yaranır ki, “Moskva Bankı” hansı məqsədlə girov qoyulan əmlakları sataraq krediti bağlamağa cəhd edir? Əksinə, birbaşa Telman İsmayılova qarşı iddia qaldırmaq üçün əlindən gələni edir. Hazırda Telman İsmayılov və “AST holdinq” əvvəlki kimi “Moskva Bankı” ilə kreditin bağlanması və borcun tənzimlənməsi məqsədi ilə dialoqa hazırdır", - deyə Telman İsmayılovun mətbuat xidmətindən bildirilib.

Qeyd edək ki, Rusiyanın “Moskva bankı”nın (“Bank Moskvı”, VTB qrupu) Moskva Arbitraj Məhkəməsində paytaxtdakı Çerkizov bazarının keçmiş sahibi, iş adamı Telman İsmayılovun rəhbərlik etdiyi AST Şirkətlər Qrupuna daxil olan “KBF AST” Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı 213 milyon dollarlıq iddia qaldırıb. “Moskva bankı” iddiasında 2012-ci il 28 sentyabr tarixində imzalanmış müqaviləyə əsasən, “Ruslayn 2000" MMC-nin adına alınan 213 milyon dollar məbləğində borcun ödənilməsini tələb edib.

**Parlament seçkiləri ilə bağlı deputatlığa namizədlərin imzatoplama kampaniyası və qeydə alınma prosesi arxada qaldı. Bu müddət ərzində əsas diqqətçəkən məqamlardan biri, təbliğat-təşviqat kampaniyası başlamamış, qeydə alınan iddiaçıların sosial şəbəkələrdə təbliğat xarakterli məlumat paylaşmaları oldu.**



# Namizədin sosial şəbəkələrdə şəkillərinin yayılması qanunsuzluqdurmu?

## Təbliğat-təşviqat kampaniyası başlamamış iddiaçıların virtual aləmdə şəkilləri yayıldı; MSK üzvü: “Sosial şəbəkələr qanuna salınmış məkan deyil...”

Belə ki, deputatlığa namizədliyi qeydə alınan əksər iddiaçılar həmin andan etibarən sosial şəbəkələrdə təbliğat kampaniyası dövrü üçün müəyyənləşdirdiyi, üzərində şüarlar, seçicilərə çağırışlar əks olunmuş şəkillərini paylaşdılar. Bu prosesdə onların tərəfdarları da aktiv iştirak etdilər.

Seçki qanunvericiliyində təbliğat-təşviqat prosesi başlamamış, namizədlərin hər hansı bir təbliğat xarakterli məlumatlar paylaşması, seçicilərə müraciət etmələri yasaq edilib. Heç şübhəsiz ki, bir şəxsin sosial şəbəkələrdə namizədliyi ilə bağlı şəkillərinin paylaşılmasının qarşısını almağı mümkünsüzdür. Saxta profillərin də olduğu bir məkanda bu daha aydın şəkildə özünü büruzə verir. Günlər öncə Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sosial şəbəkələrlə bağlı səsləndirdiyi fikirlər bəzi həqiqətlərin carçısı idi. O, bildirmişdi ki, sosial şəbəkələrə müdaxilə etməyi hətta dövlət başçıları da bacarmır.

Bütün bunlardan sonra hər kəsi bir sual düşündürür. Təbliğat-təşviqat prosesi başlamamış namizədlərin virtual aləmdə təbliğat xarakterli şəkillərinin yayılması, yaxud namizədin özünün belə şəkillərini paylaşması qanun pozuntusudurmu?

MSK üzvü Akif Qurbanov hesab edir ki, şəkil paylaşımı təbliğat-təşviqat kimi başa düşülməyə də bilər: “Təşviqat Seçki Məcəlləsinin tələblərinə görə, siyasi partiyaların, eləcə də, digər namizədlərin seçiciləri bu və ya digər formada başqa namizədə səs verməməyə, yaxud səs istəməyə yönəlmiş bir prosesdir. Əgər bu çağırış varsa, məkanından asılı olmayaraq, təşviqat sayılır. Amma təşviqat Seçki Məcəlləsinin tələblərinə görə, seçkiyə 23 gün qalmış başlayır. Oktyabrın 9-dan etibarən bu proses başlayıb. Namizədlərin istənilən məkanda təbliğat apara bilərlər. Şəkil paylaşımı təşviqat olmaya da bilər. Konkret seçiciləri kiminsə xeyrinə səs verməməyə çağırış etmək, yaxud səs istəmək təşviqat kimi qəbul oluna bilər. Sosial şəbəkələrlə bağlı məsələni tənzimləmək açığı, çətindir. Çünki qanuna salınmış məkan deyil. Seçki komissiyaları tərəflərin bərabərlik hüquqlarının təmin olunmasına əməl etməlidir. Amma bu, o demək deyil ki, belə hal müəyyən olunan kimi, həmin namizədin qeydiyyatı ləğv olunmalıdır. Hətta təşviqat zamanı qanun pozuntusunun olmağı belə, namizədin qeydiyyatının ləğv olunmasına gətirib çıxarmamalıdır”.

MSK üzvü namizədlərin qeydiyyatının ləğv olunması prosedurаları ilə bağlı bunları dedi: “Xəbərdarlıq olunmalıdır. Əgər buna əməl olunmursa, qanunun tələbləri açıq şəkildə pozulursa, o zaman namizədliyin ləğvi üçün məhkəməyə müraciət oluna bilər. Bu hal təkrarən baş vermirsə, yaxud bir dəfə pozuntu baş veribsə, namizədin qeydiyyatının ləğvindən söhbət gedə bilməz. Sosial şəbəkələrin üzərinə getmək olmaz. Namizədin şəklini paylaşması, üzərinə şüar yazması, onun təşviqat kampaniyası aparması anlamına gəlməməlidir. Hansısa bir söz, status yaza bilər. Bunu təşviqat kimi qələmə vermək doğru deyil. Bu, artıq mübahisəli məsələdir. Namizədin özünün söz azadlığı var. Belə addım atılsa, o hüququ məhdudlaşdırmış olarıq”.

❑ **Cavanşir ABBASLI**

# Müxalifət seçki mitinqləri keçirəcək

## Təbliğat-təşviqat dönəmindən siyasi partiyalar necə istifadə edəcəklər? Pulsuz efir vaxtının bərpa olunması tələb edilir

**Noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə bağlı artıq namizədlərin qeydə alınmaları prosesi başa çatıb. Ayın 9-dan etibarən təbliğat-təşviqat kampaniyasına start verilib. 23 günlük təbliğat prosesindən ölkə müxalifətinin necə istifadə edəcəyi maraq doğurur. Mitinqlər olacaqmı, yaxud siyasi partiyalar namizədləri üçün ayrılmış xüsusi yerlərdə seçicilərlə görüş keçirəcəklərmi?**



Məhəmməd Türkman

Pulsuz efir vaxtının olmaması, heç şübhəsiz ki, təbliğat prosesinə ciddi maneçilik törədəcək. Artıq Müsavat Partiyası seçkiqabağı mitinq gününü müəyyən edib. Müsavat 25 oktyabr 2015-ci il tarixdə saat 15.00-dan 17.00-dək keçmiş “Məhsul” stadionunda “Azad seçki!” şüarı ilə mitinq keçirəcək.

Siyasi qurumların təbliğat-təşviqat prosesindəki planları ilə maraqlandıq. Müsavat başqanının müavini Elman Fəttah verilən bütün imkanlardan istifadə edəcəklərini bildirdi: “Seçki mitinqi ayın 25-nə nəzərdə tutulub. Bakıda ümumi mitinqimiz bu olacaq. Seçkinin təbliğat-təşviqat dönəmində verdiyi imkanlardan Müsavat Partiyası maksimum istifadə etməyə çalışacaq. Məqsəd deputat seçilmək deyil. Demokratiya və avtoritarizmə qarşı mübarizənin həmin imkanlardan istifadə edərək davam etdirəcək. Məhz bunun qorxusudur ki, hakimiyyət seçki ilə bağlı həmin imkanlardan biri olan pulsuz efir vaxtından imtina etdi. Bu instrumentlərin hakimiyyət üçün problem yaratdığını yaxşı bilirik. Yenə də əlimizdəki imkanlardan sona qədər yararlanmağa çalışacağıq”.

E.Fəttah pulsuz efir vaxtının ləğvinə də toxundu: “Bu, seçki prosesindəki ən yüksək instrumentlərdən birindən imtina edilməsi anlamına gəlməlidir. Bu açıq şəkildə göstərir ki, hakimiyyət müxalifətin seçkilərdə iştirak etməsinə qarşıdır. Divanın iclasında münasibətimizi bildirmişik. Pulsuz efir vaxtının bərpa edilməsini tələb edirik”.

“Azadlıq 2015" seçki blokuna daxil olan partiyalardan AXP sədri Pənah Hüseyn seçki mitinqi ilə bağlı qərarlarının olmadığını qeyd etdi: ”Seçicilərlə görüşlər planlarımız var. Açıq havada görüşlər keçirəcəyik ki, o da mitinq formasındadır. Təbii ki, təbliğat-təşviqat şəraiti məhduddur. Tələb etdiyimiz seçki islahatlarında bu məhdudiyyətlərin aradan qaldırılmasını tələb etmişik. Görünən odur ki, seçki prosesi başlayıb, biz bu müddətdən səmərəli istifadə etməyə çalışacağıq".

“AĞ blok”un təsisçilərindən olan Tural Abbaslı bildirdi ki, seçki prosesində dairələr üzrə mübarizə aparılır: “Blok olaraq, 4 namizədimiz qeydə alınıb. İki namizədin isə şikayətinə MSK-da baxılır. Ümid edirəm ki, daha iki namizədimiz qeydiyyatdan keçəcək və seçkilərdə 6 iddiaçımız olacaq. Bu seçki sistemində əsas dairələr üzrə mübarizə gedir. Görüşlər də dairələr üzrə olur. Hər namizəd öz dairəsi ilə məşğul olur. Ümumən Azərbaycanda hazırda nəinki seçki mühiti, heç siyasi mühit belə yoxdur. Belə vəziyyətdə mitinq keçirməyi düşünmürük. İndiki şəraitdə tam məsuliyyətlə deyirəm ki, YAP belə, mitinq keçirə bilməz. Kütləviliyi təmin edəcək qurum yoxdur. Bizə isə, belə təbliğat kampaniyası lazım deyil. Digər alternativ imkanlardan istifadə etməyə çalışacağıq. Açıq havada görüşlər keçirəcəyik, sosial şəbəkələr üzərindən təbliğat aparacağıq”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015



# Türkiyədəki terrora görə ölkəmizdə matəm elan olunmalıdımı?

**Oktyabrın 10-da Türkiyə yaxın tarixinin ən böyük faciələrindən birini yaşadı. Paytaxt Ankarada baş verən terror aktı nəticəsində 100-ə yaxın insan həyatını itirdi, 250-dən çox isə ağır və yüngül formada xəsarətlər aldı. Bəzi mənbələrdə 118 insanın öldüyü deyilir.**

Bu hadisə təkcə qardaş ölkəni deyil, Türkiyə ilə həmrəy olan bütün ölkələri sarsıtdı. Baş verən faciə ilə bağlı Türkiyədə üç günlük matəm elan olundu. Kipr türkləri qardaş ölkəyə həmrəylik nümayiş etdirərək, bu cür addım atıblar. Şimali Kipr Türk Respublikasında bütün şənliklər ləğv edilib, 3 günlük yas elan olunub. Şimali Kipr lideri Mustafa Akıncı Türkiyə paytaxtında törədilən terror aktını qəti şəkildə pisləyib.

Türkiyəyə münasibətdə "Bir millət, iki dövlət" şüar-tezisini ortaya qoymuş Azərbaycanda isə matəm elan olunmaması geniş müzakirələrə səbəb olub. Doğrudur, Azərbaycan prezidenti faciə baş verən an qardaş ölkənin rəhbərinə başsağlığı verdi. Amma hər kəs Türkiyəyə ən yaxın ölkə kimi Azərbaycandan bu addımı gözləyirdi.

İqtidaryönlü deputat Fəzail Ağamalı matəm elan olunmamasının səbəblərini deməkdə çətinlik çəkdiyini söylədi: "Bu suala cavab vermək mənim üçün çox çətindir. Çünki ciddi səbəb var. Qanunvericilik baxımından müəyyən boşluqlar, yaxud manelər var ki, bunlar edilmir. Türkiyənin sevincli günləri bizimlə bərabərdir, baş vermiş faciəni də böyük üzüntü ilə qarşılayırıq. Türkiyədə baş verən ikinci belə qətliam hər birimizi son dərəcə narahat etdi, ürəyimizi ağrıtdı. Ölkə prezidenti səviyyəsində dərhal Türkiyə prezidenti Ərdoğana telefon açıldı, başsağlığı verildi. Bütün bunlar Türkiyəyə olan münasibət kimi qiymətləndirilməlidir. Dünya tarixində belə hadisəyə rast gəlməmişəm ki, bir ölkədə faciə baş verəndə, həmin ölkə ilə qardaş ölkə hesab olunan dövlətdə də matəm elan olunsun. Sadəcə olaraq, faciə baş verən ölkədə matəm elan olunur, bayraqlar endirilir. Digər prosedurlar həyata keçirilir. Bizdə də görünür bunun mühüm səbəbləri var. Məncə, bunun izahını başqa formada ortaya qoymaq düzgün olmazdı".



**Fəzail Ağamalı:**
"Bir ölkədə faciə baş verəndə, həmin ölkə ilə qardaş ölkə hesab olunan dövlətdə də matəm elan olunmasına rast gəlməmişəm"



**Sabir Rüstəmxanlı:**
"Bu sualı Azərbaycan rəhbərliyinə vermək lazımdır"

Dünya Azərbaycanlıları Konqresinin və VHP-nin sədri, deputat Sabir Rüstəmxanlı da bu suala cavab verməyin çətin olduğunu qeyd etdi: "Bu sualı mənə yox, Azərbaycan rəhbərliyinə vermək lazımdır. Çünki belə bir suala cavab vermək səlahiyyətim yoxdur. Şəxsi fikirlərimi sosial şəbəkələrdə yazmışam. İstər PKK-nın, istər Qərbin, istərsə də Şimalın əli ilə olsun, hər halda bu fəlakət getdikcə Türkiyənin ürəyinə doğru yol alır. Çünki illər uzunu Türkiyə bu fəlakətin yaxınlaşdığını hiss etməyib. Türkiyənin içərisində elə siyasətçilər var ki, onların apardıqları siyasət qardaş ölkəni uçuruma aparır. Bunu Türkiyə xalqı görür, hiss edir. Türkiyəni Atatürk xəttindən çıxarmaq yolu tutulanda, siyasətin başı-ayağı bilinməyəndə, siyasətin başında dayananlar bu gün bir söz deyib, sabah başqa söz deyəndə, tarix boyu Türkiyənin qoltuğuna sığınmış, onun hesabına yaşamış müəyyən xalqlar bu gün at oynadanda görünürdü ki, sonu nə olacaq. Əvvəlcədən görünən məsələlər idi. Türkiyəni Atatürk ölkəsindən çıxarıb, orta əsrlərin xurafat dövlətinə çevirmək siyasəti göz qabağındadır. Qapılar açıqdır. Hazırda Türkiyəyə milyonlarla adam gəlib. Avropa onları sayla buraxıb. Bunların içərisində heç də hamısı dost deyil, düşmən kimi gələnlər də var. Bu baxımdan bəzi şeylər nəzarətdən çıxa bilər. Əminəm ki, Türkiyə bu ağrını da atladacaq. Çox ağır dərddir. Türk xalqının başı sağ olsun. Allah türk millətini belə fəlakətlərdən qorusun. Bəzi qüvvələrin niyyəti Türkiyəni zəiflətməkdir. Ərəb ölkələrində baş verən proseslərin son hədəfi Türkiyədir. Türkiyə bunu görməli, buna qarşı da tədbir almalıdır".

Partiya sədri başsağlığı verdiyini də qeyd etdi: "Faciə ilə bağlı başsağlığı verdik. Özüm şəxsən başsağlığı vermişəm. Başsağlığım həm də partiyanın mövqeyi sayılır. Eyni duyğulardır. Türk xalqının dərdinə şərik oluruq. Başqa əlimizdən bir şeylər də gəlmir".

❑ **Cavanşir ABBASLI**

# "İki nəfər üçün vağzal" - Cavid Qurbanovla Ziya Məmmədov niyə düşmən oldu?

## Nəqliyyat naziri "Azərbaycan Dəmir Yolları" rəhbərini "qara piar" aparmaqda ittiham etməklə əslində iqtidarı hədəf alır...

**Nəqliyyat naziri Ziya Məmmədovun düşərgəsi, nəhayət, ötən həftəsonu sükutu pozdu. Doğrudur, indiyədək nazirin qardaşı Elton Məmmədov onlar haqda yazılanların sifarişli olduğunu deyərək, konkret ad çəkmirdi. Gözlənilmədən isə Məmmədovlara yaxın olduğu iddia edilən saytlarda "Azərbaycan Dəmir Yolları" ASC-nin rəhbəri Cavid Qurbanov hədəfə alınıb.**

"Heç kəsə sirr deyil ki, Ziya Məmmədovu sevməyən, onunla bağlı mövqeyi birmənalı olmayan yüksək vəzifə tutan şəxslər var", deyilən yazıda prezidentin sərəncamı ilə müstəqil dövlət qurumuna çevrilən "Dövlət Dəmir Yolları" QSC-nin yeni rəhbəri sərt ittiham olunub: "Son dövrlər dəmir yollarına aid həyata keçirilən bütün layihələrin sanki onun təşəbbüsü ilə baş tutduğu, o rəhbər olduqdan sonra yeni qatarların alındığı, yeni xətlərin tikintisinin həyata keçirildiyi tirajlanır, birbaşa onun adı ilə, onun uğuru ilə əlaqələndirilir. Ancaq xatırladaq ki, dəmir yollarına aid bu gün reallaşan bütün işlər uzun illərin, yeni Cavid Qurbanovun hələ "Azəryolservis"in rəhbəri olduğu, elə yoldaş Qurbanovun "yolçu getsin yolunu tiksin, dəmiryolçu da öz işini görsün" ifadəsi ilə desək, onun "yolçu" olduğu dövrə aiddir".

C.Qurbanovla Z.Məmmədov arasında əvvəldən də soyuq olduğu, münasibətlərin indi daha da kəskinləşdiyi qeyd olunur: "Yeni dəmiryolçu" mətbuat vasitəsilə köhnə müdirinə qarşı qara piarla bu küləkdə əsən tərəf olmaq niyyətindədir. Hətta Cavid Qurbanov "Azəryolservis"in şefi olduğu vaxtlar xarici investisiyalar üzrə müavini olmuş, maliyyə yeyintisi üstündə nazirin əmri ilə işdən qovulmuş Hicran Valehovu və "Azərsu"da keçmiş sədr müavini Zaman Novruzovu QSC-də yenidən müşavir kimi işə dəvət edib. Bu şəxsləri



yaxın müddətdə Cavid Qurbanovun özünə müavin təyin etməsi də gözlənilir".

Göründüyü kimi, C.Qurbanovla bağlı yazının tonunda ittiham olunmaqla yanaşı, onu "yolçu" kimi ifadə ilə aşağılamaq cəhdi də hiss olunur.

Hələ birgə işlədikləri dövrdə C.Qurbanovla nazir arasında münasibətlərin gərgin olduğu barədə informasiyalar vardı. Nazir özü bu barədə danışmasa da, mətbuata açıq məmurlardan olan C.Qurbanov belə bir halın yaranmadığını demişdi. Amma məlumatlara görə, vaxtilə çox yaxın olan iki məmur arasında son illər həqiqətən də münasibətlər gərgin olub. Buna əsas səbəb isə nazirin milyardlarla vəsaitin ayrıldığı "Azəryolservis"də C.Qurbanovu maliyyə məsələlərindən uzaqlaşdırması olub. Nazir ayrılan vəsaitin necə "xərclənməsinə" yalnız özü qərar verib.

İddialara görə, bəzi yol layihələri üçün ayrılmış pul nazirin ailə biznesinə yönəldiyindən C.Qurbanov pis vəziyyətdə qalıb, hətta öz şəxsi vəsaitindən pul xərcləməli olub. Daha dəqiqi, nazir Məmmədov C.Qurbanovu daima pressinq altında saxlamağa çalışıb, onun patronu olduğu və tutduğu mövqeyə görə ona borclu olduğunu sübut etməyə çalışıb. Nazir bu münasibəti C.Qurbanovun məlum izdivacından sonra da davam etdirməyə çalışıb, "Azəryolservis" rəhbərini daha çox sıxışdırmağa başlayıb. O, hətta kollegiya iclaslarında Cavid Qurbanovu sərt tənqid etməklə onun vəzifə yüksəlişinin qarşısını kəsmək istəyib.

C.Qurbanov vaxtilə çox yaxın dost olduqları nazirin bu davranışından bezsə də, münasibətləri saxlamağa çalışıb. C.Qurbanovun nazirin ən yaxın adamı olan Arif Əsgərovun yerinə "Azərbaycan Dəmir Yolları" ASC-nin rəhbəri gətirilməsi isə onlar arasında bütün münasibətlərə faktiki nöqtə qoyub. C.Qurbanov təyinatdan sonra ilk açıqlamasında da nazirlə bütün mənalarda yollarının ayrıldığına işarə edərək "Ziya Məmmədovla bölüşəcəyim heç nə yoxdur" demişdi.

Aydın idi ki, C.Qurbanovun dəmir yollarına rəhbər təyinatından sonra "iki nəfər üçün vağzal" da "bölünəcəkdi" və bir ay əvvəl "Azərbaycan Dəmir Yolları" müstəqil quruma çevrilməklə həqiqətən də "Ziya Məmədovla bölüşəcək" heç nə qalmadı.

Z.Məmmədovun əsas adamı dəmir yollarından uzaqlaşdırıldıqdan sonra bu sahəyə ayrılan vəsaitlərin talandığı konkret faktlarla üzə çıxıb. C.Qurbanovun dəmir yollarda işlərin düzgün qurulmaması barədə dedikləri, onun yeni qatarları ölkəyə gətirməsi naziri daha da qəzəbləndirib. Yayılmış materialda da əsas qıcıqlandırıcı məqamın C.Qurbanovun dəmir yollarındakı son fəaliyyətindən olduğu açıq görünür.

Xatırladaq ki, Bakı-Sumqayıt qatarının istifadəyə verilməsi ilə bağlı tədbirə nəqliyyat naziri dəvət edilməmişdi.

Məmmədovların ilk dəfə onların "vurulması" ilə bağlı konkret ad çəkmələri əslində iqtidara mesaj kimi başa düşülməlidir. Çünki C.Qurbanova etimad göstərilməsi prezidentin qərarıdır. Onun rüşvətxorluqda ittiham edilən müşavirlərinin hələ baş verməyən müavin təyinatı da məhz prezident sərəncamı ilə gerçəkləşməlidir. Bu, prezidentin ətrafında "sıx birləşdiklərini və sadiq olduqlarını" vurğulayan Məmmədovların hakimiyyətdən salınmasına qarşı müqavimət göstərdiyi barədə informasiyaları bir daha təsdiqləyir.

Qeyd edək ki, C.Qurbanov nazirə qarşı "qara piar" aparılması barədə ittihamlara hələ ki, cavab verməyib. Bəlkə də "yıxılanı baltalamazlar" səbəbindən...

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015



# Ümumbəşəri sivilizasiya yoxdurmu?

**Hüseynbala SƏLİMOV**

Siyasətçi ilə politoloqun, siyasətçi ilə filosofun düşüncə tərzində fərq olmamalıdırmı? Deyə bilərsiniz ki, siyasət adamlarının da söykəndiyi siyasi məntiq son nəticədə politoloqlar, filosoflar və iqtisadçılar tərəfindən hazırlanır. Prinsipcə, razıyıq. Amma yenə də fikirləşirik ki, sadaladığımız həmin o adamlar siyasətçilərlə müqayisədə mövcud siyasi konyunkturadan daha az asılıdırlar...

Nə gizlədək? Rusiyanın düşüncə adamlarının yazılarını diqqətdən qaçırmamağa çalışırıq. Bunlar bizlərə ona görə lazımdır ki, ölkənin yaxın və nisbətən yaxın gələcəyində hara səmt götürəcəyini təxmin edə bilək...

Amma hər dəfə bizi məyusluq, bəzən də peşmançılıq hissi bürüyür. Elə şeylər yazırlar ki, adam bunların hətta 21-ci əsrdə yazılmasına şübhə etməyə başlayır...

Rusiya çox iddialı dövlətdir və bu iddialarda məntiq də təbii ki, yox deyildir. Fəqət, görək, bizim iddialı Rusiya dünyanı, onun düzənini necə fikirləşir, necə təsəvvür edir?..

Etiraf edirəm ki, bu haqda düşünəndə adamın başı ağrımağa başlayır. Məsələ heç kimin necə fikirləşməsində də deyil, burada bir sərbəstlik və azadlıq olmalıdır. Amma insanın fikirləri işıqlı olmalıdır. Əgər fikir işıqlı deyilsə, bu halda o, nə qədər dərin olsa belə, ürəkləri nurlandırmır...

Amma əvvəlcə bir məsələni qeyd etmək istəyirəm, ona görə ki, o, bizə də görk ola bilər. Rusiyanın elm və sənət adamları mətbuatda çox tez-tez çıxış edirlər və hətta demək olar ki, konseptual mövzular tamamilə onların sərəncamındadır. Bizdə necədir? Mətbuat tamamilə jurnalistlərin öhdəsinə və sərəncamına buraxıldı, guya ki, mətbuatda çıxış etmək daha çox jurnalistlərin işidir, elm və sənət adamları daha "ciddi" işlərlə məşğul olmalıdırlar. Amma nədir bu "ciddi" iş? Özünüzü yormayın, heç bir iş yoxdur, bizimkilərin əslində deməyə və yazmağa sözü yoxdur ...

Nə isə. Qayıdaq rusların yazılarına. O gün bir yazını oxudum. Müəllif 19-cu əsr filosofu D.Danilevskinin fikirlərinə istinad edərək sübut etməyə çalışır ki, guya heç vaxt ümumbəşəri sivilizasiya olmayıb və olmayacaq da...

Bircə anlığa özümü rus dilindən, rus ədəbiyyatından, rus düşüncə tərzindən ayrılıqda təsəvvür etməyə çalışdım. Etiraf edirəm ki, dünya mənə çox darısqal və darıxdırıcı göründü...

İndi bircə anlığa fikirləşək ki, bizim əlimizdən qədim yunan miflərini və fəlsəfəsini, "İlahi komediya"nı, "Don Kixot"u, "Faust"u, "Hamlet"i və yaxud "Kral Lir"i alıblar. Bu halda dünya necə görünərdi? Cansıxıcı olmazdımı?..

Ümumbəşəri sivilizasiya nədir? Bunlar elə indicə sadaladıqlarım deyilmi? Son günlərdə həyatıma daha bir maraq rişə salıb. Bu günlərdə Nobel almış belarus yazıçısı S.Aleksieviç mənə çox maraqlı görünür. Həm də ona görə ki, çoxumuz onunla bir keçmişdənik. Bax, elə bunun özü ümumbəşəri sivilizasiya demək deyilmi?..

Mən ilk ədəbi "elektrik"i M.Lermontovun şeirlərindən almışam. İndi də həmişə hava bir az tutqun, bir az buludlu olanda yadıma bu şairin sətirləri, özü də gözəl sətirləri düşür...

Bu, mənə azərbaycanlı olmağa, azərbaycanlı kimi düşünməyə, Azərbaycanın mənafeyini hər şeydən üstün tutmağa, hətta Rusiyanı tənqid etməyə, qınamağa mane olmur...

Dünyanın elm və sənət inciləri bir material kimidir, bugünkü azərbaycanlı, gürcü, rus, ingilis və yaxud da belarus həmin materialdan yoğrulur, ondan hörülür. Bəli, "təmiz" material texnikada yüksək qiymətləndirilsə də, ictimai həyatda elə də təqdir olunmur və adamın ürəyini sıxır...

İnsanlar hər yerdə ziddiyyət axtarmağı sevirlər. Amma mən dialektikanı, onun kateqoriya və qanunlarını elə də sevmirəm, bir azacıq da metafizikəm. Mənə elə gəlir ki, müxtəliflik yaxşı bir mozaika kimidir, həm də tamdır... Etiraf edək ki, qrafik əsər nə qədər maraqlı olsa da ağ və qara rənglərin harmoniyası bizim bu narahat qəlblərimizi elə də təmin etmək iqtidarında deyil...

Amma müxtəlif rənglər - bu, tamam başqa məsələdir... Ona görə də mənə həmişə elə gəlib ki, bizim dünya yalnız xristianlardan və yaxud da bütpərəstlərdən ibarət olsaydı çox, olduqca maraqsız olardı. Eləcə də dünya yalnız slavyanlardan təşkil olunsaydı o, çox cansıxıcı olardı. Məgər Rusiyanın düşüncə adamları bunun fərqində deyilmi?..




# Ədalət istəyirəm...

S.R.

## Aysel Əlizadənin seçicilərə müraciəti

**Seçicim, necə həvəssiz, hətta ümidsiz olduğunuzu bilirəm. Seçkiyə, seçilənə inamınız qalmayıb. Sizi çox yaxşı anlayıram, çünki eyni ölkədə yaşayırıq. Hamımız eyni havanı uduruq, eyni yollarda yeriyirik, eyni problemlərlə üzləşirik. Məmləkətdən üz çevirib getmək, qaçmaq istəyənlər də var. Minimum insan, vətəndaş ehtiyacları, tələbləri, hüquqları təmin edilmir.**

İcra olunmayan qanunlarla nə edəcəyimizi bilmirik. Üstəlik, öz səhvlərimiz də az deyil, hüquqlarımızı tanımırıq ki, tanıtdıraq. Ən xırda məsələlərlə uğraşmalı olur, yorulur, bezirik. İnamınızın sarsılmasında səbəbkar mən olmasam da, Sizə gurultulu vədlər, pafoslu fikirlər söyləməyə üzüm gəlmir.

Hansı problemlər olduğunu hamımız bilirik. Səhiyyədən məhəlli probleməcən həll olunmalı saysız məsələlər var; həyatımızı çətinləşdirir.

Bunun içində yaşamaq üçün yetərsiz olan əmək haqqı da, pensiya da, sığortasız sağlamlıq da, bahalı bazar, istirahət təminatsızlığı, işsizlik də, evsizlik də var. Övladlarımızın gələcəyindən narahatıq. Nəyə doğru getdiyimiz bəlli deyil. Seçkiyə də ona görə inanmırıq ki, seçilənlərin çoxunu tanımırıq, fəaliyyətlərini görmürük, onlara əlimiz, səsimiz çatmır. Bu halda niyə seçkiyə getdiyimi soruşmağa haqqınız var. Mən bir Azərbaycan vətəndaşıyam. Bu məmləkətdə yaşayan sadə, ağıllı, seçə bilən insanlara inanıram. Əminəm: hamımız bu ölkəni sevirik. Bura vətənimizdi, çətinlikləri, qayğıları ilə yenə də əzizdi.

Sizə bu seçkidə də vacib adam duruşu alanlar, qoltuğu qovluqlular, qalstukunu möhkəm- möhkəm bağlayanlar və özlərini artıq parlamentdəymiş kimi aparanlar nağıllar danışacaq, çıraqdan çıxmış cin kimi bütün arzularınızı yerinə yetirəcəklərini göstərməyə çalışacaq, yuxu kimi vədlər verəcəklər. Hətta lazım gəlsə, evinizə "otopleniya" çəkdirəcək, lyuklara qapaq qoyduracaq, həyətinizdə ora-bura asfalt töküb işgüzar fon yaradacaqlar. Pul təklif edənlər də olacaq. Mən də kimə nədən danışıram. Biz onsuz da bütün bunlardan birlikdə keçmişik. Adamın qanında damarını donduracaq üsullara əl atan nə adamlar görmüşük. Hər cür imkanlar yaradılan, böyük dəstək alan, yeyintiyə yol verən, siyasi fəaliyyətində bu cəbhədən o cəbhəyə, o cəbhədən bu cəbhəyə köç edən, buna baxmayaraq, hələ də özünü tapmayan, obrazını yarada bilməyən, sözünü deməyən, dəstək görmədən ayaqları üzərində dayanmağı bacarmayan, pulu-parası, vəzifəsi olmasa "sözü keçməyən" namizədlər bu dəfə yuxarıların dəstəyini ala bilməyəcək. Elementar səbəbdən: adama deyərlər, artıq "böyük oğlan" (qız) olmaq vaxtıdır!

İnsana bir yerə qədər kömək edərsən, yaxşı, beş yerə qədər olsun. Bu vaxt ərzində qabında nəsə varsa, simaya, fakta, imzaya, ictimai xadimə çevriləcək. Olmursa, olmur... Ölünü qəbrə kimi çiynində daşıyarsan! Biz bu vaxta kimi nə dəstək gördük, nə qazandıq, nə dağıtdıq. Nə "kreslomuz" oldu, nə də bank hesabında haram pullarımız. Dizimizi yerə qoyduq. Həyatımız dəmirçixanaya çevrildi. İşimizlə Azərbaycan tarixinin gələcəyi üçün gürz vurduq. Bu yolda qolumuzla alnımızın tərini silməkdən başqa lüksümüz olmadı. On səkkiz yaşımdan işimlə zəncir dartıram bu ölkədə. İnanılmaz insan sevgisi qazanmışam. Dürüst, təmənnasız, ləyaqətli dostlarım var. Saysız tamaşaçı, oxucu qazanmışam. Dayanmadan ölkəmin maarifçiliyi, mədəniyyəti, ədəbiyyatı üçün bacardığımı edirəm. İndi də imkanlarla gücümü, potensialımı ölkəmin mədəni irsinə xərcləmək üçün meydanımı böyütmək və genişləndirmək istəyirəm - seçkiyə gedirəm. Ölkəmdə ədalət istəyirəm! Ciddi, sivil, elmi, iqtisadiyyatı inkişaf etmiş dövlətlər sırasında olmamızı arzu edirəm. İsrailin 92 yaşlı prezidenti heç nədən bir ölkə qurduqlarını misal çəkib. Su ehtiyatı belə olmayan bir ovuc (450 min) insan dünyanın ən güclü dövlətlərindən birini qurub. Bizim hər cür ehtiyatımız var, dövlətimiz qurulub, ciddi, əlverişli coğrafi mövqeyə malikik, Avropa və Asiyanın qovşağı sayılırıq, Şərqlə Qərbi birləşdirən mədəniyyət məskəniyik. Qafqazda önəmli yer tuturuq. Bütün bunları problemimiz kimi yox, üstünlüyümüz kimi, sərvət kimi dəyərləndirib önəmli status qazana bilərik. Özümüzü daim qurban kimi aparmaq əvəzinə, dünya gücləri üçün əhəmiyyətli müttəfiq ola bilərik. Azərbaycanda nəinki bir ovuc, saysız dəyərli kadr var. Onlara meydan vermək, qarşılarını kəsməmək, böyük amallar uğruna ucuz rəqabətdən, pulgirlikdən və bu kimi "dən"-lərdən əl çəkmək gərəkdi.

Seçki cəmiyyətin taleyində çox önəmli prosesdir. Demokratik seçki xalqın, hakimiyyətin müstəqil siyasətə, azad həyata, idarəçiliyə və dünyayla barış içində yaşamağa hazır olduğunu ifadə edir. Seçkilərdə iştirakımız vacibdi. Ölü olmadığımızı, səsimizə, gələcəyimizə, dövlətimizə, nəhayət, vətənimizə sahib çıxdığımızı göstərmək zamanıdı. Hər birimizin səsi siyasi-ictimai prosesdə iştirakı, böyütdüyümüz uşaqların sabahı üçün məsuliyyət daşıdığımız anlamına gəlir. "Eh" deyib əl yelləməyək, boş verməyək. İctimaiyyət ölkədəki siyasi proseslərə biganə qaldıqca siyasi hakimiyyətin fəaliyyəti totallaşır. Əhalinin siyasi proseslərdə iştiraksızlığı iqtidarın tək qərarverici və diktəedici tərəfə çevrilməsinə səbəb olur. Beləliklə, diktaturanın təməli qoyulur. Böyük maarifçilər, yazıçılar, fikir adamları, filosoflar öz tezisləri, yazıları ilə böyük siyasi çağırışlar edirlər. Yazıçının siyasətçidən fərqi budur: siyasətçi (istisna olur) hakimiyyət uğrunda, yazıçı isə sülh uğrunda savaşır. Biz bütün bunları öz həyatımızda da görürük. Bayrağımızı təkrar ucaldandan bəri bir-birimizlə didişməkdəyik. Müxalifət və iqtidar savaşı hakimiyyət savaşından başqa bir fon yarada bilmədi. Halbuki əlimizə böyük tarixi şans düşüb - müstəqilliyimizi qazanmışıq, dövlətimiz formalaşıb. Demokratik cəmiyyət qurmaq, sivil ölkələrin sırasında dayanmaq üçün Seçmək kimi bir hüququmuz var.

2015-ci il noyabrın 1-i keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri bizim növbəti şansımızdır. Sizi bu seçkiyə getməyə, seçim etməyə çağırıram.

Biz səs verməsək, yerimizə başqaları saxta yolla səs verəcək.

Səs verin, Səsiniz olum!

Sayğılarla, Əlizadə Aysel Alim qızı, 8 saylı Binəqədi birinci seçki dairəsindən deputatlığa namizəd.

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

# "Azərbaycan yeganə müttəfiqi Türkiyəni də itirə bilər"

## Sülhəddin Əkbər: "Suriyanın Əfqanıstanlaşması prosesi başlayıb"

**"Baxış bucağı"**

**Müşahidələr göstərir ki, Rusiya öz istəyi ilə düşdüyü Suriya bataqlığında digər bir sıra ölkələri də batırmağa çalışır. Proseslərin hətta dünya müharibəsinədək apara biləcəyi indiki gərgin geopolitik durumda daha çox proqnozlaşdırılır. Durumu Azərbaycan Atlantik Əməkdaşlıq Təşkilatının və Azad Demokrat Partiyasının (AzDP) sədri Sülhəddin Əkbərlə birgə təhlil etməyə çalışdıq. "Yeni Müsavat"ın qonağı olan S.Əkbər bölgədə baş verənləri incəliyinə qədər şərh etdi. İlk sualımız isə qardaş ölkədə baş verən və hər birimizi üzən dəhşətli terror olayı ilə bağlı oldu:**

***- Sülhəddin bəy, Türkiyədə baş verən dəhşətli terror aktı ilə bağlı nə deyə bilərsiniz? Bu, ənənəvi teraktlar silsiləsinin davamıdır, yoxsa...***

- Əvvəlcə qardaş Türkiyə xalqına baxşsağlığı diləmək istəyirəm və baş vermiş terror hadisəsini qətiyyətlə pisləyirəm. Baş verən hadisəni qiymətləndirmək üçün üç əsas faktora diqqət yetirmək lazımdır. Birincisi, hazırda Türkiyə dövləti, onun silahlı qüvvələri, xüsusi xidmət orqanları eyni zamanda bir necə terror təşkilatına qarşı mübarizə aparır: PKK, İŞİD və digərlərinə qarşı. İkincisi, Türkiyə gərgin ictimai-siyasi atmosferdə seçkiyə gedir və burada həm daxili, həm müəyyən xarici qüvvələrin siyasi maraqları var. Üçüncüsü isə Rusiyanın müdaxiləsindən sonra Suriya böhranının mürəkkəbləşməsini nəzərə almaq lazımdır. Məncə, bu terror hadisəsinin səbəbləri, təşkilatçıları axtarılarkən onun arxasında duran qüvvələrə və bu üç amilə diqqət yetirmək gərəkdir.

***- Davamında nələr gözlənilir? Əgər artıq sivil insanlara qarşı bu cür dəhşətli planlar qurulursa, bu, Türkiyənin də İraq və Suriyaya çevrilməsində maraqlı olan dairələrin mövcudluğuna dəlalət etmirmi?***

- Qlobal miqyasda yanaşsaq, "soyuq müharibə" bitəndən sonra yeni dünya nizamının yaranması prosesi gedir və görünür ki, bu proses hələ çox çəkəcək. Bu prosesdə bütün qlobal və regional güclər öz təsir sferalarını artırmaq istiqamətində bəzən hərbi vasitələrlə, bəzən də yumşaq gücdən istifadə edərək ciddi səy göstərirlər. O baxımdan Yaxın və Orta Şərqin, eyni zamanda postsovet məkanının geopolitik taleyinin həll olunduğu bir zamanda Türkiyə də böyük regional güc kimi nəzərə alınır. Türkiyənin hər hansı bir istiqamətdə aktiv müdaxiləsinin qarşısınının alınması üçün onun daxildən zəiflədilməsi bu güclərin hamısının marağındadır. Bu baxımdan Türkiyədə baş verən prosesləri yalnız daxili ictimai-siyasi, və ya etnik-siyasi faktorlarla baxmaqla qiymətləndirmək düzgün olmazdı, eyni zamanda xarici faktorları da nəzərə almaq lazımdır. Həm Balkanlarda, həm Qafqazlarda, həm də Yaxın və Orta Şərqdə gedən proseslərdə Türkiyənin aktiv iştirakı bu regionlarda marağı olan Rusiya və İran kimi həm regional güclərin, həm də böyük güclərin - ABŞ, İsrail, Avropa Birliyi və bəzi Avropa Birliyi ölkələrinin marağındadır. Təbii ki, son hadisələri də nəzərə alsaq, Türkiyənin Suriyada aktiv rol oynamaq istəməsi, orda xüsusi strateji maraqları olan Rusiya və İranın maraqları ilə toqquşur və bu baxımdan da hətta Rusiyanın sanksiyalar tətbiq edildiyi bir zamanda, Türkiyəyə ehtiyacının artdığı bir zamanda Ankara ilə qarşılaşmaqdan çəkinməməsi onu göstərir ki, bu regional güclərin, xüsusən də Rusiya və İranın Suriyada strateji maraqları çox ciddidir və onlar hərbi gücdən istifadə etməkdən belə çəkinməyəcəklər.

***- NATO və Türkiyə həmin an üçün hazırdırmı?***

- Mənə elə gəlir ki, Rusiyanın son müdaxiləsinə qədər bu hazırlıq yox idi. Yalnız indi Rusiyanın hərbi əməliyyatlara müdaxiləsi və elan etdiyinin əksinə, əsas hədəf kimi, İŞİD-i deyil, Bəşər Əsəd müxalifətini, xüsusən də mötədil qüvvələri seçməsi artıq ABŞ başda olmaqla Türkiyə də daxil, NATO ölkələrini ciddi şəkildə düşündürməyə başlayıb. Məncə, yalnız bundan sonra onlar Rusiya və İrana qarşı adekvat tədbirlər görmək haqqında artıq düşünməyə başlayıblar və bəzi addımlar da atılmağa başlanılıb.

***- Qərb Gürcüstan və Ukrayna nümunəsindəki kimi, Türkiyəni də Rusiya qarşısında tək qoya bilərmi?***

- SSRİ-dən fərqli olaraq, Rusiya artıq supergüc deyil. Onun xüsusən də iqtisadi gücünün yetərsizliyi, texnoloji baxımdan geri qalması, hərbi gücünün də, xüsusən də maliyyə-iqtisadi cəhətdən yetərsizliyi bu dövlətin supergüc rolunu oynamasına imkan vermir. Amma buna baxmayaraq, Rusiya bu cəhdləri etməkdədir. Onu nəzərə almaq lazımdır ki, Suriya Rusiyanın "uzaq" xaricdə yeganə hərbi bazasının olduğu bir ölkədir. Eyni zamanda burada İranla maraqları təbii olaraq üst-üstə düşür, yəni Tehranla təbii müttəfiqliyi var və Suriyada bu səbəblərdən müqavimət göstərmək potensialı var. Burada SSRİ dövründən qalma əlaqələri və bu əlaqələrin potensialını da nəzərə alsaq, onda Rusiyanın İranla birlikdə Suriyada nədən belə qüvvətli direniş göstərdiyi aydın olar. Yəni postsovet məkanından fərqli olaraq, Suriya ilə Rusiyanın birbaşa fiziki-coğrafi bağlılığı yoxdur. Əgər ABŞ və NATO məsələyə ciddi baxarlarsa, Suriya məsələsində aktiv siyasət yürüdərlərsə, Rusiyanın burada direniş göstərmək imkanı yoxdur. Təkcə bir rəqəmi demək istəyirəm. Bu günlərdə ABŞ Konqresinin Nümayəndələr Palatası Pentaqonun büdcəsini təsdiq etdi - 615 milyard dollar. Rusiyanın gələnilki dövlət büdcəsi isə cəmi 205 milyard dollar nəzərdə tutulur. Yəni təkcə Pentaqonun büdcəsi, bütövlükdə Rusiyanın dövlət büdcəsindən düz 3 dəfə böyükdür. Bu, onu göstərir ki, uzunmüddətli strateji direniş baxımından Rusiyanın perspektivi yoxdur. Rusiya yalnız müharibə həddində təhdid strategiyası ilə ABŞ, Avropa Birliyi və Türkiyəni çəkindirməyə çalışır. Yəni Rusiyə düşünür ki, nə ABŞ, nə Türkiyə, nə də NATO Suriyadan ötrü Rusiya ilə hərbi qarşıdurmaya girməyəcək, bundan çəkinəcəklər. Bu, Rusiyanı cəsarətləndirir. Xüsusən də 2008 - Gürcüstan və 2014 - Ukrayna böhranlarından sonra Rusiya bir qədər də cəsarətlənib. Burada daxili-siyasi amili də nəzərə almaq lazımdır. Rusiyada maliyyə-iqtisadi, sosial-iqtisadi vəziyyət ağırlaşdıqca Putinin qorxusu artır və öz reytinqini yüksəltmək üçün diqqəti xarici hərbi siyasətə yönəldir. Bu kontekstində təbii ki, Türkiyə Rusiya ilə qarşıdurmadan çəkinməyə çalışacaq. Son insidentlər zamanı Türkiyənin ilk açıqlamalarından bəlli oldu ki, Ankara bunu Türkiyə-Rusiya qarşıdurması kimi yox, Rusiya-NATO qarşıdurması kimi qiymətləndirməyə daha çox üstünlük verdi. Eyni zamanda təhdid edilən sərhədlərin NATO sərhədləri olduğunu bildirdi və buna da ABŞ-la NATO-dan adekvat cavab gəldi. O baxımdan yaranmış böhranın dərinləşəcəyi halda bu qarşıdurmanın Rusiya-Türkiyə qarşıdurması yox, Rusiya-NATO qarşıdurması olacağını düşünürəm.

***- Üfüqdə dünya müharibəsi görünürmü?***

- Görünmür. Bu gün tərəflər arasında vəkalətlə müharibə gedir. Yəni üçüncü ölkələr və üçüncü qüvvələr üzərindən müharibə gedir. Amma birbaşa hərbi konfliktin olacağı riski artsa da, məncə, hələlik tərəflər bundan qaçınmağa çalışacaq. Çünki bu günlərdə Pentaqon və Rusiya Müdafiə Nazirliyi arasında başlanan danışıq da bundan xəbər verir. Onlar Suriya hava məkanında ABŞ və Rusiya hərbi təyyarələrinin qarşılaşmaması üçün danışıqların ilk raundunu reallaşdırdılar. Məncə, tərəflər bundan qaçmağa çalışacaq, amma vəkalətlə müharibənin qızışacağını düşünürəm. Çünki Rusiyanın Suriyada hərbi varlığını artırması və niyyətləri ABŞ-la, NATO-ya, Türkiyəyə bəllidir.Yeri gəlmişkən, bu plan üç variantlıdır:

Birincisi, Əsəd rejimini qorumaq və onun nəzarətində olan ərazini böyütmək; ikincisi, bu, mümkün olmasa, əsasən Şam, Hums, Hama, Lazkiyə bölgələrini əhatə edən Nüsayri dövlətini qurmaq - Aralıq dənizi və Livan sərhədlərini əhatə etməklə, bu da mümkün olmasa; üçüncüsü, Rusiya Tartusdakı hərbi dəniz bazasını, Lazkiyyədə isə yeni qurduğu hərbi hava bazasını, bununla da Suriyadakı maraqlarını qorumaq niyyətindədir ki, Əsəd sonrası Suriya quruculuğunda da iştirak etsin. Bu niyyəti bildiklərinə görə, artıq ABŞ və Türkiyə başda olmaqla Suriyanın dostları mötədil Suriya müxalifətinə hərbi dəstəyini artıracaq. Suriya Milli Şurasının sədri Halid Hocanın canlı efirdəki müsahibəsini dinlədim. Orda bildirdi ki, onlara tank və uçaq əleyhinə müasir silahlar verilməyə başlayıb, artıq 18 tank bu silahlarla vurulub. Yəni bu, o deməkdir ki, Suriyanın Əfqanıstanlaşması prosesi



> **"Yaxın perspektivdə hər tərəfdən Azərbaycana təzyiqlərin artacağını düşünürəm"**

başlayıb. Bir tərəfdən Avropa Birliyi, ABŞ və müttəfiqləri Rusiyaya tətbiq edikləri sanksiyaları sərtləşdirəcəklər, dünya bazarında neftin qiymətini aşağı salacaqlar...Yeri gəlmişkən, neftin qiymətinin 30-35, hətta bəzi mütəxəssislərə görə, 20 dollara qədər endirilməsi nəzərdə tutulur. Bu, realdır. Artıq Səudiyyə Ərəbistanı birtərəfli qaydada neftin qiymətinin endiriləcəyini açıqladı. Bu, Əfqanıstanlaşma məsələsinə daha bir misal. İkinci misal isə artıq Səudiyyə Ərəbistanının dini liderlərinin Rusiyaya qarşı cihad elan etməsidir. Yəni dediklərim artıq yeni anti-Rusiya stratejisindən və Suriya məsələsinin Əfqanıstanlaşacağından xəbər verir. Əfqanıstanda dönüm nöqtələrindən biri təyyarə əleyhinə raketlərin - "Stinqer"in əfqan mücahidlərinə verilməsi oldu. Burda daha müasir silahlar Suriya müxalifətinə verilir. Bir tərəfdən neftin qiymətnin endirilməsi, digər tərəfdən sanksiyaların sərtləşdirilməsi, üçüncü bir tərəfdən də Suriya müxalifətinə müasir silahların verilməsi, eyni zamanda islamçı qüvvələrin Rusiyaya qarşı cihad elanı...Üstəlik, Rusiya daxilində, xüsusən də Şimali Qafqaz və Mərkəzi Asiya istiqamətində terror qruplarının hərəkətə keçməsi gözlənilir. Bunlar yeni stratejinin elementləridir. Yəni proses nə qədər mürəkkəbləşsə də, strateji perspektivdə Rusiyanın buna qarşı duracaq - lap İranla birgə - potensialı yoxdur. Strateji baxımdan Rusiya orda məğlubiyyətə məhkumdur. Məncə, Rusiyanın çökdürülməsinin sürətləndirilməsi üçün o, Ukrayna böhranından əlavə bir böhrana - Suriya böhranına - salındı. Ola bilsin ki, Rusiya İraqa, yaxud yenidən Əfqanıstana cəlb olunsun. Bu hadisələr də gözlənilir. Amerika və müttəfiqlərindən fərqli olaraq, Rusiyanın potensialı məhdud olduğu üçün Moskva mübarizəni mümkün qədər lokallaşdırmağa çalışmaq əvəzinə, geopolitik və geostrateji qarşıdurma cəbhəsinin genişləndirilməsinə "gedir". Amerika isə düzgün olaraq strateji qarşıdurma cəbhəsini genişləndirmək xəttini tutur ki, Rusiya çöksün. Rusiya da strateji qarşıdurmanın cəbhəsinin genişləndirilməsinə yanlış olaraq "həvəslə" gedir. Rusiyanın başlıca strateji səhvi odur.

***- Sülhəddin bəy, Azərbaycan vaxtilə Əfqanıstan əməliyyatlarında Qərbin təmsil olunduğu blokdaydı və hava məkanını, aerodromlarını açıq elan etmişdi, elə bu gün də antiterror koalisiyasındayıq. Bəs, dediyiniz kimi, Əfqanıstanlaşacaq Suriya ilə bağlı əməliyyatlarda Bakı Rusiyanın tərəfində dayana bilərmi? Ümumən kəsişən maraqlarda Azərbaycanın yeri hardadır?***

- Azərbaycanın vəziyyəti Əfqanıstan əməliyyatları ilə müqayisədə daha mürəkkəbdir. Çünki 11 sentyabr 2001 hadisələrindən sonra bütün dünya, hətta Rusiya ABŞ-ın antiterror əməliyyatlarına dəstək verdi. O zaman Bakıda düzgün qərar qəbul olunmuşdu. Azərbaycanın ABŞ və NATO-ya dəhliz verməsi Rusiya və İran tərəfindən sərt qarşılanmadı. Çünki Amerika terrora məruz qalmışdı, bütün ictimai rəy onun tərəfindəydi. İndi isə vəziyyət tamamilə fərqlidir. İndi tərəflər Suriyada strateji qarşıdurma halındadırlar və konflikt dolaylı hərbi fazaya keçib, vəkalətlə müharibə vəziyyətidir. Burada Azərbaycanın yeganə təbii müttəfiqi, hüquqi baxımdansa strateji tərəfdaşı olan Türkiyə Qərb blokunda yer alır və Suriyada aktiv mövqe tutur. Azərbaycan təkcə Rusiya və ABŞ(NATO) arasında seçim etməməlidir. Eyni zamanda Türkiyə və Rusiya arasında seçim etmək zorundadır. Burada Azərbaycanın neytral qalmağa çalışmaq ehtimalı daha böyükdür. Çünki Türkiyəyə görə Rusiya Azərbaycana anlayışla yanaşacaq. Çünki Azərbaycan yeganə müttəfiqi olan Türkiyəni də itirə bilər. Ona görə də Rusiya çalışacaq ki, Xəzər üzərindən, neytral zonadan istifadə etməklə İran-İraq üzərindən hava dəhlizindən istifadə etsin.

***- Bu günlərdə Gürcüstanla Azərbaycan arasında nə baş verir? Gürcü baş nazirin Bakıya qəfil səfəri, prezidentin Tiflisə nəzərdə tutulan səfəri, bütün bunlar nədən xəbər verir?***

- Rusiya, təbii ki, Ukrayna böhranından sonra bütün MDB məkanında, xüsusən də GUAM məkanında və Cənubi Qafqazda güclənməyə çalışır. Abxaziya, Cənubi Osetiyanı ilhaq edib, orada hərbi bazalar qurub, eyni zamanda Bakı-Supsa kəmərinin bir hissəsini öz nəzarəti altına alıb, üstəlik, Bakı-Tiflis-Türkiyə avtomagistralının da 500 metrliyində dayanıb. Bu, eyni zamanda, Azərbaycana dolayı ilə təhdiddir. Digər tərəfdən, Azərbaycana birbaşa təzyiqlərini artırıb. Azərbaycana strateji seçim etmək istiqamətində təzyiq göstərir, Azərbaycanın Avrasiya İqtisadi Birliyinə daxil olmasını istəyir, eyni zamanda, konfliktin həllində köməkçi yol seçib: bir neçə ətraf rayonun qaytarılması müqabilində "MDB-nin sülhməramlı qüvvələr"i adı altında münaqişə zonasına girmək və Azərbaycanda hərbi iştirakını legitimləşdirmək istəyir. Bu biri tərəfdən də ABŞ, NATO və Türkiyənin Xəzərdə, eyni zamanda Azərbaycanda hərbi varlığının qarşısını almağa çalışır. Bu baxımdan önümüzdəki yaxın perspektivdə hər tərəfdən Azərbaycana təzyiqlərin artacağını düşünürəm.

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**



# İntellektual Hövsan-Bakı marşrutu

Zamin HACI
zaminhaci@gmail.com

**Ruslar hərbi gəmilərini Xəzərdə sürüb düz böyrümüzdən Suriyaya qanadlı raketlər atdılar. Gəmilərin dəqiq yerini bilən yoxdur, bəlkə də Azərbaycana aid sərhəd sularını üzüb keçmişdilər.**

Hərçənd, Xəzər onsuz statusu məlum olmayan bir dəniz-göldür. Bunun harasına girsən elə ətraf dövlətlərin ərazisinə girmiş kimi olursan. Xəzərin belə əlləm-qəlləm statusda qalması onu dövrələyən dövlətlərin bir-biri ilə dostluq və qardaşlıq münasibətlərinin şirinliyi üzündəndir. Rusiya və İran, Səməd müəllimin Amerikada qan ağladığı kimi, "Azərbaycanı sendviç şəklində basmarlayıblar", Türkmənistan-Azərbaycan münasibətləri Cərco yemişi kimi şirinliyindən partlayıbdır, Qazaxıstanı ta heç deməyək. Qədim Quzğun dənizinin ətrafına ancaq qarğa-quzğunlar toplaşıb, damazlıq üçün bir dənə də demokratik, göyərçin dövlət yoxdur.

Amma etibarlı qaynaqlardan sızan xəbərə görə Putin qanadlı raketləri selbələməzdən qabaq Lənkəran icra hakimiyyətindən, həmçinin şanlı müdafiə nazirimiz Zakir müəllimdən icazə almaq istəyibdir. Hava Hücumundan Müdafiə Qüvvələrimizin komandanı 5-6 il qabaq küçədə vurulduğundan o sahədən heç kimə ağız açmağa ehtiyac duyulmur. Oralarda bir növ "asan-xidmət"dir.

Lakin Kremldəki başbilənlər Putinə deyiblər ki, hazırda Azərbaycan deputatxana seçkiləri keçirir, dövləti çox narahat eləməyə ehtiyac yoxdur, xəbərsiz at getsin, heç zad olmaz. Nəticədə regionun lider dövlətinin münasibətini öyrənmədən raketləri tullayıblar.

Açığı, bir az xətrimizə dəydi - bir lətifədəki kimi. Yaxşı olar indən belə Putin Suriya tərəfə qanadlı raket atanda bizə də xəbər versin. Heç olmazsa təpənin başına çıxıb baxarıq. Yoxsa neçə illərdir elə o ora atır, bu bura uçur - heç xəbərimiz olmur. Amerikalılar da Əfqanıstana bu tərəfdən nəsə göndərirdilər - onu deyirəm.

Hövsanlı Osman bəyin Bakıya gəlib çıxması proyekti isə Putinin Suriyaya raket atmaq trayektoriyasından heç fərqlənmir. Osman bəy təzəlikcə məni Bakının "28 may" metrosu tərəfdə "Kitabevim.az" kitab dükanında (keyfiyyətli və ucuz kitab almaq istəyənlərə məsləhətli yerdir) saxlayıb, görün nə deyir. Deyir ki, qabaqlar Hövsandan "28 may" metrosuna gələn 175 saylı avtobus var idi. Sonra bunun son dayanacağını "Xətai" metrosu tərəfə köçürüblər. Qabaq 30 qəpik xərclədikləri yola indi 2 manata yaxın pul gedir, üstəlik 3-4 saat yolda qalırlar. Osman bəy xahiş elədi ki, hövsanlıların nəqliyyatın intellektual idarə edilməsi mərkəzinə təkliflərini qezetdə yazım.

Həmin təkliflər paketi isə əsasən bundan ibarətdir: Hövsan-Bakı avtobus marşrutunu daha maraqlı, əyləncəli etmək üçün yaxşı olar 175 saylı avtobus qəsəbədən çıxandan sonra birbaşa "Xətai"yə gəlməsin. Balaxanı-Novxanı-Sumqayıt yolu ilə Rusiya sərhədinə doğru getsin. Orda Yalamadan Dağıstana keçsin. Dağıstandan "Hərbi-Gürcüstan yolu" ilə Pankisi dərəsinə tərəf irəliləsin, bu zaman Hövsan sakinləri Elbrus dağının başı qarlı zirvəsini izləyib xoşhal olsunlar. Daha sonra Gürcüstanın Batumu kurort zonasından Trabzona, ordan İstanbula hərəkət edən 175 saylı avtobus Avropanı dolaşaraq Şengen zonasında gəzsin, bir növ Hövsan mənzərələrini xatırladan La Manş boğazından keçərək İngiltərəyə girsin. Oradan bərə vasitəsiylə Norveçə üzən 175 Şimal Buzlu Okeanı boyunca səfərə çıxaraq Berinq boğazından Quzey Amerikaya keçməli, nəhayət, yenidən gəmi ilə, Saleh müəllimin qazdığı Hind okeanı-Xəzər dənizi kanalı ilə Bakı limanına yan almalıdır. Orada bir qədər yorulmuş hövsanlılar "Starbuks"da qatıqlı qəhvə içərək şəhərə varid olsunlar.

Mən də əhalinin bu xahişinə qoşuluram.

# Gürcüstandan Rusiyaya doğru qəfil "U" dönüşü




# Tiflisdən Bakıya heyrətamiz qaz şantajı - şok gəlişmə

NATO-ya can atan qonşumuzun Moskvaya qəfil üz çevirməsinin səbəbi; qonşu ölkənin Kremldən öz energetik asılılığını artırmaq istəyi hansı zərurətdən doğub? Qaribaşvilinin qəribə Azərbaycan səfərinin arxasındakı sirr pərdəsi və Tiflisdə "işğalçı qazı" əleyhinə aksiya...

**Olduqca mürəkkəb dönəmdən keçən Gürcüstan-Rusiya münasibətlərində ötən həftəsonu sensasion sayıla biləcək, Azərbaycanın da maraqlarına bilavasitə toxunan hadisə baş verdi. Ölkənin energetika naziri Kaxi Kaladzenin açıqlamasından bəlli oldu ki, rəsmi Tiflis, sən demə, neçə vaxtdır Rusiyanın monopolist "Qazprom" şirkəti ilə anlaşma içindəymiş.**

Məsələ ondadır ki, Gürcüstanın əsas qaz təminatçısı Azərbaycandır və indiyədək SOCAR-la yerli hökumət arasında heç bir anlaşılmazlıq olmayıb. Hətta şirkət gürcülərə qazı daha ucuz satır, nəinki öz əhalimizə. O üzdən qonşumuzun bu sirli gedişi Bakı üçün ikiqat gözlənilməz olub. Kaladzenin açıqlamasının ertəsi günü baş nazir İrakli Qaribaşvilinin tələm-tələsik Azərbaycana gəlməsi, Bakıda prezident İlham Əliyevlə üç saatlıq (!!) danışıq aparması bu xüsusda boşuna sayıla bilməz.

Səfərin qəfilliyi və 3 saat sürməsi, sözsüz ki, müzakirə edilən məsələnin ciddiliyinə işarədir. Mövzunun məhz qaz məsələsi ilə əlaqəli olduğunu həm də ondan görmək olar ki, Qaribaşvilini Bakıda, hava limanında məhz energetika naziri Natiq Əliyev qarşılayıb.

***

Belə görünür, gürcü baş nazir qonşuluq əlaqələri üçün tamamən qeyri-standart olan son addımın ölkəmizdə haqlı narahatlıq və suallar doğuracağını bildiyi üçün, bir növ, operativ şəkildə Bakının könlünü almağa çalışıb, görüş izahat vermək xarakteri daşıyıb. Çünki iqtisadçı ekspertlərə görə, "Qazprom"la sövdələşmə bütün hallarda SOKAR-ın Gürcüstanın qaz bazarındakı payının aşağı düşməsinə gətirəcək.

Hərçənd, Qaribaşvilinin səfər öncəsi onun müavini, Rusiya ilə əlaqələri kurasiya edən Zurab Abaşidze Azərbaycanı sakitləşdirmək üçün bəyan edib ki, söhbət sırf kommersiya danışıqlarından gedir və istənilən halda Azərbaycan Gürcüstanın əsas qaz ixracatçısı kimi qalacaq. Qalmağına qalacaq, ancaq hansı səviyyədə - məsələ bundadır.

***

Təbii ki, bu kimi açıqlamalar nə baş verdiyinə aydınlıq gəlməsi üçün yetərli deyil. Sual ortaya cıxır: 2008-ci ildəki "5 günlük müharibə"dən, Abxaziya və Cənubi Osetiyanın müstəqilliyinin Rusiya tərəfindən birtərəfli şəkildə tanınmasından və dərhal hərbiləşdirilməsindən sonra rəsmi Tiflisin "işğalçı" adlandırmaqdan yorulmadığı, diplomatik əlaqələri dərhal kəsdiyi Rusiyaya qarşı bu qəfil jesti nəyə hesablanıb? Axı, cəmi ayarım öncə Cənubi Osetiyadakı rus qoşunlarının Bakı-Supsa neft kəmərinin bir hissəsinə nəzarəti ələ keçirməsi ilə Moskva üstəlik, Gürcüstanı kəmərlərlə hədələmiş, paralel olaraq Qərbi, Azərbaycanı da şantaj eləmişdi.

Bunun ardınca kontur-tədbirlər kimi Tiflis NATO-ya, Avropa Birliyinə inteqrasiya layihələrinə diqqəti daha da artırdı, Gürcüstanda NATO-nun təlim mərkəzi açıldı. Elədirsə, NATO-ya, Avropa Birliyinə ciddi cəhdlə can atan bir postsovet ölkəsinin onun ərazisinin bir hissəsini rəsmən işğal eləmiş Rusiyaya qəfil reveransı nə ilə ilgili ola bilərdi? Bəlkə Kremlin Gürcüstana qarşı hansısa yeni işğalçılıq planı haqda Tiflisdə səhih informasiya var və bu yolla o, Kremlin aqressiyasını azaltmaq istəyir?

Çətin. Çünki Ukrayna böhranından hələ də çıxa bilməyən, Suriyaya başı qarışan Rusiyanın növbəti bir avantüraya gedəcəyi inandırıcı deyil. Bəs motiv nədir? Bəlkə hazırda dünyaya güc nümayiş etdirmək istəyən, "qılıncının dəstəyi də kəsən" proqnozlara yatmaz Putindən ənənəvi çəkingənlik hissidir bu addıma rəvac verən?

Suallar hələlik yetər.

***

Bəzi ehtimallara görə, son qaz gedişi rusiyameylli keçmiş baş nazir Bidzina İvanişvilinin son parlament seçkilərində hakimiyyəti ələ almış "uşaqlarının" Rusiya ilə yaxınlaşmaq planlarının tərkib hissəsidir. Bu ehtimalı "Qazprom"la anlaşmaya qarşı Tiflisdə keçirilən etiraz aksiyası əslində doğrulayır. Müxalifətçilər həsab edir ki, Gürcüstanın hazırkı hökuməti ölkənin enerji müstəqilliyini itirmək istiqamətində addımlar atır.

İvanişvilinin biznes-mərkəzi qarşısında keçirilən aksiyada səslənən şüarlara diqqət edin: "Rusiyanın qaz işğalına yox!", "İşğalçı heç vaxt bizi qızdırmayacaq!", "İvanişvili "Qazprom"un agentidir!" və s.

"Biz yaxşı xatırlayırıq ki, 2006-cı ildə, Yeni ilə bir neçə gün qalmış Moskva qazı kəsdi və Gürcüstan əhalisini qazsız qoydu. Əminəm ki, başqa hallarda da Moskva bizə təzyiq eləmək üçün eyni cür hərəkət edəcək" - deyib etirazçı-müxalifətçilərdən biri. O da bəlli olub ki, "Tabula" teleşirkəti və eyni adlı jurnalı oktyabrın 17-də "Qazprom - azadlığın qaz kəmərasıdır!" şüarlı ilə etiraz aksiyası keçirəcək.

***

Göründüyü kimi, situasiya Tiflis rəsmilərinin təqdim elədiyi qədər sadə deyil. Az sonra dəqiq bilinəcək, bu siyasi gedişdi, yoxsa sırf energetik-kommersiya maraqlarla, daha ucuz qaz almaqla bağlı məsələdir.

Şübhə yox ki, Tiflisin Bakıya qarşı belə qəfil "U" gedişi, daha doğrusu, Azərbaycanı fakt qarşısında qoymaqla edilən qaz şantajı Qərbdə - Avropa Birliyi və ABŞ-da da ən azından, məyusluqla qarşılanacaq. Niyə? O səbəbə ki, Qərb, Avropa həm özünün, həm də müttəfiqlərinin və Gürcüstan daxil, tərəfdaş ölkələrinin Rusiyadan energetik asılılığını azaltmağa çalışır, nəinki əksinə.

NABUCCO, Transxəzər qaz kəməri layihələri məhz bu hədəfə hesablanıb. Çünki energetik asılılıq gec-tez siyasi asılılığa və müstəqilliyin itirilməsinə gətirir. Ermənistan nümunəsi görkdür. Belə bir durumda - işğalçı Rusiyaya qarşı Qərbin sanksiyalarının hələ ki, zəruri effekt verməyi, ABŞ və Avropanın bu sanksiyalara daha çox ölkəni qoşmağa səy elədiyi, habelə Azərbaycan, Türkmənistan, İran və başqa ölkələr hesabına Rusiya qazından və hətta neftindən imtinanın yollarını aradığı zamanda Tiflis hökumətinin Moskva ilə separatçı qaz sövdələşməsinə getməsi sanksiyaların fəlsəfəsinə kölgə salmaqla yanaşı, eyni zamanda anlaşılmır. Axı, hər necə olmasa, Gürcüstanın özü bilavasitə Rusiyanın təcavüzünə məruz qalan ölkədir.

Vaxtilə gürcü xalqını donmaqdan xilas edən Azərbaycanı incitmək də öz yerində.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

**Türkiyənin paytaxtı Ankara şəhərində təşkil olunan sülh mitinqində 95 nəfərin həlak olması, 200-dən yuxarı şəxsin yaralanması ilə nəticələnən terror qardaş ölkəni yasa boğub, dünyanı silkələyib. Belə bir partlayışı hansı qruplaşmanın təşkil edib həyata keçirməsi, bu terrorun siyasi məqsədinin, hədəfinin nə olması ilə bağlı siyasi təhlilçilər ən müxtəlif versiyalar irəli sürürlər.**



# Ankaradakı terrorda İŞİD "imza"sı - canlı bomba və 95 ölü...

## Kürdlərin təşkil etdiyi mitinqdə terror törətməklə ölkədə qarışıqlıq yaratmaq istəyiblər; Türkiyəni Suriyaya çevirmək istəyənlərin məqsədi nədir?

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu terrorun arxasında İŞİD-in dayandığı ehtimalı böyükdür. Bir neçə ay əvvəl Suriyada da oxşar partlayış olmuşdu və ehtimallar belə idi ki, hansısa İŞİD-çi özünü partladıb. Bu terakt nəticəsində də 30-dan yuxarı dinc sakin həlak olmuşdu. Həmin mitinq də solçuların, kürd silahlı hərəkatına rəğbət bəsləyənlərin mitinqi idi. Ankaradakı partlayışı da İŞİD-in təşkil etdiyindən şübhələnmək üçün əsaslar var: "Bu partlayış da solçuların və PKK-ya rəğbət bəsləyən qismlərin mitinqi idi. Düzdür, sülh çağırışı ilə keçirilirdi, amma yenə də hiss olunurdu ki, orada PKK-ya simpatiyası olanlar da az deyil. Hətta bəzilərinin maykasında "Kürdistan" yazılmışdı. Biz də bilirik ki, İŞİD Suriyada silahlı kürdlərlə də mübarizə aparır. İŞİD bütün istiqamətlərdə savaşır. İŞİD-lə savaşda silahlı kürdlər müəyyən qədər uğurlar qazanıblar. Rusiya prezidentinin də belə bir bəyanatı oldu ki, Suriyada İŞİD-ə qarşı iki güc savaşır, bunlar Bəşər Əsədin ordusu və silahlı kürdlərdir. Putinin bu sözündə müəyyən qədər həqiqət var. Suriyadakı İŞİD-kürd qarşıdurması tədricən Türkiyəyə inikas olur. Kürdlərin mitinqlərində həyata keçirilən partlayışlar bunun təzahürüdür. Belə bir ehtimallar da səslənir ki, bəlkə də Ankaradakı terror aktını radikal kürd elementlər özləri törədiblər ki, seçkiöncəsi reytinqlərini artırsınlar. Bu partlayışdan sonra PKK-nın siyasi qanadı olan HDP-nin reytinqinin qalxması mümkündür. Çünki HDP məzlum obrazında özünü göstərir. Amma mən hesab etmirəm ki, bu terroru kürdlər özləri təşkil edib. Ankaradakı partlayışı Türkiyənin dərin dövləti və ya iqtidarın təşkil etdiyi barədə ehtimalları da əsaslı saymıram. Bütün təhlillər bu terroru İŞİD-in təşkil etdiyinə aparıb çıxarır".

Ekspertin sözlərinə görə, mümkündür ki, bu partlayışın arxasında hansısa xarici qüvvələrin də siyasi marağı olsun: "Ola bilsin ki, hansısa mərkəzlər, dövlətlər ərəb ölkələrində, xüsusən də Suriyada gedən prosesin Türkiyədə də olmasını istəyirlər. Türkiyədə "ərəb baharı" mümkün olmadı. Bu səbəbdən terror hadisələri ilə ölkənin daxilində qarışıqlıq yaratmaq istəyində olan qüvvələr ola bilər. Türkiyəni Suriyaya çevirmək istəyənlərin olduğu hiss edilir. Ankaradakı terrorun bu istəkləri həyata keçirmək planının tərkib hissəsi olması istisna deyil. Canlı bomba ilə terror həyata keçirmək üsulundan adətən İŞİD istifadə edir. PKK bu üsuldan yox, yollara mina döşəmək kimi üsuldan istifadə edir. Bu nüans da Ankaradakı terroru İŞİD-in təşkil elədiyini söyləməyə əsas yaradır".

E.Şahinoğlu onu da vurğuladı ki, Türkiyəni Suriyaya çevirib bu ölkəyə müdaxilə etmək fikrinə düşən xarici qüvvələr olsa da, Türkiyəni Suriyaya çevirmək mümkün olmayacaq: "Çünki Türkiyə oturuşmuş dövlətdir. Suriyada uzun on illiklərdə demokratiya olmayıb, avtoritar diktatura rejimi olub, sülalə rejimi daim müxalif səsləri məhv edib. Uzun on illiklər keçdi və hardasa qırılma nöqtəsi baş verməli idi və belə də oldu. Türkiyə isə oturuşmuş, demokratiyanın olduğu, fərqli fikirlərə yer verilən ölkədir. Türkiyənin güclü ordusu var, NATO-nun üzvüdür. Suriyadakından fərqli olaraq Türkiyədə güclü siyasi partiyalar var ki, onlar son anda dövlətə olan təhlükə qarşısında ortaq məxrəcə gələ biləcəklər".

❑ **Etibar SEYİDAĞA**

# İŞİD-i niyə zəiflətmək olmur - 4 səbəb...

## Ekspert: "Rusiyaya qarşı kütləvi terror hazırlanır..."

**Son aylar dünyanın gündəminin əsas mövzusu İraq İslam Şam Dövləti (İŞİD) terror qruplaşmasının məhv edilməsi səylərinin gücləndirilməsidir. Bu qruplaşma təkcə Yaxın Şərqi deyil, bütün dünyanı təhdid edir. Hətta okeanın o tərəfində belə Pentaqon başçısı Eştom Karter də İŞİD terror təşkilatını ABŞ üçün əsas təhlükələrdən hesab edir.**



İŞİD-ə qarşı yaradılan koalisiya qüvvələri teror qruplaşmasını havadan vursa da, bu bəlanı birdəfəlik məhv etmək mümkün olmur. Əksinə, zaman keçdikcə bu qruplaşmanın tərkibində vuruşanların sayı artır, əldə etdikləri silahların təhlükəlilik miqyası genişlənib. Hətta xarici mətbuatın yaydığı məlumatlara görə, bu terror qruplaşması artıq bəzi döyüşlərdə kimyəvi silahlardan da istifadə etməkdən çəkinmir.

Bəs dünyanın hegemon gücləri İŞİD-i niyə zəiflədə, birdəfəlik sonuna çıxa bilmirlər?

"Yeni Müsavat"a açıqlamasında politoloq Qabil Hüseynli bildirib ki, bunun səbəbi İŞİD-ə bəzi ölkələr tərəfindən verilən dəstəkdir: "Eyni zamanda, onu da nəzərə almaq lazımdır ki, İŞİD öz təbliğatını normal səviyyədə qura bilib. İnternet üzərindən də fəaliyyətləri yüksək səviyyədə olduğu üçün asanlıqla cahil insanları öz sıralarına cəlb edə bilirlər. Eyni zamanda, üzvlərinə də yüksək maaş təklif edirlər. Özünü dinə həsr edən, sosial durumu çətin olanlar da çox asanlıqla onların toruna düşür. Son günlərin bəzi məlumatları göstərdi ki, Amerikanın Suriya Azadlıq Ordusu üçün ayırdığı silahın bir hissəsi İŞİD-in əlinə keçir. Belə ki, Amerikanın verdiyi silahların çoxu Suriya xalqının azadlığı üçün mübarizəyə qatılmış adamlar vasitəsilə pulla İŞİD-ə satılır. Nəticədə isə hazırda İŞİD hər növ silaha malikdir. Bütün bunlar onu göstərir ki, bu terror qruplaşması hələ bir müddət də fəaliyyətdə olacaq. Rusiyanın Suriya hadisələrinə müdaxilə etməsi və Bəşər Əsəd rejimini qorumaq istəməsi, İŞİD-ə qarşı zərbələr vuran Türkiyə, Amerika və Qərb koalisiyasını daha təmkinli hərəkət etməyə məcbur etdi. Artıq deməkolar ki, bu baxımdan taktikalar dəyişdirilib".

Politoloqun sözlərinə görə, dünyada bundan sonra bəzi məsələlər Rusiyanın davranışından asılı olacaq: "Son zamanlar Rusiyanın apardığı hərbi əməliyyatlar nəticəsində dəhşətli dərəcədə anti-Rusiya əhval-ruhiyyəsi yaranıb. Yayılan məlumatlara görə, artıq Suriya "İslam Cəbhəsi" döyüşçülərinin sayına görə İŞİD-i üstələməkdədir. Bu isə o deməkdir ki, yeni bir güc mərkəzi də formalaşır. Onların da hədəfi hazırda İŞİD deyil, Rusiyadır. Suriyada bir gündə Rusiyanın 10 tankını vururlar. Belə görünür ki, Rusiya üçün bu cəbhədə o qədər də asan olmayacaq. Artıq Qərbin hədəfində əsas Rusiyaya qarşı mübarizədir. Hələ ki, Rusiya dirəniş göstərir və göstərməyə çalışır ki, guya onlar Suriyada uğur qazanırlar. Baş verənlər göstərir ki, Rusiyaya qarşı kütləvi terror hadisələri hazırlanır. Amerikanın müdafiə naziri də Rusiyaya xəbərdarlıq etdi ki, hər terror əməliyyatlarına hazır olun, həm də yaxın zamanlarda Suriyada sizə qarşı hərbi əməliyyatlar hiss ediləcək dərəcədə böyük olacaq".

❑ **Əli RAİS**

# İmralı imperatorunun uzun qolu və dili - Türkiyənin ən böyük səhvi...



**Xalid KAZIMLI**

**1999-cu ilin fevralıydı, dünyanın informasiya məkanının başlıca xəbəri PKK lideri Abdulla Öcalanın Keniyada tutularaq, Türkiyəyə gətirilməsiydi.**

Bu tarixi hadisə bir günün içində baş verməmişdi. Bundan əvvəl Öcalan illərlə gizləndiyi, dəstəkləndiyi Suriyadan Rusiyaya keçmiş, ordan İtaliyaya qaçmış, daha sonra Yunanıstana, lap axırda da Keniyaya getmişdi. Türkiyənin xüsusi xidmət orqanlarının əməliyyatçıları onu orda İsrail kəşfiyyatının köməyi ilə yaxalayıb xüsusi təyyarəyə qoymuş, qolu və gözü bağlı halda gətirmişdilər.

O zaman Türkiyə əhalisi hesab edirdi ki, 1978-ci ildən bəri minlərlə günahsız insanın qətlinə fərman vermiş bu şəxsin yaxalanmasıyla Türkiyəni qana çalxayan, kürdlərlə türkləri qan düşməni edən PKK terroru başa çatacaq.

Buna böyük ümidlər vardı. Türkiyə hakimiyyəti eyforiyadaydı, PKK çökmüş durumdaydı. Təşkilatın liderləri ard-arda təslim olur, militanları peşmanlıq qanunundan yararlanmaq, dağdan enmək üçün müraciətlər edirdilər. Bu gedişlə PKK özünü buraxacaq, təslim olan olacaq, olmaq istəməyənlər başqa, uzaq ölkələrə sığınacaqdılar.

Qolu qandallı Öcalan yalvarırdı, Türkiyəni sevdiyini, anasının türk olduğunu, əslində ideoloji mübarizə apardığını, ölkənin parçalanmasına qarşı olduğunu deyirdi, sata biləcəyi bütün sirləri, yaxın adamlarını satırdı, istintaqla səmimi əməkdaşlıq edirdi. Silahlı mübarizə tarixi bu qədər miskin mənzərə və obraz görməmişdi.

Kürdlər və PKK üzvlərinin bir qismi Öcalanın öz boğazını kəndirdən qurtarmaq üçün belə etməsini doğru sayırdı, yerdə qalanlar zəif, qorxaq liderə inandıqları üçün peşman idi.

Ancaq işlər belə getmədi. Öcalanın boğazını kəndirdən, peysərini gülədən qurtaranlar tapıldı. Mənəvi, siyasi baxımdan ölmüş, bitmiş bir adamın canı bağışlandı. 1999-cu ilin iyununda ona ölüm hökmü kəsilsə də, hökm icra edilmədi və Türkiyə dövləti özünün yeni əsrdəki ən böyük səhvini buraxdı.

Bu da təbii ki, durduq yerdə baş verməmişdi. O dönəmdə Türkiyədə Avropa ailəsinin üzvü olmaq, AB-yə daxil olmaq ehtirası o qədər şiddətliydi ki, Ankaranı bununla həm şirnikləndirir, həm də şantaj edirdilər. Öcalanı assaydılar, Türkiyənin AB-yə yolu bağlanacaqdı.

Nəticə daha müdhiş oldu: Öcalanı asmadılar, Türkiyənin AB-yə qapısı açılmadı, üstəlik, pəncərəsi də bağlandı. PKK yenidən toparlanmağa, dirçəlməyə başladı, maliyyəsi, silah-sursatı artdı. Hansısa gözəgörünməz qüvvələr Türkiyəylə müttəfiqlik büsatı qura-qura onu parçalamaq istəyən terror təşkilatını gücləndirdilər.

Gün gəldi, istintaqda, məhkəmədə qorxaq, satqın ifadələr verən adam İmralıda oturub bərabərhüquqlu tərəf kimi çıxış etməyə başladı. Öcalan artıq danışıqlar masasındakı tərəflərdən biriydi, türmədə əla şəraiti, nökər-naibi belə vardı, yanına vəkillər ordusu gəlib-gedirdi, hökumət adamlarıyla oturub müzakirələr aparırdı. Heç Müqəddəs Yelena adasında saxlanılan imperator Napoleonun bu qədər imtiyazı olmamışdı. İmralı adası onun iqamətgahına dönmüşdü, onun qolu da, dili də uzanmışdı. Terror təşkilatının rəhbəri artıq xalqa açıq və gizli müraciətlər edirdi, lazım bildiyi vaxt dövlətə təzyiq göstərirdi. Onun ictimai rəydəki keçmiş obrazı da bərpa olunmuşdu, canını qurtarmaq üçün yalvardığı günlər unudulmuşdu.

Bu arada Türkiyə dövlətinin yeni rəhbərliyi ABŞ-a dirsək göstərirdi, Öcalanı tutub ona verən İsraillə düşmən olmuşdu, "ya Allah, bismillah" deyə ərəb dünyasını fəth edəcəyinə inanırdı, Rusiya ilə iqtisadi tərəfdaşlıqdan milyardlar qazanacağını düşünürdü, AB-yə girmək planından vaz keçmişdi.

PKK isə güclənməkdəydi, silah-sursat tədarük edir, siyasi qanadını gücləndirir, Avropa miqyasında təşkilatlanır, beynəlxalq əlaqələr qurur, özünü dövlət qurub-yaratmağa, idarə etməyə hazır və qadir göstərirdi.

Gün gəldi, PKK Türkiyə parlamentində 80 millət vəkili yeri qazandı. Bu, onu dövlətlə ultimativ dildə danışmağa sövq etdi. İmralı imperatoru artıq adaya sığışmırdı. 7 iyun seçkisindən sonra etnik kürdlər arasında dolaşan ən böyük qənaət bu idi: artıq dövlətimizi qurmuşuq, qarşımızda heç kəs dayana bilməz, hər cür gücümüz var.

Bu təşkilatın son aylarda törətdiyi silsilə teraktların əsl səbəbi də budur: özünü çox güclü hesab etməsi və mütəmadi həyata keçirdikləri teraktlarla bir nəticəyə nail olacağına inanması.

Ankara terrorunu PKK-nın, yaxud başqa bir qüvvənin törətdiyi indilikdə dəqiq bilinməsə də, bilinən bir şey var: 15 il öncə Türkiyə dövləti basdığını asmalıydı və terrorun kökünü kəsməliydi.

# Sərnişini sürücüyə “çevirib” 8 il azadlıqdan məhrum etdilər

## Maddi maraq qanunu necə üstələdi...



**“Müstəntiq dedi ki, qəzada hər 2 sürücü ölüb, onlardan nəsə almağım mümkün deyil, ona görə də sənin oğlundan almalıyam” - Qazax rayon sakini Hüseyn Mehdiyev belə deyir. Redaksiyamıza müraciət edən şikayətçinin sözlərinə görə, 2011-ci il noyabrın 27-də Qazaxın Sınıq körpü istiqamətində yol qəzası baş verib. Qazaxda “Akkord” şirkətnin sement zavodunda prorab işləyən Kənan Mənsimovun idarə etdiyi “Mersedes” markalı maşın yüksək sürətlə yolun kənarında dayanan “VAZ-2106" markalı maşının ön sağ hissəsinə çırpılıb: ”Saatda 170 kilometr sürətlə hərəkət edən “Mersedes”in sürücüsü Kənan Mənsimov və digər avtomobilin sürücüsü və sahibi Kənan Yusifov qəza zamanı dünyalarını dəyişiblər".**

H.Mehdiyev deyir ki, qəza zamanı Kənan Yusifova məxsus “VAZ-2106" markalı maşında onun oğlu Elnur Mehdiyev də olub: ”Oğlum qabaq sağ oturacaqda olub. Sağ budu və çənəsi sınıb. Komaya düşüb. İşi Baş Dövlət Yol Polisi İdarəsinin müstəntiqi Azər Hüseynov araşdırdı. Dedi ki, qəza zamanı hər 2 sürücü ölüb. Oğlun qəza zamanı baqajda da oturmuş olsa, onu sürücü kimi “oformit” edəcəyəm. Səbəbini soruşdum, dedi ki, sağ qalan oğlundur, o birilərdən heç nə ala bilməz. Oğlum komadan ayılandan sonra ona ittiham verildi. Guya qəza zamanı sükan arxasında oğlum olub, maşının hərəkət istiqamətini də səhv yazdı. Maşın əslində Qazax Sınıq körpü istiqamətində olub. Müstəntiq bunu tərs yazmaqla oğlumu sürücüyə “çevirdi”.

Nəqliyyat vasitəsinin hərəkətdə olub-olmamasını da müəyyən edə bilmədiyini yazdı. Meyitlərin heç birinin daxili müayinəsi keçirilməmişdi. Sonradan müstəntiq bundan da öz çirkin niyyəti üçün istifadə etdi. Kənan Yusifovun valideynləri qəza zamanı övladlarının sükan arxasında olması haqda izahat vermişdilər. Müstəntiq oğlumu istintaqa cəlb edib işi məhkəməyə göndərəndə biz Kənan Yusifovun meyitinin ekshumasiya olunmasını tələb etdik. Bunu ona görə tələb edirdik ki, qəza zamanı onun sinəsinə batmış sükan oxunun açdığı dəliyi ekspertiza təsdiqləsin. Müstəntiq Kənanın ailə üzvlərinə deyib ki, biz meyitin çıxarılaraq ekspertiza olunmasını tələb edirik. Onlara deyib ki, əgər izahatınızı dəyişib yazsaz ki, oğlunuz sükan arxasında olmayıb, belədə oğlunuzun meyitinin müayinəsinə elə də ciddi əsas qalmır. Beləcə müstəntiqin təhriki ilə Kənanın ailə üzvləri izahatlarını dəyişdilər. Bizim meyitin ekshumasiya olunaraq müayinə olunması ilə bağlı vəsatətimiz 2 dəfə təmin olundu. Amma müstəntiqin qərəzi, K.Yusifovun yaxınlarına etdiyi təsir nəticəsində meyit qəbirdən çıxarılıb müayinə olunmadı".

H.Mehdiyevin sözlərinə görə, iş Gəncə Ağır Cinayətlər Məhkəməsində araşdırılarkən meyitin müayinə olunmasına dair vəsatətlərin icrası üçün baş prokurorun 1-ci müavini Rüstəm Usubov qərar verib: “Hətta bundan sonra da meyitin müayinəsinə icazə vermədilər. Oğlumun günahı qəza zamanı Kənan Yusifovun maşınında olmasıdır. Bunu şahidlər deyir. Qəzadan sonra hadisə yerinə gələn, oğlumu maşından çıxaran Cəlal Musayev ifadə verib dedi ki, oğlum qəza zamanı sükan arxasında olmayıb. Kənan Yusifovun anası da hakimin sualına cavab verəndə dedi ki, oğlumla Kənan evdən çıxanda maşını Kənan Yusifov idarə edib. Onun bibisi Şirin Yusifov və Anar Mollayev dedilər ki, maşını Kənan Yusifov sürüb. Öz evlərindən əmisi gilə olan 3 kilometrlik məsafəni də Kənanın idarə etdiyini dedilər. Nə xeyri, axırda oğlumu tutdular. Hakim ekspert rəyinə istinad edib ona 8 il cəza verdi. Həmin rəyi müstəntiq ekspertlə razılaşaraq yazıb. Mərhum Kənan Yusifovun bədəni üzərində olan xəsarətləri gizlədib, oğlumun xəsarətlərini sükan arxasında olan kimi göstərib. Müstəntiq bu cür saxtakarlıqlar etməklə işi məhkəməyə yollayıb. Gəncə Apelyasiya Məhkəməsinin hakimi Rəşid Məhərrəmli Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Elbəyi Allahverdiyevin oğlum barəsində çıxardığı 8 illik azadlıqdan məhrumetmə haqda hökmü heç bir araşdırma aparmadan qüvvədə saxladı”.

Şikayətçinin dediyinə görə, iş hazırda Ali Məhkəmədədir: “Möhtərəm cənab prezidentdən, Ali Məhkəmə sədrindən, ədliyyə nazirindən, baş prokurordan israrla xahiş edirəm ki, oğlumun işinə ədalətlə baxılmasına göstəriş versinlər”.

İş izrə E.Mehdiyevin vəkili 2014-cü ilin mayında Ali Məhkəməyə kasasiya şikayəti verib. Şikayətə oktyabrın 29-da baxılacaq.

❑ **E.HÜSEYNOV**

---

**Nəqliyyat naziri Ziya Məmmədovun ən yaxın çevrəsinə daxil olan şəxslərin nəqliyyat sistemində tutduqları vəzifələrdən uzaqlaşdırılaraq istintaqa cəlb olunması, hətta oğlu Anar Məmmədovun da istintaqçıların sorğu-sualından ən son anda yayınaraq ölkədən getməsi xəbəri var.**




# Məmmədovlar Nəqliyyat Nazirliyini necə ələ keçirib?

## Nazirin nəqliyyat sistemindəki qohumları - adlar...

Qaynağımız bildirib ki, Z.Məmmədov 13 illik nazirliyi dövründə Nəqliyyat Nazirliyini podratçı şirkət kimi idarə edib, şəxsi maraqlarına tabe etdirib. Hazırda nazirlikdə, nazirliyə tabe MMC və qurumlarda yoxlamalar gedir.

Yük, yoxsa pul daşıma?

Nəqliyyat Nazirliyi ölkə daxilində yükdaşımalarına nəzarət etməklə hər il yüz milyonlarla manat gəlir əldə edir. Bu səhənin qeyri-rəsmi kuratoru nazirin qardaşı İmran Məmmədovun oğlu Rövşən Məmmədovdur. MMC-nin rəisi Elnur Məmmədovdur. Bu şəxsin soyadı nəqliyyat nazirinin soyadı ilə üst-üstə düşsə də, qohumluq əlaqələri yoxdur. E.Məmmədov digər bir nazirin qohumudur. Onunla nəqliyyat nazirinin yaxınlarının münasibətləri çox gərgindir.

Redaksiyamıza daxil olan məlumatda deyilir ki, E.Məmmədov nazirin qardaşı oğlu R.Məmmədovla hesablaşmır, onunla gəlirlərin bölüşdürülməsinə razılaşmır. Bu baxımdan yük daşımalarından əldə olunan gəlirlərin - söhbət “qara puldan” gedir - tam olaraq nazirin yaxınlarına axını baş tutmur. Buna görə də yük daşımalarından 30 faizlik payla kifayətlənməli olurlar.

Yol-körpü-tikinti sahəsi bir qədər əvvələ qədər Nəqliyyat Nazirliyinə tabe olan “Azəryolservis”də olub. Qurumun sədrinin nazirlə münasibətləri pis olmasa da, gəlirlər məsələsində aralarında narazılıqlar olub. Hazırda isə bu sahə də nəqliyyat nazirinin nəzarətindən çıxarılıb.

Yoxlamalara müəyyən olunub ki, sərnişindaşıma və taksi fəaliyyətindən əldə olunan pulların yarısı Məmmədovlara çatıb.

Qaynağımız yoxlamaların dərinliklərə qədər gedib çıxmasında Z.Məmmədovun yaxın çevrəsində olan şəxslərin xüsusi canfəşanlığının olduğunu da deyib. Bildirib ki, nəqliyyat nazirinin xaricdə gizlətdiyi sərvətləri siyahısını ortalığa bir il əvvəl münasibətləri korlanan biznes şəriki, “Hafka” kimi tanınan Hafiz Məmmədov qoyub.

Mənbənin sözlərinə görə, Z.Məmmədov istintaqa cəlb edildiyi halda qandallanacaq ilk şəxslərdən biri də müavini Arif Əsgərov olacaq.

Qeyd edək ki, A.Əsgərov hazırda tutduğu posta bu ilin fevralında təyinat alıb. Onun buna qədər tutduğu posta - “Azərbaycan Dəmir Yolları” QSC-yə “Azəryolservis”in sədri Cavid Qurbanov göndərilib. Təhvil-təslim zamanı böyük yeyintilər müəyyən olunaraq rəsmiləşdirilib. Həmin sənədlərin hazırda aparılan yoxlamalara əlavə olunduğu da bildirilir.

Nəqliyyat Nazirliyinə tabe olan “Bakı Sərnişin Nəqliyyat” MMC-də aylıq dövriyyənin on milyonlarla manat olduğu, bir o qədər də vəsaitin mənimsənildiyi barədə də məlumat var. Qeyd olunur ki, MMC-nin rəisi Rövşən Loğman oğlu Məmmədov olub. Z.Məmmədovun qardaşı oğlu olan R.Məmmədov nəqliyyat sektorunun pul yığanıdır. Vaxtilə gömrükdə çalışıb, oradan qovulub. Onun növbəti iş yeri əmisinin tabeçiliyində olan Avtovağzal oub. Orada pul mənbələrini öyrənib. “Transgeyt”dəki vəziyyəti ələ alıb. Sonradan Dövlət Avtonəqliyyat Müəssisəsinə rəis müavini təyin olunub. İşlədiyi müddətdə ixtisaslı kadrları aşkarlayıb və sıradan çıxarıb. Z.Məmmədov məzuniyyətə göndəriləne qədər “Transqeyt”, Avtovağzal və yükdaşımalardan gəlirlər onun əlində cəm olunub və sonradan Z.Məmmədova ötürülüb.

Az əvvəl tutduğu postdan uzaqlaşdırılan “Bakısərnişinnəqliyyat” MMC-nin direktor müavini Davud Əfəndiyev də nəqliyyat nazirinə yad şəxs deyil. Nazirin bacısı oğlu olan D.Əfəndiyev də vaxtilə gömrükdə işləyib, o da oradan qovulub. İşdən çıxarılmasına baxmayaraq bu gün də qeyri-leqal olaraq Beynəlxalq Avtovağzal Kompleksində oturması haqda məlumat var. Bu ilin sentyabrında kompleksə rəhbər təyin olunan Seymur Aslanovun da nəqliyyat nazirinin kadrı olduğu bildirilir. Kompleksin hazırda faktiki olaraq Davud Əfəndiyev tərəfindən idarə edildiyi qeyd olunur.

Nəqliyyat Nazirliyinə tabe olan ən gəlirli sahələrdən biri kimi Dövlət Avtomobil Nəqliyyatı Xidməti(DANX) hesab olunur. Bu posta öz adamını təyin etdirmək üçün daim klanlararası gərgin mübarizə gedir. Bu il avqustun 3-də Ziya Məmmədov “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi”(NİİM) MMC-nin baş direktoru Elnur Nazim oğlu Abdullayevi tutduğu postdan azad edərək DANX-a rəis təyin edib. Bu postun rəisinin aylıq gəlirinin 50 min manata yaxın olduğu bildirilir. Qeyd olunur ki, bu xidmət vasitəsi ilə hər ay milyonlar toplanır.

Nəqliyyat Nazirliyinin Lisenziyalaşdırma və Fərqləndirmə Nişanlarının Rəsmiləşdirilməsi şöbəsinin rəisi Məzahir Məmmədov Ziya Məmmədovun əmisi oğludur. Nəqliyat sistemində bələd olanlar onu sözün düzünü deyən, spirtli içkilərə meyllı biri kimi xarakterizə edirlər. Vaxtilə TİR sürücüsü olmuş M.Məmmədov nazir olan əmisi oğluna “ətrafın başını yeyəcək” deməsi ilə yaddaşlarda qalıb. M.Məmmədovun müavini Vətən adlı şəxs nazirin əmisi qızının oğludur.

Sonuncu iş yeri DANX-ın kadrlar şöbəsinin rəisi olmuş nazirin qardaşı Nəriman Məmmədovun da qaranlıq keçmişi var. Onun əvvəllər həbsdə olduğu deyilir. Bildirilir ki, Ziya Məmmədovla “ADY” QSC-də çalışıb. Orada iqtisadiyyat və mühasibat şöbəsinin rəisi olub.

“Azəryolservis”də ağır tonnajlı, iri qabaritli avtomaşınlara nəzarət idarəsində rəis vəzifəsində çalışıb. Bu idarə ən müxtəlif bəhanələrlə ağır tonnajlı nəqliyyat vasitələrinin sahibləri olan fiziki və hüquqi şəxsləri 4-7 min manat cərimələməklə pul yığılması ilə ad çıxarıb. Respublika ərazisində işlədilən yük maşınlarına nəzarət etməklə çox böyük para qazanılıb. Həm də bu pulların alınması çox kobudluqlarla müşayiət olunub, böyük narazılıq yaradıb. Odur ki, idarə Nəqliyyat Nazirliyindən alınaraq DYP-yə verilib. N.Məmmədov idarəni təhvil verərkən 7 milyona yaxın vəsaitin mənimsənildiyi bildirilir. Son aylarda Qusardakı xoşagəlməz olayla adı gündəmə gələn N.Məmmədovun hazırda nitqində problemlər var, o, danışmağa çətinlik çəkir.

“Bakısərnişinnəqliyyat” MMC-nin kadrlar idarəsinin rəisi Məlikağa Səfərovun da nəqliyyat naziri ilə qohumluq bağları var. O, nazirin xalası oğludur. Vaxtilə İmişlinin keçmiş polis rəisi olub, təqaüddə olan polis polkovnikidir. Onun oğlu Anar Səfərov DANX-ın Sumqayıt 2 saylı regional xidmətinin rəisidir.

Bakıdan rayonlara istiqamətlənən yollarda quraşdırılan və yük maşınlarının tonnajının çəkilməsi üçün nəzərdə tutulan tərəzilər də qohumluq prinsiplərinə söykənərək işlədilir. Məsələn Salyan tərəzi postunun rəhbəri Anar adlı şəxs Ziya Məmmədovun qardaşı Nəriman Məmmədovun baldızı oğludur. Ucar və Göyçay DANX-ın regional şöbəsinin rəisi Vüqar adlı şəxsi də Məmmədovlara qohumluq telləri bağlayır. Tərəzilərə nəzarət idarəsinin rəisi nəqliyyat nazirinin dayısı nəvəsi Azərdir. Hərbçidir, polkovnikdir. Yaxın qohumu İslam “Bakısərnişinnəqliyyatı” MMC-də nəzarət şöbəsinin rəisidir. Aylıq gəlirinin 30 min manatı aşdığı deyilir.

Bu Nəqliyyat Nazirliyi sistemində çalışan nazir Ziya Məmmədovun yaxınlarının tam siyahısı deyil. Yaxın saylarımızda redaksiyamıza daxil olan digər məlumatları da dərc edəcəyik.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Cəbhədə növbəti döyüşlər; İrəvana gedən türk hərbçiləri Qarabağa girə bilərmi?..

## Moskva-Ankara münasibətlərindəki gərginlik İrəvanın aqressivliyini artırıb; **Elxan Şahinoğlu:** "Bəlkə də Dağlıq Qarabağda yerləşdirilən silahların həcmi Ermənistandakından çoxdur..."

**Ermənistan prezidenti Serj Sərkisyan Konstitusiya layihəsi üzrə keçiriləcək referenduma etirazların artmasından dolayı narahatlıqlarını Azərbaycanla cəbhə xəttində vəziyyəti kritikləşdirməklə sengitməyə çalışır. Elə atəş xəttində son günlər baş verən ağır döyüşlər də bunun təsdiqi sayıla bilər.**

Qeyd edək ki, Serj Sarkisyan ölkənin idarəetmə sistemini dəyişəcək Konstitusiya layihəsi üzrə referendumun 2015-ci il dekabrın 6-da keçirilməsi barədə fərman imzalayıb ki, bu da erməni cəmiyyətində qızğın mübahisələrə səbəb olub. Layihəni hakim Respublikaçılar, Daşnaksutyun və Firavan Ermənistan fraksiyaları dəstəkləyib. Konstitusiya dəyişikliyinə qarşı birləşmiş qüvvələr isə rayon və şəhərlərdə əks-təbliğat kampaniyasına başladıqlarını bəyan ediblər (anspress.az).

Qayıdaq cəbhədəki duruma. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, oktyabrın 9-da axşam saatlarında qoşunların təmas xəttində düşmənlə döyüş toqquşması zamanı Silahlı Qüvvələrimizin bölmələrinin qarşı tərəfə vurduğu zərbələr nəticəsində düşmənin 6 nəfərədək hərbi qulluqçusu məhv edilib, çoxlu sayda yaralısı var. Məlumatda deyilir ki, Azərbaycan ordusunun bir hərbi qulluqçusu yaralanıb. "Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhəboyu əməliyyat şəraitinə tam nəzarət edir", - deyə açıqlamada bildirilir.

Erməni tərəf son günlərdə verdiyi 20-dən artıq itkini gizlətdiyi kimi, bu faktın da üstündən keçib və rəsmi açıqlama verməyib. Lakin görünən budur ki, Sərkisyan rejimi Azərbaycanın mövqelərinə diversiya-təxribat dəstələrini göndərməklə ölkənin müharibə şəraitində olması faktını ermənilərin diqqət mərkəzində saxlamağa, bununla da dövranını sürməyə çalışır. Düşmənin quduzlaşmasının bir səbəbi kimi, ekspertlər İrəvanın hərbi-strateji müttəfiqi Rusiyanın Suriyada hərbi əməliyyatlara başlaması, faktiki olaraq dünyaya meydan oxumasıdır. Üstəlik, Rusiya qırıcılarının Azərbaycanın ən yaxın müttəfiqi Türkiyənin hava sərhədlərini pozması da Ermənistanı məmnun edir. Sərkisyanın son terror olayındakı itkillərlə bağlı R.T.Ərdoğana göndərdiyi başsağlığı məktubu sadəcə görüntü üçündür. Erməni hakimiyyəti torpaqlarına iddia etdikləri Türkiyənin zəif düşməsini çox arzulayır, ona görə də bu qarşıdurmada Rusiyanın tərəfində olduqlarına şübhə yox.

***

Belə bir həssas dönəmdə Türkiyə Silahlı Qüvvələrinin bir qrup hərbçisi Ermənistana gedir. Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatına görə, "Avropada Adi Silahlı Qüvvələr haqqında" müqaviləyə uyğun olaraq Türkiyə təftiş üçün hərbçilərini Ermənistana göndərəcək. Məlumata görə, türkiyəli hərbçilər oktyabrın 11-14-də Ermənistanda təftiş aparacaqlar. Onların sayı barədə məlumat verilmir.

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a şərhində bildirdi ki, Türkiyənin hərbi nümayəndə heyətinin Ermənistana səfərində qeyri-adi heç nə yoxdur: "Baxmayaraq ki, iki dövlət arasında diplomatik münasibətlər dondurulub və sərhədlər qapalıdır, Ankara beynəlxalq öhdəliklərini yerinə yetirilməlidir. Türkiyə hərbçiləri 11 oktyabr tarixindən Ermənistanda Adi Silahlı Qüvvələr haqqında Müqavilə çərçivəsində nəzarət həyata keçirəcəklər. Əslində bu, Azərbaycanın da xeyrinədir. Çünki biz dəfələrlə bildirmişik ki, Ermənistan Adi Silahlı Qüvvələr haqqında Müqaviləni kobud şəkildə pozur, kvotadan artıq silahları Dağlıq Qarabağda yerləşdirir".

Ancaq reallıq budur ki, Ermənistan ordusunun əsas hissəsini və hərbi texnikasını, silah-sursat növlərini, artilleriya qurğularını işğal olunmuş Azərbaycan ərazilərində yerləşdirib. Avropa Parlamentinin qətnamələrində hətta Qarabağa əsgər göndərilməsini dayandırmaq barədə İrəvana çağırış edilsə də, bu tələbə əməl edilməyib. İşğalçı ölkə bu ərazilərin təftiş olunmasına da imkan vermir və qapıları möhkəm bağlayıb. Elə bir müddət əvvəl AŞPA-nın Dağlıq Qarabağ üzrə məruzəçisi Robert Volterin Dağlıq Qarabağa səfər etmək barədə müraciətinə Azərbaycan ərazilərini işğal altında saxlayan separatçı rejim tərəfindən mənfi cavab verilib. Dağlıq Qarabağdakı separatçı rejimin "xarici işlər nazirinin müavini" adlandıran Armine Aleksanyanın sözlərinə görə, R.Volter bu il sentyabrın 22-də onlara məktubla müraciət edərək, hesabat hazırlamaq üçün Qarabağa səfər etməsinə şərait yaradılmasını istəyib. Lakin müraciət qəbul olunmayıb. Separatçı rejimin nümayəndəsi əsasən hesabatın "Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılığın artması" adlandırılmasına etiraz etdiklərini deyərək, bu adın münaqişənin yalnız tək tərəfin mövqeyini ifadə etdiyini bildirib.

Xatırladaq ki, R.Volter "Dağlıq Qarabağda və Azərbaycanın işğal olunmuş digər ərazilərində zorakılığın artması" adlı hesabat hazırlamaq üçün sentyabrın 15-də Azərbaycan tərəfdən Dağlıq Qarabağa - təmas xəttinə fakt-araşdırıcı səfər edib. Bu fakt erməni ordusunun kvotadan kənar silah-sursat və texnikasını Azərbaycan ərazisində gizlətməsinin təsdiqidir. Üstəlik, Sərkisyan özü bu günlərdə Dağlıq Qarabağı "Ermənistanın tərkib hissəsi" adlandırmaqla cinayətlərini etiraf etmiş oldu. Təbii ki, bu məntiqlə ermənilər işğal zonasını terror yuvasına çeviriblər və bu ərazidəki qanunsuz məskunlaşdırmadan tutmuş qadağan olunmuş silahlara qədər bir çox faktların ört-bastır edildiyini söyləmək üçün əsaslar yetərincədir.



Elxan Şahinoğlu

Bəs, türk zabitlər israrla Qarabağ torpaqlarında təftiş apara bilərmi? E.Şahinoğlu: "Təəssüf ki, beynəlxalq aləm Dağlıq Qarabağdakı silahları nəzarətdə saxlaya bilmir və ya buna həvəsi yoxdur. Halbuki Qarabağdakı silahların məhz Ermənistan silahlarının əlavəsidir. Ona görə də Türkiyə nümayəndə heyətinin monitorinq nəticəsində obyektiv qiymətləndirməsinə ümid edirik. Axtarsan, bəlkə də Dağlıq Qarabağda yerləşdirilən silahların həcmi Ermənistandakından çoxdur. Aydındır ki, Ermənistan Türkiyənin hərbi nümayəndə heyətinə Dağlıq Qarabağda monitorinq aparmağa icazə verməyəcək. Türkiyə Azərbaycanın hərbi-strateji müttəfiqidir. Hətta Türkiyənin yerinə başqa bir ölkə olsaydı belə, İrəvan Dağlıq Qarabağın hərbi imkanlarını monitorinq aparmağa icazə verməzdi. Məhz bu səbəbdən Azərbaycan ordusu da Adi Silahlı Qüvvələr haqqında Müqavilənin şərtlərini yerinə yetirmək məcburiyyətində deyil. Biz istədiyimiz qədər silah və sursat ala bilərik. Azərbaycan həmin müqaviləni o şərtlə yerinə yetirərdi ki, Ermənistan işğal altındakı torpaqları boşaldardı. Ancaq nə Ermənistan bunu edir, nə də beynəlxalq aləm İrəvanı buna məcbur edir".

Politoloq deyir ki, belə olan halda kimsə bizdən Azərbaycanın Adi Silahlı Qüvvələr haqqında Müqavilənin şərtlərini yerinə yetirməsini gözləməsin: "İşğalın davam etdiyi müddətdə Azərbaycan silahlı qüvvələrini azaldan deyil. Əksinə, silahlı qüvvələr gücləndirilməli və yeni silahlarla təchiz olunmalıdır ki, Ermənistan sülhə məcbur edilsin".

***

Bu arada Ankara-Moskva münasibətlərində yaşanan gərginlik daha da artıb. Yayılan məlumatlara görə, Türkiyə vertolyotları son bir neçə gün ərzində iki dəfə Ermənistanın hava məkanına daxil olub. ANS-in məlumatına görə, barədə Ermənistanın "Qraparak" qəzeti yazıb. Baş verən hadisəni Milli Aviasiya Baş İdarəsinin rəisi Artyom Movsisyan da təsdiqləyib. Qəzetin yazdığına görə, hava sərhədinin pozulması hakim Respublika partiyasının iclasında da müzakirə olunub. Artyom Movsisyan bildirib ki, Türkiyə vertolyotları Ermənistanın hava sərhədini pozmağa həqiqətən də cəhd ediblər. "Bu cür faktlar oktyabrın 6-da və 7-də qeydə alınıb. Sərhədin pozulması 2-4 dəqiqə çəkib. Xüsusi reqlamentə uyğun olaraq tərəfimizdən lazımi tədbirlər görülüb. Həmçinin, Ankaradakı dispetçerlə hava gəmisinin hansı tipdən olduğu dəqiqləşdirilib". Hətta Rusiyaya aid "MİQ-29" döyüş təyyarəsinin Suriya-Türkiyə sərhədlərini pozandan sonra Türkiyə qırıcıları tərəfindən vurulmasına dair məlumat da yayılıb. Britaniyanın "Express" saytı xəbər verir ki, bu barədə Suriyada çalışan bir neçə jurnalist sosial şəbəkələrdə yazıblar. Bildirilir ki, Huraytan bölgəsində hərbi-hava əməliyyatı həyata keçirən Rusiya təyyarəsi Türkiyə səmasına keçdikdən sonra vurulub. Şahidlər havada partlayış gördüklərini iddia edirlər. Rusiya və Türkiyə SQ-nə yönəldilən sorğu hələ cavablandırılmayıb. Bəzi KİV-lər isə, vurulan "MİQ-29"-un Suriyaya məxsus ola biləcəyini istisna etmirlər: "Əlbəttə, əgər həqiqətən də vurulubsa".

Digər məlumata görə, Ankara da Rusiyanın Türkiyə dövlətinə qarşı saygısızlığının qarşılığında borclu qalmayıb. Belə ki, Türkiyənin hərbi sərnişin vertolyotu Ermənistanın hava sərhədlərinə daxil olub. İddialara görə, vertolyot sərhəddən içəri çox da keçməyərək, Ermənistan ərazisini tələsik tərk edib.Ermənilər iddia edib ki, insident Ermənistanın Armavir vilayətində baş verib. Marşrut isə İqdır-Qars olub. Məlumdur ki, Ermənistanla Türkiyə sərhədləri 20 ildən artıqdır ki, bağlıdır. Ölkələr arasında siyasi vəziyyətdə gərgin olaraq qalır. Son vaxtlar Ermənistanın ən yaxın müttəfiqi Rusiya ilə Türkiyə arasında gərginlik yaşanır. Sərhəd pozuntusu isə bu gərginliyin fonunda baş verir. Bu isə Rusiyaya bir cavab ola bilər. Rusiya Türkiyə sərhədlərini son 15 gündə bir neçə dəfə pozub. Vəziyyətin gərginləşdiyini görən NATO iki ölkə arasında baş verən gərginliyə münasibət bildirib. NATO -nun baş katibi Yens Stoltenberq bildirib ki, Türkiyənin hava sərhədini pozması heç də təsadüfə oxşamır. Rusiya isə hələ də Türkiyənin hava sərhədinin niyə pozduğu haqda heç bir izahat verməyib.

Rusiya-Türkiyə qarşıdurması və ümumən regionda baş verənlərin Qarabağ məsələsinə təsirlərindən danışan E.Şahinoğlu qeyd etdi ki, Suriya ətrafında baş verənlərin Dağlıq Qarabağ probleminin həllinə də təsiri var: "Təəssüf ki, bu təsir müsbət deyil. Rusiya Suriyanı Xəzər bölgəsindən də raket atəşinə tutub. Özü də bu bombardman Türkiyə Silahlı Qüvvələr komandanı Hulusi Akarın Azərbaycanda olduğu vaxt baş verdi. Akar bu mövzu ətrafında da Azərbaycan rəsmiləri ilə də fikir mübadiləsi apara bilərdi. Ankara Rusiyanın Suriyanın daxili işlərinə qarışmasının, Əsədə hərbi dəstək verməsinin əleyhinədir. Əlbəttə, rəsmi Bakının Moskvanın istəyinə "yox" deməsi çətindir. Ancaq Ankara və Türkiyə generaliteti Bakı ilə Moskva arasındakı hərbi əməkdaşlığın konturlarını özü üçün müəyyənləşdirmək istəyir. Rəsmi Bakı son zamanlar Ankara ilə Moskva arasındakı münasibətlərdə artan gərginliyə də diqqət yetirməlidir. Biri Azərbaycanın hərbi strateji müttəfiqidir, digəri isə "strateji tərəfdaş" adlandırılır və hər ikisinin Cənubi Qafqazda maraqları var. Suriya ərazisini bombalayan Rusiya təyyarələri bir neçə dəfə Türkiyə sərhədini pozublar. Bu, təsadüf deyil. Türkiyə prezidenti və baş naziri bu hallara dözməyəcəklərini və sərhəd pozuntunun təkrarlanması halında Rusiya təyyarələrini vuracaqlarını bildiriblər. Yəni Türkiyə-Rusiya münasibətləri tamamən pozula bilər. Hadisələrin bu istiqamətdə inkişafı rəsmi Bakının maraqlarına cavab vermir. Çünki Türkiyə-Rusiya münasibətlərinin gərginləşməsi halında rəsmi Bakının Ankara ilə Moskva arasında balanslaşdırılmış siyasət aparması çətinləşəcək. Digər tərəfdən Suriya problemi Rusiyanı ABŞ, Avropa Birliyi və Türkiyə ilə üz-üzə qoyarkən və üstəgəl Ukraynaya görə mövqelər fərqlənərkən adı çəkilən dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin birgə həllinə çalışacaqlarını söyləmək çətindir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

# Faciələrə sinə gələn aktrisa...

## Xalq artisti Nuriyyə Əhmədovanın ölümündən üç gün ötür


Nuriyyə Əhmədova

**Xəbər verildiyi kimi, Xalq artisti Nuriyyə Əhmədova oktyabrın 10-da səhər saatlarında 1 saylı şəhər xəstəxanasında ürək xəstəliyindən vəfat edib. Aktrisanın yaxın dostu, həmkarı, Əməkdar artist Nahidə Orucova onunla bağlı xatirələrini "Yeni Müsavat"a bölüşüb:**

"Onun evi olmadığı üçün biz uzun illər bir evdə, birgə yaşamışıq. O, mənim sirdaşım, ürək dostum idi. Mən bütün sirlərimi ona verirdim, böyük kimi ondan məsləhətlər alırdım. Çox xoşbəxtəm ki, belə bir görkəmli aktrisa, insan mənim yanımda olub. Mənim ev-eşiyim, nəyim vardısa ona qurban olardı, təki o yaşayardı... Övladlarının itkisi onun ürəyini partlatdı. O, balalarına qovuşdu. Bircə nigarançılığı sonbeşiyi Faiqdən idi".

Nahidə Orucova əziz dostunun sənətə gəlişindən, yaşadığı həyat hekayəsindən də danışıb: "Ömrünün sonlarına yaxın çox sıxıntılar yaşadı. Lakin bu sənətə gəlməsindən heç vaxt peşmançılıq hissi keçirmədi. Həmişə deyirdi ki, uşaq vaxtı Zeynəb Xanlarovaya baxıb bu sənətə gəlib. Çünki uşaq ikən onun yaxşı səsi var imiş. Buna görə də sənətə gəlişi Musiqili Teatrdan başlayıb. Lakin sonralar onun səsi itib-batdı. Bir qədər sonra "Azərbaycanfilm" kinostudiyasına getdi və oranın aparıcı aktrisası oldu. Bildiyiniz kimi, o xeyli sayda filmlərə çəkilib. Hətta çəkildiyi elə filmlər var ki, onları biz də görməmişik. Danışırdı ki, ailəsi heç vaxt aktrisa olmasını istəməyib. O, Şüvəlanda, kənddə böyümüşdü. Kənd yerində də bu sənətə münasibət yaxşı deyildi, ələlxüsus qızların aktrisa olmasına. Hətta bu sənəti seçdiyi üçün bir çox qohumları ondan üz döndərmişdi. Lakin o, bütün bu maneələri, ziddiyyətləri keçib görkəmli aktrisa oldu, xalqın sevimlisinə çevrildi. Bu barədə söz düşəndə Nuriyyə xanım deyərdi: "Mən aktrisa kimi özümü sübut etdim". Çox sevinirdi ki, həmin qohumları sonradan onunla fəxr etməyə başlamışdı".

Əməkdar artist Nuriyyə Əhmədovanın şəxsi xüsusiyyətlərindən də bəhs edib: "İnsan kimi çox gözəl şəxs idi. Onun dərdi böyük idi, iki balasını itirmişdi, buna baxmayaraq başqalarının dərdinə yanan, şərik olan bir xanım, çox duyğusal, incə ürəkli insan idi..."

Nahidə Orucova xalq artisti ilə keçirilən vida mərasimi ilə bağlı narazılığını bildirib: "O, dünyasını dəyişəndə bütün dostları, sənət yoldaşları, onu sevənlər ağlayırdı. Onun qəfil ölümü şənbəyə, yəni istirahət gününə təsadüf etməsinə baxmayaraq, hər kəs bir-birinə zəng edərək vida mərasiminin keçiriləcəyi yeri öyrənirdi. Mərasimə təkcə Musiqili Teatrdan deyil, "Azdrama"dan da xeyli sayda aktyor və aktrisa gəlmişdi. Gələnlər arasında Şəfiqə xanım, Vaqif Mustafayev, Cəmil Quliyev, Nürəddin Mehdixanlı, Rasim Balayev, Sənubər xanım, Naibə xanım və s. var idi. Lakin vida mərasimi hər hansı bir mədəniyyət ocağında təşkil olunsaydı, daha yaxşı olardı. Doğrudur, sevimli aktrisamızın vəfatı gözlənilməz olduğundan və iş günü olmadığından bu məsələləri çatdıra bilmədilər. Amma heç olmasa mərasimi Şüvəlan mədəniyyət evində təşkil edəydilər, camaat gəlib orda onunla layiqincə vidalaşardı. Bacısı həmin vaxt Dubayda qızının yanında idi. Hadisədən xəbərdar olan kimi gəldi. Yol uzaq olduğunda bir qədər gec çatdı, buna görə vida mərasimi bir qədər ləngidi. Təxminən saat 5 radələrində Nuriyyə xanım dəfn olundu. Nuriyyə xanım Fəxri Xiyabanda da dəfn oluna bilərdi. Lakin Şüvəlan qəbirstanlığında dəfn olunmağı özü istəmişdi. Vəsiyyət etmişdi ki, balalarının yanında uyusun. Orda onun ata-anası da dəfn olunub..."

Xatırladaq ki, Nuriyyə Əhmədova 1950-ci il dekabrın 26-da Bakıda anadan olub. Azərbaycan Dövlət İncəsənət İnstitutunun aktyorluq fakültəsini bitirib. Əmək fəaliyyətinə Musiqili Komediya Teatrında başlayıb. Kinoya ilk gəlişi 1982-ci ildə "Mozalan" süjetlərində çəkildikdən sonra olub. Aktrisa "Həm ziyarət, həm ticarət", "Bağ mövsümü", "Bəxt üzüyü", "Hər şey yaxşılığa doğru", "Yuxu" və s. bu kimi filmlərdə yaddaqalan obrazlar yaradıb, bir neçə tele-komediyalara çəkilib. 2007-ci ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülüb. Aktrisa illər öncə faciəli şəkildə gənc qızını, sonra isə oğlunu itirib.

Allah rəhmət eləsin!

❑ **Xalidə GƏRAY**

# Baş nazir müavininin Kremlə mədhiyyəsi etiraz doğurdu

## Mehriban Vəzir: "Azərbaycan Rusiya üçün həmişə bir işğal, maddi sərvətlər mənbəyi, strateji nöqtə olub..."

**Xəbər verildiyi kimi, Moskvadakı Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (VDNX) Azərbaycan-Rusiya hökumətlərarası komissiyasının iclasında Azərbaycan tərəfdən komissiyanın həmsədri, baş nazirin müavini Yaqub Eyyubov çıxışı zamanı Rusiyanın ünvanına xeyli isti mesajlar verib.**

"Mənim xalqım və prezidentim həmişə başa düşüblər ki, Rusiya həmişə bizimlə olub. Biz Rusiyadan çox şey almışıq və bu haqda açıq danışmaq lazımdır. Hesab edirik ki, Azərbaycan xalqı ona göstərilən qayğını həmişə yaxşı və düzgün qiymətləndirib", - deyə Yaqub Eyyubov bildirib.

Baş nazirin müavini onu da deyib ki, böyük sayda azərbaycanlılar Rusiyada işləyir və bu zaman heç kim onları sıxışdırmır, əksinə, onlar üçün şərait yaradılır.

Maraqlıdır, Rusiya doğrudanmı həmişə bizimlə olub?

Bu sualın cavabını əslində hər kəs çox yaxşı bilir. Hakimiyyət rəsmisinin Rusiyaya bu qədər mədhiyyəsi isə birmənalı qarşılanmayıb.

Yazıçı-publisist Mehriban Vəzir Rusiyanın Azərbaycana hər zaman sahib olmaq istədiyini söylədi: "Rusiya ilə Azərbaycanın münasibətlərini ötən əsrlərə gedib dayanır. Azərbaycan tarixini bilən, Azərbaycan ictimai siyasi proseslərindən xəbəri olan hər bir insan Rusiyanın Azərbaycan üçün kim və nə olduğunu çox gözəl bilir. Azərbaycan Rusiya üçün bir işğal, maddi sərvətlər mənbəyi, strateji nöqtədir. Rusiya həmişə Azərbaycana sahib olmaq istəyib. Bu istəyini, siyasətini həyata keçirmək üçün Azərbaycan insanının qanını töküb, mədəniyyətini baltalayıb, təbii axarının qarşısına çıxıb, xanlıq dövlətlərini, etiraz edən qüvvələri məhv edib. Azərbaycanın cümhuriyyətini, demokratik inkişafını məhv edib. Bir sözlə, işğalçı nə edə bilərsə, Rusiya da Azərbaycana onu edib. 1988-ci illərin milli-azadlıq hərəkatı hər kəsə məlumdur ki, məhz Rusiyanın pəncəsindən qopmaq savaşı idi və bu savaşda da biz on minlərlə itki vermişik. Xocalı, 20 Yanvar hadisələrinin hamısı Rusiyanın əli ilə törədilən hadisələrdir".


Yaqub Eyyubov

M.Vəzir son vaxtlar hakimiyyətin Rusiyaya meylinin artdığını bildirdi: "Müstəqilliyimizin 20 ili keçdikdən sonra, axır vaxtlar indiki hakimiyyətin Rusiyaya meyli daha da artıb. Son dönəmlərdə Elmar Məmmədyarovun dedikləri, Milli Məclisdə oturan deputatların fikirləri və nəhayət, Yaqub Eyyyubovun fikirləri ilə sanki cəmiyyətin ictimai şüuruna yavaş-yavaş oturdulur ki, Rusiya bizim dostumuzdur. Mənim başa düşmədiyim bir şey var. Azərbaycan müstəqilliyinin qarantı var. Bu qarant xalqdır. Eyni zamanda milli-azadlıq hərəkatının şinelindən çıxan partiyalardır. Onlar niyə buna susur?! Niyə adekvat cavablar vermir?! Onlar niyə bu barədə xalq arasında maarifçilik aparmır, xalqa bu mesajların sətiraltısını izah etmirlər?! Mənə elə gəlir ki, bu yerdə demokratik qüvvələrin, müxalifətin ictimai çevrədə görəcəyi çox işlər var. Sadəcə olaraq bir tərəfdən iş görülür, o biri tərəfdən xırda-xırda nəsə deyilsə də sanki susurmuş kimi görsənir. Məncə, cavablar verilməlidir. Rusiyaya meyilli insanlara cavab verilməlidir. Əgər onlar keçmişi unudublarsa, bunu onların yadına salmaq lazımdır. Görünür, vətəndaşlıq hisslərini bu insanlarda oyatmaq lazımdır".

Qeyd edək ki, son vaxtlar bizimlə qardaş sayılan Türkiyə ilə də Rusiya arasında gərgin münasibətlər hökm sürməkdədir. Bunun səbəbi isə Rusiyanın Suriya münaqişəsinə hərbi müdaxiləsidir ki, bu da Türkiyə-Rusiya münasibətlərinin gələcəyini bütün ciddiliyi ilə sınağa çəkib. Çünki Moskvanın bu konfliktdə güddüyü hədəflər Türkiyənin əsas hədəfləri ilə xeyli dərəcədə üst-üstə düşmür - rəsmi Kreml əməliyyatların məqsədinin sırf İŞİD-i məhv eləmək olduğunu dönə-dönə bəyan eləsə də. Bununla belə, müşahidələr iki ölkə münasibətlərinin sürətlə "qırmızı xətt"ə yaxınlaşmaqda olduğunu göstərir. Son olaraq bunu prezident Rəcəb Tayyib Ərdoğan rus qırıcılarının Türkiyə hava məkanını pozmasına işarə vuraraq bildirib ki, Rusiya Türkiyəni itirə bilər və bunun da ziyanını ən çox Rusiya çəkər.

❑ **Günel MANAFLI**

# "Parabank" sədrindən prezidentə şikayət olundu

## İqbal Mikayılov sahibkarlara güzəştli kreditlərin verilməsinin məziyyətlərini açıqladı

**Şirvan şəhər sakini İqbal Mikayılov prezidentə müraciət edib. Müraciət müəllifi yazır ki, 2004-cü ildə təsis etdiyi və ötən ildən inkişaf etdirdiyi "İLHAM" MMC kəndli fermer təsərrüfatı bağlanmaq, məhv olmaq üzrədir: "İLHAM" MMC kəndli fermer təsərrüfatının fəaliyyətinin genişlənməsi, ölkəmizin iqtisadiyyatına töhfə verməsinə "Parabank"ın sədri Vəli Quliyev imkan vermir.**




Vəli Quliyev bu ilin aprel ayından başlayaraq 5 ay ərzində məni Bakı və Şirvan şəhərləri arasında get-gələ saldı. Nə qədər girov istədisə təqdim etdim ki, Sahibkarlığa Kömək Milli Fondundan güzəştli əlavə kredit götürüm. Hər yerdən əli üzüldü, son bəhanəsi bu oldu ki, guya mən ötən ilin dekabr ayında götürdüyüm kreditin aylıq faizinin ödənişini gecikdirmişəm. Həmin gecikmə sırf Vəli Quliyevin ucbatından oldu. İyul ayından məni arxayın elədi ki, bu gün, sabah krediitini alacaqsan. Mən də arxayın olub aylığı yollamadım ki, yeni qrafik üzrə aylığımı ödəyərəm. Lakin Vəli Quliyev atası Eldar Quliyevə güvənərək heç bir qanunu, dövlət orqanlarını, struktrunu saymayaraq mənim kimi əzab-əziyyətlə, zəhmətlə təsərrüfat yaradan vətəndaşların hissiyyatı ilə oynayaraq kredit götürməyimə mane oldu".

İ.Mikayılov müraciətində yazır ki, "Parabank"ın de-fakto sahibi Eldar Quliyevdir və oğlu Vəli Quliyevi bankın idarə heyətinə sədr təyin edib: "Hörmətli cənab prezident, Vəli Quliyev cavan uşaqdır və atasının ərköyünü olmaqla cah-cəlal içərisində yaşayır. Günü kef məclislərində, xarici ölkələrdə istirahətlərdə keçən bu cavan uşağın Azərbaycan dövlətinin başçısı İlham Əliyevin yürütdüyü siyasətdən konkret olaraq xəbəri yoxdur. Bu adama hökumətin aqrar siyasəti heç maraqlı da deyil. Əgər Vəli Quliyev Azərbaycan dövlətinə saygı ilə yanaşsaydı, mən bu gün "İLHAM" MMC kəndli fermer təsərrüfatını bağlamaq məcburiyyətində qalmazdım. Mən dəfələrlə Vəli Quliyevə 2015-ci ilin İlham Əliyev tərəfindən "Kənd təsərrüfatı ili" elan olunmasını desəm də heç əhəmiyyət vermədi. Mən mətbuat vasitəsi ilə "Parabank"ın sahibi Eldar Quliyevə müraciət etdim. Lakin oğlu Vəli Quliyevə arxa dayanan Eldar Quliyev müraciətimə cavab vermədi. Ən dəhşətlisi odur ki, bankların fəaliyyətinə nəzarət edən Mərkəzi Bank 3 aydır şikayət məktublarıma cavab vermir. Belə çıxır ki, Mərkəzi Bank "Parabank"ın sədrinin özbaşınalığına haqq qazandırır. Belə çıxır ki, "Parabank"dan nəyə görəsə hamı çəkinir".

İ.Mikayılov prezidentə müraciətində qeyd edir ki, sahibkarlığa kömək edən tapılmır: "Sizi tam əmin edirəm, əlaqədar qurumlar tərəfindən sahibkarlığa qəti şəkildə kömək edən yoxdur. Verilən güzəştli kreditlər yalnız özlərinə yaxın şəxslərə verilir. Sadə, mənim kimi sahibkarlar şikayət edəndən sonra cüzi kreditlər verilir. Böyük məbləğləri öz mənafelərinə uyğun şəkildə verirlər və Sizi aldadırlar. Son aylarda banklarda baş verən hadisələr də mənim qeyd etdiyimi təsdiq edir. Sizə müraciət etməyimin əsas səbəbi odur ki, bu gün banklarda özbaşınalıq, xaos, dərəbəylik hökm sürür. Bankların sahibləri xalqın pulu ilə o qədər sərvətləniblər ki, gözlərində heç kimi görmürlər, heç kimi saymırlar. Bankların əhaliyə zülm etməsi kulminasiya nöqtəsinə çatıb. Xüsusi ilə "Parabank"da şahidi oldum ki, məqsədləri insanları dövlətdən, şəxsən Siz İlham Əliyevdən narazı salmaqdır. Kimdir bu Quliyevlərin "krışa"sı ki, dövlətimizə əzələ nümayiş etdirirlər? Bu Quliyevlərin Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasında, qorunmasında hansı xidmətləri olub ki, bu qədər arxayınlıqla Bakının mərkəzində at oynadırlar. Mən şəxsən vətəndaş kimi prezidentimə, cənab İlham Əliyevə güvənirəm və əminəm ki, "Parabank"da üzləşdiyim imkanlı, milyonçu kişinin qanunları saymayan balasının layiqli cavabı veriləcək".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

**Son günlər vətəndaşlarla məmurlar arasında mübahisə və qovğalar yaradan məsələlərdən biri də rayon qeydiyyatında olan avtomobillərin Bakıya buraxılmamasıdır. İnsanlar öz paytaxtlarına daxil olmaqda maneə ilə üzləşirlər. Səbəb isə onların avtomobillərinin "bakılı" olmamasıdır...**
**Bu ilin 15 sentyabr tarixindən etibarən rayon qeydiyyatında olan avtomobillərin Bakının mərkəzinə daxil olması rəsmi qaydada qadağan olundu.**



# Hakimiyyətin özünə qarşı yaratdığı silah...

## "Əyalət maşınlarının Bakıya girişinə qadağa qoyulması ağır nəticələrə səbəb ola bilər"

Bununla da rayondan gələn soydaşlarımız öz avtomobillərini Bakı-Ələt yolunun 14-cü km-də, Lökbatan dairəsinin yaxınlığında və şimal girişindəki Bakı-Quba yolunun 16-cı km-də tikilən duracaqlarda saxlayıb, şəhərə piyada gəlmək məcburiyyətində qaldılar. Məhz bundan sonra müxtəlif hadisələr yaşandı. Belə ki, sosial mediada yayılan məlumatlara görə, İsmayıllı rayonundan Bakıya xəstə gətirən avtomobil şəhərə buraxılmadığı üçün xəstənin vəziyyəti daha da ağırlaşıb. Bu da polis əməkdaşları ilə xəstənin yaxınları arasında gərgin mübahisəyə səbəb olub. Onu da qeyd edək ki, mövcud qaydaya görə, rayondan gələn avtomobilin içərisində xəstə olduğu halda belə, o, şəhərə buraxılmır. Həmin avtomobil yuxarıda qeyd etdiyimiz duracaqlara yönləndirilir. Orada xəstə təcili yardım maşınına qoyularaq, Bakının mərkəzinə gətirilir.

Müşahidələr göstərir ki, rayon maşınlarının Bakıya buraxılmaması paytaxtda tıxacların aradan qalxmasına səbəb olmayıb. Əksinə, maşınların nömrələrə baxış üçün Qaradağda, Bakı-Sumqayıt yolunda şəhərə bir-bir buraxılması həmin ərazilərdə kilometrlərlə tıxac yaradır.

Ən əsası, bu qadağa Azərbaycan vətəndaşlarını, əyalət insanlarını haqlı olaraq narazı salır. Faktiki olaraq hakimiyyət öz əli ilə insanların narazılığını artırır.

Hadisələrlə bağlı psixoloqlar da həyəcan təbili çalır. Psixoloq Elnur Rüstəmov musavat.com-a açıqlamasında bildirib ki, vətəndaş və polis arasında yaranan kiçik qarşıdurmalar, ölkə daxilində digər böyük problemlər üçün özül ola bilər: "Rayondan Bakıya gələnlər arasında təhlil apardıqda, onların paytaxta üz tutmalarının səbəblərində müxtəliflik görə bilərik. Bir var Bakıya gəzmək üçün gələn insanlar, bir də var, misal üçün, həkimə müraciət üçün paytaxta üz tutanlar. Təsnifatlar aparılmalı və buna uyğun tədbirlər görülməlidir. Nəzərə alaq ki, sürücü ilə polis arasında bir yerdə yaranan qarşıdurma, başqa situasiyada da təkrarlana bilər. Əgər Bakı şəhərinin girişində sürücü ilə polis arasında hər hansı bir səbəbdən mübahisə yaranarsa, bu başqa bir şəhərdə də təkrarlanacaq. Çünki burada söhbət əlaqənin qırılmasından gedir. İnsanlar bir situasiyada hansısa prosesi görürlər, uyğun olmayan məqamda da bunu təkrarlayırlar. Vətəndaşla dövlət məmuru arasında olan narazılıq başqa bir formada öz təzahürünü tapa bilər. Bu isə böyük problemlərə yol açar. Ola bilər ki, girişdə rayon qeydiyyatında olan avtomobilin sahibi ilə polis arasında gərginlik yaşanır və bu prosesi görən Bakı sakini də artıq başqa yerdə eyni halı təkrarlayır. İnsanları hadisələri qavrama tərzi müxtəlifdir. Bu kimi mənfi psixoloji gərginliklər əlavə problemlər yarada bilər. Avtomobilində xəstəsi olan şəxs zatən gərgindir və ona əlavə gərginlik yükləmək olmaz. Bakının girişindəki problem artıq uzun zamandır ki, müzakirə olunur. Hesab edirəm ki, əlaqədar qurumlar bunu nəzərə alıb hansısa tədbir görəcəklər. Qeyd etdiyim kimi bu hal insanlarda süni psixoloji gərginliklər yarada bilər və bundan sığortalanmaq lazımdır. Polis sərt tədbirlər gördükcə, vətəndaş da aqressivləşir".

Rayon avtomobillərinə qadağanın qoyulmasına səbəb paytaxt küçələrindəki tıxac idi. Hələ bu qayda tətbiq olunmamışdan öncə mətbuata açıqlama verən Baş Nazirin müavini, Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyasının sədri Abid Şərifov bildirmişdi ki, gün ərzində Bakıya bölgələrdən 60-80 min arası nəqliyyat vasitəsi daxil olur. A.Şərifov bu qaydanın tətbiqindən sonra vəziyyətin yaxşılaşacağını da söyləmişdi.

Vəziyyət yaxşılaşdımı?

Məsələ ilə bağlı musavat.com-a ekspert Ərşad Hüseynov danışıb. O bildirib ki, rayon qeydiyyatında olan avtomobillərin Bakıya girişinə qoyulan qadağalar problemləri həll etmək əvəzinə, əlavə gərginliklər yaradıb: "Bu layihənin həyata keçirilməsindən sonra yaranan problemlər, qarşıya qoyulan məqsəddən daha ciddi oldu. İnsanlarda sözün həqiqi mənasında aqressiv əhval-ruhiyyə yaranıb. Bəzi şəxslər qeyd edirlər ki, bu qayda tətbiq olunduqdan sonra onlar işlərini itiriblər. Hər halda hesab edirəm ki, bəhs etdiyimiz məsələ tam düşünülməmiş atılan addım idi. Eyni zamanda, məsələyə hüquqi aspektdən yanaşarkən görə bilərik ki, burada da əsaslı boşluq var. Nazirlər Kabinetinin Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyası (YHTK) normativ hüquqi aktlar qəbul etmək səlahiyyətinə malik deyil. Bunu etməyin hüquq çərçivəsində müəyyən qaydaları var. Bu günə qədər konkret bildirən olmayıb ki, rayonlardan Bakıya nə qədər avtomobil gəlirdi və bunların qarşısı alınıb. Sanki kimsə oturub kabinetində və şəxsi təxəyyülünə uyğun olaraq bunu cəmiyyətə tətbiq etmək istəyir. Bu cür iş olmaz".

Ekspert bildirib ki, açıqlamalarda hər gün Bakıya 100 min rayon qeydiyyatında olan avtomobilin gəldiyini söyləyənlər yalnışlıqlara yol verirlər:

"Azərbaycanın bütün bölgələrində cəmi 400 min avtomobil var. Bunun isə hər gün 100 mininin Bakıya gəlməsini söyləmək əsaslı ola bilməz. Adama gülərlər. Paytaxtda sıxlıq yaradan elə Bakı maşınlarıdır".

Ə.Hüseynov bildirir ki, diqqəti ictimai nəqliyyat sisteminin təkminləşdirilməsinə yönəltmək lazımdır: "Problemin həllini ictimai nəqliyyatda axtarmaq lazımdır. Elə şərait yaratmaq lazımdır ki, insanlar Bakıya şəxsi avtomobilləri ilə deyil, ictimai nəqliyyatla gəlmək istəsinlər. Eyni zamanda şəhərin yol infrastrukturasına diqqət etmək lazımdır. Dünyanın heç bir şəhərində yollar belə deyil. Şəhərin tutaq ki, min küçəsi varsa, onlardan orta hesabla yüzü istifadə üçün yararlıdır. Qalanları isə bərbad vəziyyətdədir. Onlar qanunsuz zəbt olunub və bu davam etməkdədir. Problemin kökü budur. Yol Hərəkətinin Təhlükəsizliyi Komissiyası yaxşı olar ki, bu işlərlə məşğul olsun".

❑ **Əli RAİS**

# Qubada toydan qayıdan ailə şoka düşdü



**Qubada yaşayış evində yanğın baş verib. Anspress-in məlumatına görə, hadisə gecə saatlarında Qubanın Amsarqışlaq kəndində qeydə alınıb. Kənd sakini, 47 yaşlı Akif Şükürova məxsus 4 otaqdan və 2 aynəbənddən ibarət 2 mərtəbəli ev qəfildən alışıb yanmağa başlayıb.**

Evin sahibi Akif Şükürov yanğının qısaqapanma nəticəsində baş verdiyini bildirib: "Biz toyda idik, gəlib gördük ev tamam yanıb. İşıq xətlərindən yanıb". Yanğının söndürülməsi üçün əraziyə dərhal FHN-in Quba DYMH-nin iki yanğınsöndürən avtomobili və canlı qüvvəsi cəlb edilib. Lakin buna baxmayaraq ev tamamilə yanaraq külə dönüb.

Son zamanlar Quba rayonu fərdi mənzillərin yanmasına görə "liderlik" edir. Bu, sentyabrın 28-dən sonra Qubada yanan 3-cü evdir.




# Rayon maşınları üçün əzablı dayanacaq

## Yuxulu sürücülər, bağlı otaqlar, qazanan kafelər...



**Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyasının qərarına əsasən, yük və rayon qeydiyyatında olan minik avtomobillərinin yay və qış rejimlərində Bakıya buraxılmasına dair fərqli qrafik müəyyənləşdirilib.**

Rayon qeydiyyatında olan avtomobillərin paytaxta daxil olması sentyabr ayının 15-dən etibarən rəsmi qaydada qadağan olunub. Lakin son günlər bölgələrdən Bakıya gələnlərlə müvafiq dayanacaqlarda xidmət göstərən polis əməkdaşları arasında yaranan narazılıqların sayı artmaqdadır. Hətta bəzi vətəndaşlar dayanacaqlarda avtomobil saxlamaq üçün onlardan pul alındığını deyirlər. Şəhərin girişindəki dayanacaqlarda vəziyyətin necə olmasını öyrənmək üçün Bakı-Sumqayıt yolunda yaradılan dayanacaqlarda olduq.

Şəhərin girişində yaradılan əsas postda DYP əməkdaşları tərəfindən yolayırıcılar qurulub. DYP əməkdaşları rayon və şəhər qeydiyyatı olan avtomobillərin istiqamətini bu yolayırıcılar vasitəsilə dəyişirlər. Şəhərə yalnız 90, 10 və 99 seriyalı avtomobillər buraxılır. İkinci post köməkçi funksiyasını yerinə yetirir. Postlardan keçən rayon qeydiyyatlı avtomobillər "VAZ"ın dairəsi adı ilə tanınan əraziyə gəlir və Xırdalan dairəsi istiqamətində gedirlər.

Dayanacaqda xidmət göstərən DYP əməkdaşları bildirdilər ki, rayon qeydiyyatında olan avtomobillər Xırdalan dairəsi istiqamətində gedirlər. Həmin istiqamətdə də postlar yaradılıb və şəhərə buraxılır. Lakin biz sürücülərə yaxınlıqda rayon qeydiyyatında olan avtomobillər üçün nəzərdə tutulmuş dayanacaqlarda gözləməyi təklif edirik. Müşahidə apardığımız zaman rayondan gələn sürücülərin bəziləri DYP əməkdaşları ilə mübahisə edir, bəziləri isə xahiş-minnət edib şəhərə girməyə çalışırdılar. Lakin DYP əməkdaşları verilən tapşırığı yerinə yetirirdilər.

Rayon qeydiyyatı olan avtomobillərin dayanacağı sentyabrın 15-dən istifadəyə verilib. Yaradılan dayanacaqda gözləmə otağı, kafe, qadınlar üçün xüsusi otaq, həkim otağı var, lakin demək olar ki, fəaliyyət göstərmir. Dayanacağın həyətində 645 avtomobil üçün yer var. Yük maşınları və avtomobillər üçün dayanacaqlar ayrıdır. Burada fəaliyyət göstərən kafe gecə yarısına kimi xidmət göstərir. Bundan əlavə, rayondan gələn sürücülər yaradılmış dayanacaqlarda avtomobillərini saxladıqdan sonra, buradan 199 nömrəli marşrutlarla şəhərə daxil ola bilərlər.

Dayanacaqlarda bir qədər qabaqda, yol kənarında dayanan yük maşınlarına rast gəlirik. Axşam saat 9-u gözləyən sürücülərin üzündən yorğunluq və narazılıq yağır. Zaqatala rayonundan gələn yük maşını sürücüsü 3 saata yaxındır ki, burada gözlədiyini deyir: "Zaqataladan Bakıya yük daşıyıram. Hər dəfə bu zülmü çəkirəm. Yaxınlıqda zavod var, un yükləməliyəm. Postda dedilər ki, saat 8-də açılacaq. İndi bu vaxt şəhərə daxil olub, zavoddan yükü vurub çıxana kimi xeyli vaxt lazımdır. Mən rayona nə vaxta gedib çıxacağam, Allah bilir".

Diqqət çəkən məqamlardan biri də dayanacaqdakı gözləmə otağının bağlı olması idi. Sürücülər bildirdilər ki, gözləmə otağını bağlayıblar, oturub gözləməyə yer tapmırlar: "Gözləmə otağını bağlayıblar deyə, məcbur olub oturmaq üçün yaxınlıqdakı kafeyə keçirik. Kafedə gözləmək üçün də gərək nəsə alasan, ən azından 3-5 manat xərcin çıxsın. Yəqin ki, kafe onların özlərinindir. Qazanc əldə etmək üçün bu vasitəyə belə atırlar".

Adının çəkilməsini istəməyən başqa sürücü bildirdi ki, burada gələnlərdən pul almaq üçün hər varianta gedilir6 "Kafedə nəsə almadan oturub gözləmək olmaz. Biz də bir çaynik çayı maksimum yarım saata içirik. Lakin müştəri olan kimi məcbur kafeni tərk edirik. Dayanacaqların pulsuz olacağını demişdilər. Ancaq indi bizdən bir gün üçün 2 manat alırlar. Ancaq mətbuatda belə yazılmamışdı, pulsuz olmalı idi".

Dayanacaqların pullu olub-olmamasını öyrənməyə çalışsaq da, ərazidə məsul şəxsə rast gələ bilmədik.

Ərazidə olarkən onu da öyrəndik ki, rayon maşınlarının şəhərə giriş vaxtı 21:00 olsa da, saat 19:35-dən etibarən avtomobillər şəhərə buraxılır.

Müşahidə zamanı DYP əməkdaşları musavat.com-un əməkdaşının çəkiliş aparmasına mane oldular. Jurnalist vəsiqəmiz və video-kameranı baxmaq adı ilə əlimizdən alaraq, uzaqlaşdılar və kamerada olan materialları silməyə cəhd elədilər...

❑ **Məğrur SALMANOV**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

# Xəzərdə üzən "adsız gəmi" müəmması davam edir

## Bakı sakini Qəmbər Səfərov məsələ ədalətli həll olunmazsa, vətəndaşlıqdan imtina edəcəyini deyir...

**Qəmbər Səfərov ad-soyadlı Bakı sakini redaksiyamıza müraciət edib. O, Dövlət Dəniz Administrasiyasının rəhbəri Qüdrət Qurbanovdan şikayətçidir. Şikayətçi bildirib ki, onun sahibi olduğu "Yunıy moryak" adlı yük gəmisi Qüdrət Qurbanov tərəfindən mənimsənilib və geri qaytarılmır.**

Onun sözlərinə görə, gəminin qaytarılması ilə bağlı məhkəmə qərarı olsa da, Qurbanov buna məhəl qoymayıb. Belə olan təqdirdə lazımi dövlət instansiyalarından kömək ala bilməyən Q. Səfərov problemi ictimailəşdirmək üçün "Yeni Müsavat" qəzetinə müraciət edib. Şikayətçi başına gələnləri aşağıdakı kimi danışıb:

"2003-cü il fevralın 20-də Rusiyanın Həştərxan şəhərində alqı-satqı müqaviləsi əsasında "Yunıy moryak" adlı yük gəmisi aldım. Elə həmin ilin iyulunda gəmini Bakıya gətirib qeydiyyatdan keçirmək üçün Dövlət Dəniz Administrasiyasına müraciət etdim. Administrasiyadan bildirildi ki, bu gəminin inhisarçısı "Mərdəkan Broyler" ASC-nin rəhbəri Aydın Əhmədovdur. Guya Aydın Əhmədov bu gəmini məndən alıb, Dövlət Dəniz Administrasiyasında öz adına qeydiyyatdan keçirib və hətta gəmiyə "Ramin" adı da qoyublar".


Qəmbər Səfərov

Şikayətçi təqdim olunan alqı-satqı sənədinin saxta olduğunu bilib və məhkəməyə müraciət edib. İşə Səbayel Rayon Məhkəməsi baxıb və sözügedən sənədin saxta olduğunu öz qərarında bildirib: "Məhkəmə gəminin əsl sahibinə qaytarılması və ona bu gəmi üzərində mülkiyyətini təsdiq edən şəhadətnamə verilməsi barədə qətnamə çıxardı. Bundan sonra da mülkimi geri ala bilmədim. Qarşı tərəf 6 aydan sonra Bakı Apelyasiya Məhkəməsinə müraciət etdi. Halbuki qanunvericiliyə görə, apelyasiya şikayəti birinci instansiyanın qərarından sonra maksimum 1 ay müddətində verilə bilər. Bakı Apelyasiya Məhkəməsində qarşı tərəf yeni bir iddia atıb ortalığa. Deyib ki, gəmini qaytarıram, amma ona çəkilən 344 min manatlıq təmir xərclərinin geri qaytarılması şərti ilə. Məhkəmə belə bir təmir işlərinin olub-olmamasını araşdırmaq üçün ekspertiza keçirilməsi barədə qərar verdi. Nəticədə məhkəməyə saxta ekspert rəyi verildi. Həmin sənədin saxtalığını açıq-aşkar göstərən bir neçə fakt var. Məsələn, gəminin sənədində onun uzunluğu 24 metr, eni 5, 28 metr göstərildiyi halda ekspert rəyində uzunluq 30 metr, eni 6 metr qeyd olunub. Birdən-birə gəmi 5,75 metr necə uzadıla bilərdi? Eyni zamanda gəmidə 7 qapı ola-ola rəydə 24 qapı göstərilir. Gəmi 2 mərtəbəlidir, rəydə isə yazılıb ki, 3 mərtəbə var. Mən də deyirəm ki, həmin pulu ödəməyə hazıram, amma burda yazılanları gəmidə mənə bir-bir göstərin. Həmçinin, bir məqam da var ki, Bakı Apelyasiya Məhkəməsi qərar çıxarıb ki, gəmiyə çəkilən 344 min manat təmir işləri "Mərdəkan Broyler" ASC-nin rəhbəri Aydın Əhmədova ödənildikdən sonra gəmi sahibinə - Qəmbər Səfərova qaytarılsın. Halbuki məhkəmənin bu qərarından da bir sual ortaya çıxır. Əgər əvvəlki instansiya məhkəməsi gəminin sahibinin Aydın Əhmədov olmadığını və ondakı alqı-satqı sənədinin saxta olduğunu üzə çıxarıbsa, bu vəsait niyə Aydın Əhmədova ödənməlidir? Üstəlik, ötən illərdə adıçəkilən broyler ləğv olunub. Məhkəmələrə də Aydın Əhmədov adlı şəxs qatılmır".

Şikayətçi iddia edir ki, gəmi hazırda Xəzər dənizindədir və onu ayı 35 min manata icarəyə verirlər. Onun dediyinə görə, ölkədə onun probleminə baxılmadığı üçün xarici qurumlara müraciət etmək qərarına gəlib. O Azərbaycan vətəndaşlığından çıxmaq fikrinin olduğunu da söylədi: "Rusiyada uzun müddət vəzifədə çalışmışam. Azərbaycan vətəndaşlarına da 1990-cı illərin əvvəllərində xeyli maddi yardım etmişəm. Sənədli faktlar var. Ancaq burada başıma belə oyunlar açırlar. Ona görə də ölkə vətəndaşlığından da imtina edəcəm".

Əlavə edək ki, mövzuya mətbuat vaxtaşırı diqqət ayırıb.

Məsələ ilə bağlı Qüdrət Qurbanovla dəfələrlə əlaqə qurmağa çalışsaq da buna nail ola bilmədik. Qurumun Gəmi Heyəti şöbəsinin müdiri Ehtiram Rəhimovla danışdıq. O, məsələdən xəbərdar olduğunu bildirsə də, məzuniyyətdə olduğunu əsas gətirərək geniş açıqlama verməkdən imtina etdi.

Qarşı tərəfin də mövqeyini dərc edə bilərik.

❑ Əli RAİS



# Xeyir-şər mərasimləri zamanı məzuniyyət qanunla necə tənzimlənir?

## Vətəndaşların əmək hüquqları Liqasının sədri: "Şəxs öz hesabına ödənişsiz məzuniyyət hüququndan istifadə edə bilər"

**Toy və yas mərasimləri zamanı işləyən şəxslər iş yerlərindən müəyyən müddətlik icazə və ya məzuniyyət götürürlər. Şəxsin yaxın qohumunun yas və toy mərasimində iştirak etmək üçün işçiyə beş gün müddətinə məzuniyyət verilir. Bəs bu məzuniyyət ödənişli, yoxsa ödənişsiz əsaslarla olur? Ümumiyyətlə, xeyir-şər mərasimləri Əmək Məcəlləsində necə tənizmlənir?**

Vətəndaşların əmək hüquqları Liqasının sədri Sahib Məmmədov bunun razılaşma əsasında olduğunu dedi: "Bunun üçün işə götürənlə razılaşma əsasında şəxs öz hesabına ödənişsiz məzuniyyət hüququndan istifadə edə bilər. Bu, Əmək Məcəlləsi ilə də tənzimlənir. Yaxın qohumlarının vəfatı, xəstəliyi, yaxud hansısa toy mərasimi ilə bağlı Əmək Məcəlləsində işə götürənlə razılaşma əsasında xüsusi bir tənzimləmə var. Günün sayı tərəflərin qarşılıqlı razılaşması əsasında təyin edilir. Amma bu, bir həftədən az olmur".

S. Məmmədov toydan sonra "bal ayı" deyilən müddətin isə işçi ilə işə götürənin razılaşması əsasında növbəti əmək məzuniyyəti hüququndan istifadə etməklə ala biləcəklərini dedilər: "Əksəriyyət müəssisələrdə xeyir və şər mərasimləri zamanı işçini buraxırlar və onun pulunu da ödəyirlər. Azərbaycanda belə bir qanun yoxdur ki, işə götürən desin ki, hüzürün var, mütləq ərizə yazmalısan. Bizdə belə bir şeyə rast gəlməmişəm. Amma qanun bunu da tənzimləyir. Bizdə təşəkkül tapmış praktika odur ki, belə olan halda işə götürən heç bir ərizə tələb etmir. Yaxının dəfnini yola vermək üçün ona nə qədər vaxt lazımdırsa, verirlər gedir".

Bundan başqa Azərbaycanda analıq, atalıq məzuniyyətləri də mövcuddur ki, işləyən analara normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl və sonra hər biri 70 gün olmaqla), çətin doğuş hallarında 156 təqvim günü (doğuşdan əvvəl 70, doğuşdan sonra 86 gün), iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70, doğuşdan sonra 110 gün) məzuniyyət verilir. Norveçdə isə analıq məzuniyyəti 18 ay nəzərdə tutulur. Bu müddət üçün hesablanmış ümumi əmək haqqının 82 faizi ödənilir və məzuniyyət pulunun ödənilməsi işəgötürən və dövlət arasında bölüşdürülür. İsveçlə yanaşı Danimarka, Niderland, Norveç kimi ölkələr bu cür üstünlükləri müəyyən etməklə demoqrafik problemlərin qarşısını almağa çalışırlar. Çünki bu ölkələrdə əhalinin azalması və yaşlanması kimi problemlər mövcuddur.

Böyük Britaniyada isə qadın işçilər 52 həftəlik analıq məzuniyyətindən istifadə etmək hüququna malikdirlər və bu ödənişlidir.

❑ Günel MANAFLI

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 225 (6253) 12 oktyabr 2015

# Özləri əkib, özləri çəkir...

## Narkotik əldə etmək üçün ağlagəlməz yollara baş vuranlarla bağlı ilginc faktlar

**Dünyanın narkotik maddəyə mübtəla olduğu günümüzdə hüquq-mühafizə orqanları onunla hər nə qədər mübarizə aparsa da, tiryəkçilər onu əldə etmənin bir yolunu tapırlar. Filmlərə mövzu olan bəzi epizodlar insanların ona çatması üçün necə var-yoxdan çıxdığını, qətllər törətdiyini ortaya qoyur. Amma narkomanlar və narkomanların "dost"ları onu əldə etmək üçün zaman-zaman orijinal üsullara da baş vururlar.**



Ötən həftə villasının həyətində narkotik maddə əkən azərbaycanlı ilə bağlı ilginc məlumat dərc edildi. Amma məlum oldu ki, özünü təmin etmək, narkotik ehtiyacını ödəmək üçün daha orijinal üsullara baş vuranlar var. Özü də ölkəmizdə. Onlardan bir neçəsini yada salaq.

### Milyoner qardaşının həyətində narkotik əkilib

Bu ilin əvvəlində Bakı sakininin yaşadığı evdən külli miqdarda narkotik vasitə aşkar edilib. Xəzər Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Şüvəlan qəsəbə sakini Əsgərov Habil Əsgər oğlunun yaşadığı evin həyətindən hər birinin çəkisi 35 qram olan 22 ədəd çətənə kolu, evdən isə 5 kiloqram 167 qram marixuana aşkar edilərək götürülüb. Polislərin narkotik vasitələri tapdıqları həyət evi H.Əsgərovun özünə məxsus deyil. Saxlanılan şəxs həmin evdə qarovulçu işləyib. Mənzil sahiblərinin evə gec-gec gəlməsindən istifadə edən H.Əsgərov həyətdə narkotik vasitələr əkib-becərib.

Narkotik vasitələrin əkildiyi mülk məşhur azərbaycanlı milyarder İsgəndər Xəlilovun qardaşı Ramiz Xəlilova məxsusdur. Saxlanılan H.Əsgərov R.Xəlilovun evində qarovulçu işləməzdən əvvəl, Xəlilov qardaşlarının sahibi olduğu Bakı Əyləncə Mərkəzində (BƏM) aşpaz işləyib.

### Həyətini narkotik plantasiyasına çevirənlər

Bu ilin sentyabr ayında həyətində narkotik bitki əkib-becərən 41 yaşlı zərgər saxlanılıb. Sənəti zərgərlik olan Bakı sakini qabiliyyətini başqa sahədə sınayıb. Zərgər bu dəfə peşəsini qızıl-zinətin hazırlanmasına deyil, narkotik vasitələrin əkininə dəyişib. Abşeron Rayon Polis İdarəsi əməkdaşları Novxanı kənd sakini, 41 yaşlı Kənan Quliyevin həyətyanı sahəsinə baxış keçirən zaman əkin sahəsində narkotik bitki olan tiryəkaşk arlayıblar. Saxlanılan şəxs artıq bir neçə müddətdir narkotik vasitədən istifadə etdiyini bildirir. Qeyri-qanuni yolla əkilən narkotik bitkilər polis əməkdaşları tərəfindən yığılaraq maddi sübut kimi götürülüb.

2014-cü ildə isə Masallı sakininin həyətindən külli miqdarda çətənə kolları aşkarlanıb. Maraqlıdır ki, saxlanılan şəxs narkotik vasitədən düz 40 ildir ki istifadə etdiyini və bu narkotik maddələrin onun üçün hələ az olduğunu deyir. Masallı polisinin həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində rayon sakininin həyətyanı sahəsindən külli miqdarda narkotik xassəli çətənə kolları aşkar edilərək götürülüb. Rayon Polis Şöbəsinin (RPŞ) təhqiqat bölməsinin rəisi Aslan Rzayevin verdiyi məlumata görə, Masallının Ərkivan qəsəbə sakini, 51 yaşlı Lazım Şahrza oğlu Hüseynovun narkotik vasitələri qeyri-qanuni əkib becərməsi ilə bağlı şöbəyə məlumat daxil olub.

Daxil olan məlumat əsasında polis şöbəsinin əməkdaşları dərhal hərəkətə keçiblər. Lazım Hüseynovun yaşadığı fərdi yaşayış evinin həyətyanı sahəsinə baxış keçirilən zaman ev sahibinin bostan və tərəvəz bitkiləri arasında dibçəklərdə və torpaqda qanunsuz olaraq əkib-becərdiyi və aqrotexniki qaydada qulluq göstərdiyi narkotik xassəli 37 çətənə kolu aşkar edilib. Lazım Hüseynov isə saxlanılaraq şöbəyə aparılıb. O, törətdiyi cinayət əməlini etiraf edərək, çətənəni şəxsi istifadəsi üçün əkdiyini bildirib.

Ağdam rayon Polis Şöbəsinin əməkdaşları çətənə kollarının əkilib-becərilməsi və alqı-satqısı ilə məşğul olan şübhəli şəxsi saxlayıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları rayonun Xındırıstan kənd sakini Firdovsi Allahverdiyevin evində əməliyyat keçiriblər. Nəticədə həmin şəxsin həyətində becərilmiş çətənə kolları aşkarlanıb. 42 yaşlı Firdovsi Allahverdiyev polis tərəfindən saxlanılıb.

Kriminal xronikada isə Kürdəmirdə nar bağında, eləcə də fındıq bağında narkotik maddə əkilməsi ilə bağlı bir çox xəbərə rast gəlmək mümkündür.

### Qarabağda da narkotik əkilir...

Baş nazirin müavini Əli Həsənov isə tədbirlərdən birində bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərində narkotik əkilir, satılır, bu ərazilər Əfqanıstan narkotikinin beynəlxalq tranzit marşrutuna çevrilib: "O ərazilərdə terror qrupları formalaşdırılıb və dünyanın müxtəlif konflikt zonalarına göndərilir. Bundan müəyyən vəsait qazanırlar. Bu yaxınlarda Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi tərəfindən narkotikləri daşıyan bir neçə şəxsi saxlanılıb. Onlar özləri etiraf ediblər ki, bu orada əkilib, becərilən narkotikdir. 1998-ci ildən Azərbaycan Prezidenti, hökuməti bu problemi beynəlxalq tədbirlərdə qaldırıb və bildirilib ki, həmin ərazilərdə belə hallar, faktlar var. Bu bir daha onu göstərir ki, dünyanın özündə də bu cür faktlara haradasa biganəlik var. Bu biganəlik özü də gələcəkdə həmin dövlətlərin özü üçün ciddi bir problemə gətirib çıxara bilər. Həmin problemlə bağlı BMT-nin narkotiklərlə məşğul olan idarəsinə bu yaxınlarda yenə bir müraciət göndərəcəyik".

### Orduda da narkotik yetişdirilir, evlərin damında da...

İtaliya ordusunun marixuana istehsalına başlayacağı barədə məlumat sentyabrda hökumət tərəfindən elan edilmişdi. Ölkədə nəşr olunan "Corriere della Sera" qəzetinin internet saytında artıq yaxşı məhsul əldə edildiyi bildirilir. Florensiya şəhərində hərbi tarlanın ətrafında möhkəm təhlükəsizlik tədbirləri görülüb. Ordu illik 100 kiloqram məhsul əldə etməyi hədəfləyib. Zavodlarda əldə edilən məhsulun qurudulması və qablaşdırılması üçün də xüsusi hazırlıqlar görülür.

Polkovnik Antonio Medica müsahibəsində bildirib ki: "Məqsədimiz getdikcə artan xəstəni daha uyğun qiymətə tibbi narkotiklə təmin etməkdir. Xəstələr hər zaman normal narkotik tapa bilmirlər". Onu da qeyd edək ki, italyan həkimlər xəstəyə qanuni olaraq narkotik yaza bilirlər. Ancaq tibbi narkotikin xərci dövlət tərəfindən qarşılanmır. Apteklərdə satılan narkotik isə olduqca bahalıdır. Nazirlik vəziyyəti dəyişdirmək və qiymətləri aşağı salmaq niyyətindədir. İtaliya hal-hazırda tibbi narkotikanı xarici ölkələrdən, xüsusilə də Hollandiyadan idxal edir və qramı 35 avroya satılır.

Hollandiya polisi Haarlem şəhərində maraqlı bir narkotik əməliyyatı reallaşdırıb. Ətrafdakı binaların damında qar olduğu halda bir binanın damında qar olmaması hüquq-mühafizə orqanlarının diqqətini çəkib. Narkotik maddə olan çətənə kolu becərilərkən isti hava və işığa ehtiyac duyulduğunu bilən polislər evə basqın edib. Şübhələrində yanılmayan hüquq-mühafizə orqanları evdə qeyri-qanuni şəkildə çətənə kolunun yetişdirildiyinin şahidi olub.

Hollandiya polisi daha sonra bu evin fotoşəkilini bir sosial şəbəkədə paylaşaraq bu qeydləri verib: "Əgər qonşunuzun damında qar yoxdursa və qonşunuzun çətənə kolu yetişdirdiyini düşünürsünüzsə, bizə anonim şəkildə bildirin".

Polisin bu paylaşımı ictimai mediada böyük əks-sədaya səbəb olub.

### İldə 10 min ton tiryək istehsal edilir

Xaşxaş, yəni tiryək ən bahalı narkotiklərdən olan heroin üçün ilkin xammaldır. Birləşmiş Millətlər Təşkilatının Narkotik və Cinayətkarlığa qarşı Mübarizə ofisinin məlumatına görə, tiryək istehsalı illik 10 min tona yaxınlaşır. Əfqanıstan isə bunun 90 faizini istehsal edir. Ölkədə narkotik maddələri üçün ayrılan ərazi 250 min hektardır. 9 min tonluq tiryək saqqızından isə ildə təxminən 500 ton heroin əldə edilir. Tiryək saqqızlarından Əfqanıstanın Pakistan və İran sərhədlərindəki laboratoriyalarında heroin əldə olunur. Əldə olunan heroinin isə təxminən 400 tonu digər ölkələrə göndərilir.

400 tonluq "əfqan malı"nın 100 tonunun hər il şimal istiqamətində - Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan marşrutu ilə Rusiyaya çatdırıldığı təxmin edilir. Heroinin 100 tonu da müxtəlif yollarla Çin, ABŞ, Kanada və Afrika ölkələrinə göndərilir. Qalan 200 ton heroinin ünvanı isə Avropadır. Son məlumatlara görə, Əfqanıstanda bir kiloqramı 3 min dollara alınan heroinin qiyməti Türkiyəyə çatanda 12 min dollara çatır. Heroin Türkiyə üzərindən Avropaya çatanda isə qiyməti 45 min dollara satılır. Terror təşkilatları isə narkotikin daşındığı marşrutların "təhlükəsizliyi"nin təmin edilməsi üçün çox əhəmiyyətlidir. Kabil - Nyu York xəttində ilk mərhələ olan Kabil-London marşrutunun "təhlükəsizliyi"ni isə PKK üzərinə götürür.

PKK isə bu işin əvəzində Qərb ölkələrindən aldığı silahlarla hücumlarını davam etdirir. Cənubi Koreyada marixuana ümumiyyətlə narkotik maddə kateqoriyasına daxil deyil. Əsgər və işçilər isə yorğun və gərgin günün sonunda stressdən və günün yorğunluğundan qurtulmaq üçün marixuanadan istifadə edirlər və bu, az qala günün sonunda spirtli içki içməyə bərabər sayılır.

Dünyada narkotik maddənin satışı və istifadəsinin qanuni olduğu ölkələr də var. Bu siyahıya son olaraq Rumıniya daxil olub. O, Avropa Birliyi (AB) ölkələri arasında narkotiki qanuniləşdirən onuncu ölkə sayılır. Tibb məqsədilə narkotikdən istifadənin qanuni olduğu ölkələrin siyahısı aşağıdakı kimidir: ABŞ, Argentina, Avstraliya, Belçika, Braziliya, Kamboca, Kosto-Rika, Xorvatiya, Çexiya, Ekvator, Estoniya, Fransa, Hindistan, İran, Pakistan, Cənubi Koreya, Uruqvay, İspaniya, Hollandiya.

Məsələn, siyahıdakı ölkələrdən biri olan Uruqvay dünya üzrə dövlət nəzarəti ilə marixuana sənayesi quran tək ölkə olmağa hazırlaşır. Plan çərçivəsində marixuana qiymətləri bir xeyli aşağı salınacaq və qara bazar üzərinə təzyiq ediləcək. Nəticədə marixuananın yetişdirilməsi və paylaşdırılması hökumətin nəzarəti altında olacaq. Portuqaliya hökuməti isə narkotik istifadəçiləri üçün tətbiq etdiyi pul cəzasını 2001-ci ildə ləğv edib. Ardınca "Narkotikdən imtina və reabilitasiya" adlı proqramlara keçdi və bu təcrübə ilə olduqca ciddi müvəffəqiyyət əldə etdi.

Marixuana ABŞ-da federal səviyyədə hələ qanundan kənar sayılır. Amma "medikal marixuana" adına hardasa 300 milyon dollar xərclənib. Bununla yanaşı, prezident qanunlara hər hansı dəyişiklik etməyi planlaşdırmır və bu dəyişikliyi dəstəkləmir.

Bu arada narkotik istifadəçilərinin daha bir "maraqlı" çıxış yolu var. Satışı qanunsuz sayılan narkotik maddələrin əvəzinə onların təqlidi olan "psixoaktiv maddə", "bitkisəl narkotik"lər satışa çıxarılır. Bu yeni narkotik maddələr hər həftə müəyyən qrafiklə bazardakı yerini alır. Bəzi ölkələr səhiyyə sistemini qorumaq məqsədilə bu satışın kökünü kəsdikləri halda bir qisim ölkələr bu məsələdə daha rahat davranırlar.

Portuqaliyada müalicə məqsədilə istifadə edilən dərmanların qeyri-tibb məqsədilə istifadəsinə görə sintetik narkotik maddələr satışa çıxarılıb. Ölkənin gəncləri bu maddələri çox asanlıqla əldə edə bildiklərini deyirlər: "Bunları tapmaq çox asandır. Bir dükana girib satın almaq mümkündür. Yeni mal olduğu üçün yeni bir təcrübə sayılır. Polis da buna bir şey deyə, bizi həbs edə bilməz. Ona görə də çatımı asan olan bu dərmanlardan istifadə edərkən özümüzü daha güvəndə hiss edirik".

Bəzi hökumətlərin ciddi cəhdlərinə baxmayaraq, bu dərmanlar hər gün artan internet saytları vasitəsilə satın alına bilir. Bəzi ölkələrdə isə qanuni narkotik maddələr "ağıllı dükan" adı verilən dükanlarda realizə edilir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 225 (6253) 12 oktyabr 2015

# 15 min dollara satılan itlər

İngiltərədəki bir adada saxlanılan və dünyada yalnız 800 ədəd olan Phu Quoc cinsli itlərin sahibi bir anda varlanıb. Katarina Lane adlı qadın Phu Quoc cinsindən olan iki itinin 4 balasını bu il satışa çıxarıb. Yeni doğulmuş itlərin hər birini 15 min dollara satan qadın qısa müddətlə varlanıb. Katarinanın sözlərinə görə, Avropa qitəsində bu cinsdən olan itlərə sahib olan yalnız bir nəfərdir. "Daily Mail" qəzetinin xəbərinə görə, 7 həftəlik it balaları Yeni Zelandiya, Küveyt və Seyşel adalarında belə hər kəsin



diqqətini cəlb edib. Onlarla adam yeni doğulmuş itlərə sahib olmaq üçün Katarinaya hədiyyələr təklif edib. Təxminən 15 il yaşayan itlərə dünyanın bir çox ölkələrində yaşayan varlıların marağı böyükdür.



## Yatmazdan əvvəl bunları etməyin

İngilis alimlər yatmazdan əvvəl edilməməsi önəmli olan hərəkətlərin siyahısını açıqlayıblar:

1.Yanlış dərman seçimi: Allergiya və soyuqdəymə müalicəsində istifadə edilən bəzi dərmanlar orqanizmə mənfi təsir edərsə, yuxusuzluğa səbəb ola bilər;

2.Kompüter və telefondan istifadə: Araşdırmalar göstərir ki, kompüter, planşet və mobil telefonların yaydığı mavi işıq insan orqanizmində dəyişikliklər yaradır və yuxu rejimini pozur. Ona görə də yatmazdan 1-2 saat əvvəl həmin cihazlardan uzaq durmaq lazımdır.

3. İsti duş: İsti suyun insanı rahatlaşdırdığı doğrudur, lakin bədənin istiliyini artırır. Mütəxəssislər isə rahat yatmaq üçün bədən temperaturunun aşağı olmasının vacib olduğunu deyirlər.

4. Çox yemək: Yatmazdan əvvəl yemək narahat yatmağa və pis yuxular görməyə səbəb olur.

5. Stress: Yatmazdan əvvəl əsəbiləşmək beynin sakitləşməsinə imkan vermir. Bu da yuxusuzluğa gətirib çıxarır.

# 40 milyon funt-sterlinq topladı və qaçdı

İngiltərənin paytaxtı Londonda yaşayan 41 yaşlı alman biznesmen Keliks Vossen daha çox pul qazanmağı vəd edərək dostlarından və qohumlarından topladığı 40 milyon funt-sterlinqlə birlikdə qaçıb. Almaniyada olduqca zəngin bir ailənin oğlu olaraq dünyaya gələn Vossen 20 il əvvəl Londona köçərək bank işi ilə məşğul olmağa başlayıb. Bank sektorunda böyük uğurlar əldə etdikdən sonra qohumları və dostları pullarını ona əmanət edərək daha çox pul qazanmağa çalışıblar. Vossen hər kəsin etibarını qazandıqdan sonra - 7 ay əvvəl dost-tanışdan topladığı 40 milyon sterlinqlə birlikdə ölkəni tər edib. Polislər Vossenin İsveçə gedən bir təyyarəyə mindiyini təsbit edə biliblər. Bir daha ondan xəbər alınmayıb. Ən sonda isə keçmiş sevgilisinə üzr istəmək üçün mesaj yazıb. Hazırda İsveç və İngiltərə polisi onu axtarsa da, heç bir izə rast gəlinməyib.





## Sosial şəbəkə övladının ölümünə səbəb oldu

İngiltərədə yaşayan Klara Barnet adlı qadın oğlunun ölümünə səbəb olduğu üçün həbs edilib. Məlumatlara görə, gənc qadın facebook sosial şəbəkəsindəki dostları ilə yazışarkən 2 yaşlı oğlu hovuza düşüb və doğularaq həyatını itirib. Məhkəməyə çıxarılan qadın oğlunu hovuza düşdükdən 20 saniyə sonra çıxardığını və onun ölümündə heç bir günahının olmadığını desə də, hakimi inandıra bilməyib. Çünki polislər hadisə baş verdiyi zaman qadının telefonla yazışdığını və sosial şəbəkəyə şəkil yüklədiyini müəyyənləşdirib. Məlumatlara görə, Katarina daha əvvəl övladlarına qarşı diqqətsizlik etdiyi üçün nəzarətdə saxlanılıbmış. Gənc qadının vəkili bu hadisənin hər kəsin başına gələ biləcəyini desə də, hakim anaya 5 il həbs cəzası verib.




**QOÇ** - Astroloji göstəricilər bu təqvimə böyük ümidlərlə yanaşdığınızı bəyan edir. Bunun üçün ilk öncə enerjinizi münasibətləri yaxşılaşdırmağa yönəldin. Boş məsrəflərə isə ciddi pul xərcləməyin.

**BUĞA** - Göy qübbəsi ilk növbədə maddi durumunuza müsbət təsir göstərəcək. Saat 12-dən başlayaraq əsas vaxtınızı yalnız bu amilə ayırın. Ağlınız kəsməyən işlərə isə girişməyin. Axşam təmiz havada çox gəzinin.

**ƏKİZLƏR** - Maliyyə problemlərinizin artdığı bu ərəfədə özünüzü üzməməlisiniz. Çünki Göy qübbəsi bunun qısa zamanı əhatə edəcəyini bildirir. Bu gün konkret olaraq ailə üzvlərinizlə ilgilənin.

**XƏRÇƏNG** - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Bir tərəfdən maraqlı insanlarla görüşləriniz, digər tərəfdənsə şəxsi işlərinizdə baş qaldıran müsbət dönüş sizi sevindirəcək.

**ŞİR** - Saat 11-12 və 19-20 aralığı sizin üçün bir qədər mübahisəli keçə bilər. Həmin zamanlarda maksimum təmkin nümayiş etdirin. Günün qalan hissəsini normal başa vuracaqsınız. Təcrübəniz olmayan işlərə girişməyin.

**QIZ** - Sağlıq durumunuz imkan versə, bu gün paralel olaraq bir neçə işin öhdəsindən gələ biləcəksiniz. Şəxsi həyatınıza hakim kəsilən problemlərə də işıq düşəcək. Özünüzü daha çox sevgiyə həsr edin.

**TƏRƏZİ** - Mənfi enerjili Ay gün boyu sizin bürcdə bərqərar olduğu üçün ilk növbədə səhhətinizlə bağlı problemlər yarana bilər. Odur ki, orqanizminizə uyğun olmayan işlərdən uzaq olun. Əsəblərinizi qoruyun.

**ƏQRƏB** - Oktyabrın bəxtinizə düşən ən uğurlu günü artıq yetişib. Elə isə boş dayanmağa lüzum yoxdur: bütün cinahlardan hərəkətə keçin. Xüsusən də fəaliyyətlə bağlı uğurlu məqamlarınız artacaq.

**OXATAN** - Ulduzların düzümü xoş məqamların şahidi olacağınızı bəyan edir. Lakin bu kimi şansları qaçırmamaq üçün özünüz də aktivlik göstərməlisiniz. Azyaşlılara xüsusi diqqət yetirin.

**OĞLAQ** - Naharaqədərki müddəti neytral şəkildə başa vurmağa çalışın. Çünki göstərilən ərəfədə müəyyən xoşagəlməzliklər baş verə bilər. Xüsusən də pulla bağlı söhbətlərdə ehtiyatlı olun.

**SUTÖKƏN** - Əgər daxilinizdə paxıllıq və eqoistlik varsa, qısa zamanda ondan təmizlənin. Yoxsa xoş məqamlar sizdən uzaqlaşacaq. Əgər bunu bacarsanız, uğurlu bir gün yaşayacaqsınız.

**BALIQLAR** - Astronomik mənzərənin gərginliyi fəaliyyət istiqamətində bəzi planlarınızı təxirə salmağı tövsiyə edir. Ümumiyyətlə bu gün risk etməyin. Münasibətlərdə isə qarşı tərəfin emosiyalarına təmkinlə yanaşın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Facebookda mükəmməl yenilik



Facebook sosial şəbəkəsinin yaradıcısı Mark Zukerberq növbəti yenilik edib. Mark facebook istifadəçilərinin maraqla gözlədiyi "bəyənməmək" düyməsinin yerinə alternativ "emodzi"lər haqqında öz rəsmi profilində qısa bir video paylaşaraq məlumat verib. O, sosial şəbəkədəki paylaşımlara fərqli reaksiyaları ifadə etmək məqsədi ilə "like" düyməsinin yerinə 6 yeni "emodzi" üzərində çalışdıqlarını bildirib. "Bəyənirəm" standart düyməsinə daha 6 yeni düymə əlavə olunub: "sevgi", "gülüş", "sevinc", "kədər", "qəzəb", "təəccüb". Əlbəttə, yeni əlavə olunmuş düymələrin sınağı olacaq. İlk dəfə İspaniya və İrlandiyanın sosial şəbəkə istifadəçiləri arasında sınaq keçiriləcək. Artıq bu gündən onların monitorlarında yeni əlavə olunmuş "emodzi"lər görünəcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300